AZƏRBAYCAN MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ

AZƏRBAYCAN TURİZM VƏ MENECMENT UNİVERSİTETİ

İCTİMAİ FƏNLƏR KAFEDRASI

# MƏDƏNİYYƏT TARİXİNƏ DAİR TƏDQİQATLAR

(dərs vəsaiti)

Azərbaycan Turizm və Menecment Universiteti Elmi Şurasının 12 sentyabr 2017-ci il tarixli, 01 saylı protokolu ilə çapa tövsiyə edilib.

Azərbaycan Respublikası
Prezidentinin İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

Bakı-2017

**Müəllif: t.ü.e.d. prof. Minaxanım Rafiq qızı Əsədova**

**Elmi redaktor: Filologiya üzrə fəlsəfə doktoru Reyhan Qaraş qızı Mədətova**

**Rəyçilər: Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Ülkər Kamal qızı Talıbzadə**

**Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Günay Nazim qızı Qafarova**

**Minaxanım Rafiq qızı Əsədova. MƏDƏNİYYƏT TARİXİNƏ DAİR TƏDQİQATLAR.**

**"İN-2017" MMC**



## Ön söz

Müasir Azərbaycan milli mədəniyyətşünaslığının əsas tədqiqat istiqamətlərindən biri milli mədəniyyət tarixinin bütün genişliyi ilə öyrənilməsi məsələsidir. Dünya mədəniyyətinin ümumi inkişafında müstəsna yeri olan Azərbaycan mədəniyyəti tarixi problemlərinin, onun görkəmli nümayəndələrinin ictimai-siyasi baxışlarının tarixi kontektsdə öyrənilməsi mühüm elmi aktuallıq kəsb edir. Məhz bu məqsədlə ümummilli lider Heydər Əliyev dönə-dönə xatırladırdı ki, "Gərək hər bir insan və xüsusən gənc nəsil müstəqilliyin nə qədər müqəddəs olduğunu bütün varlığı ilə dərk etsin, onu qorumaq və möhkəmləndirmək üçün hər cür qurban verməyə hazır olsun. Bunun üçün isə o, ilk növbədə yüksək mənəviyyata malik olmalıdır, xalqımızın milli-mənəvi dəyərləri onun şəxsiyyətinin mahiyyətini təşkil etməlidir. O, azərbaycançılığın, mənsub olduğu Azərbaycan xalqının mədəniyyətinin, ədəbiyyatının, incəsənətinin, elminin nə olduğunu dərindən bilməlidir"(2) Tarixi-mədəni irsimizin tədqiqi zəruriliyinin birbaşa ümummilli liderin dilindən səslənməsi diqqətəlayiq bir hal olmaqla, həm də bu sahədə aparılmalı olan elmi araşdırmaların əsas konturlarını çəkir. Heydər Əliyev milli-mənəvi dəyərlərin qorunması ilə bağlı bəyanatında deyirdi ki, hər xalqın özünə, öz tarixi köklərinə, əcdadları tərəfindən yaradılmış milli-mənəvi dəyərlərinə bağlılığı böyük amildir. Tarixi irsə belə bir konseptual yanaşma ictimai və humanitar elm sahələri qarşısında mövcud bədii və ictimai fikir tarixini, ümumən mədəniyyət tarixini düzgün müəyyənləşdirilmiş milli konsepsiya işığında təqdim edilməsini tələb edir. Akademik R.Mehdiyevin İctimai və humanitar elmlər: zaman kontekstində baxış("Fəlsəfə və sosial-siyasi elmlər", 2009, № 4, s.32) məqaləsində qeyd etdiyi kimi: "Dünya elminə

inteqrasiya mərhələsində olduğumuz indiki vaxtda ictimai və humanitar elmlər sahəsində islahatların başlıca spesifikası müəyyənləşdirilməlidir. Bu elmlər hazırkı fazanın əsas xüsusiyyətlərini araşdırmalı və yeni ideyalar irəli sürməlidir" Bu mənada Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin ön plana çəkilməsi mənəvi köklərimizə qayıdış istiqamətində, milli mənsubiyyətimizin təkcə formal surətdə deyil, həm də məzmun baxımından təsbit olunması uğrunda aparılan mübarizə həm də elmi-nəzəri əsaslara malik olmalıdır.

Müasir dövrdə Azərbaycan Respublikasının beynəlxalq miqyasda nüfuzunun daha da artmasına, müstəqilliyinin daha da möhkəmlənməsi istiqamətində uğurlu siyasət həyata keçirilir. Eləcə də təhsil və mədəniyyətin inkişafı üçün zəruri qərarlar qəbul edilir. Dövlət aparatının, təhsil və mədəniyyət institutlarının dünya standartlarına uyğun şəkildə qurulması istiqamətində səylər göstərilir. Milli-mədəni, intellektual qüvvələr öz fəaliyyətləri ilə dövlətin mədəniyyət sahəsindəki siyasətinin müasir vəziyyətini təhlil edir və bu siyasətin həyata keçirilməsində fəal iştirak edirlər. Bütün bu fəaliyyətlər Azərbaycan Respublikasının dövlət müstəqilliyinin daha da möhkəmləndirilməsinə imkan verir. Hazırda Azərbaycan dövlətinin nüfuzlu beynəlxalq təşkilatlara tamhüquqlu üzv qəbul edilməsi isə onun beynəlxalq mövqeyinin möhkəmləndirilməsinə, dünya ölkələri içərisində öz layiqli yerini tuta bilməsinə əlverişli şərait yaradır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 4 may 2009-cu il tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiya" və "Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiyanın həyata keçirilməsi ilə bağlı Dövlət Proqramı" respublikamızda elm sahəsində həyata keçiriləcək islahatların konseptual əsaslarını özündə əks etdirir. Prezident İlham Əliyev AzərbaycanRespublikasında milli elmi qurumların strukturunun müəyyənləşdirilməsi, mədəniyyət tarixilə bağlı tədqiqatların müasir standartlar səviyyəsində aparılması, ölkənin elmi kadr potensialının artırılması, bütövlükdə elmin inkişafı üzrə milli strategiyanın həyata keçirilməsi və Azərbaycan elminin beynəlxalq elm məkanına inteqrasiyasının təmin olunmasını sürətləndirmək məqsədi ilə geniş tərkibdə Dövlət Komissiyasının yaradılması haqqında sərəncam imzalamışdır ki, bunun uğurlu nəticələri artıq öz bəhrələrini verməkdədir. Azərbaycan milli mədəniyyətinin inkişafı və təbliği sahəsindəki uğurlar və ölkənin dünya mədəniyyətinə sürətli inteqrasiyası da bunu təsdiqləməkdədir. Son illərdə Azərbaycan Rspublikasında mədəniyyətə dair bir sıra mühüm beynəlxalq tədbirlər, o cümlədən milli-mədəni irsin tədqiqinə və kulturoloji istiqamətli elmi araşdırmalara stimul vermiş kulturoloji forumlar, layihə və tədbirlər, elmi konfrans və simpoziumlar keçirilmişdir ki, bunlar içərisində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedevin təşəbbüsü ilə 10 oktyabr 2011-ci il tarixində "XXI əsr: ümidlər və çağırışlar" devizi ilə təşkil edilmiş Bakı Beynəlxalq Humanitar Forumu müasir mədəniyyət siyasətimizin uğuru kimi dəyərləndirilməlidir. Prezident İlham Əliyev 20-dən çox ölkənin və nüfuzlu beynəlxalq təşkilatların nümayəndələrinin, o cümlədən mədəniyyət və incəsənət xadimlərinin, aparıcı kütləvi informasiya vasitələrinin rəhbərlərinin, ictimai xadimlərin iştirak etdiyi bu Forumdakı çıxışında demişdir: "Hesab edirəm, bizim təcrübəmiz əyani şəkildə göstərir ki, müxtəlif mədəniyyətlərə, müxtəlif

dinlərə mənsub olan xalqlar mehribanlıq, sülh, əməkdaşlıq şəraitində yaşaya bilərlər. Yəni, ölkəmizdə bu səpkidə keçirilən tədbirlərin ənənəvi xarakter alması təbiidir. Əminəm ki, Forum çərçivəsində aparılan diskussiyalar, yaradılacaq təmaslar bizi daha da sıx birləşdirəcəkdir. İndiki zəmanədə, qloballaşan dünyada belə tədbirlərin keçirilməsinin çox böyük əhəmiyyəti vardır"

Azərbaycan kulturoloji fikri hər zaman cəmiyyətdə milli birliyin və milli özünüdərkin təmin edilməsinə xidmət etmişdir. Bu missiya qarşılıqlı ünsiyyət və anlaşma, mədəni-mənəvi dəyərlərin nəsildən-nəslə ötürülməsi sayəsində inkişaf etdirilmişdir. Milli istiqlalın və dövlət suverenliyinin qarantı olan mənəvi immuniteti də ictimai və humanitar elmlər təmin etmişdir. Bu gün də "dövlətin elm siyasəti milli ideologiya və dövlətçilik tarixi, mədəniyyət və fəlsəfə, politologiya və sosiologiya, mədəniyyətşünaslıq və hüquq sahələrinin verdiyi təklif, konsepsiya və proqramlarla sıx bağlıdır". Gənc nəslin kulturoloji təfəkkür mədəniyyətinin formalaşması həm də tarixi həqiqətlərin üzə çıxarılması ilə sıx surətə bağlıdır. Bu mənada Azərbaycanın kulturoloji fikir tarixində ən mühüm dövrlərdən biri XX əsrin əvvəlləridir və həmin dövrdə yaranmış mürəkkəb şəraitin, siyasi-ideoloji və elmi-mədəni mənzərənin kulturoloji baxımdan işıqlandırılması böyük əhəmiyyətə malikdir.

Azərbaycan xalqının yenidən istiqlaliyyətə qovuşması ilə mədəniyyət tariximizə münasibətdə baş vermiş dəyişikliklər nəticəsində elmi nəzəri irsimizlə bağlı mövcud stereotiplər də aradan qaldırıldı və milli kulturoloji təmələ söykənən yeni baxışlar sisteminin əsası qoyuldu. Milli tariximizin ideoloji buxovlardan azad olması, mədəni irsimizin imperiya məngənəsindən qurtulması eyni zamanda Azərbaycanın istiqlaliyyəti,



milli dövlətçiliyi uğrunda mübarizə aparmış mücahidlərin, həyatlarını xalqın maariflənməsinə, mədəni tərəqqisinə həsr etmiş mütəfəkkirlərin mədəniyyət tariximizdəki yerlərinin obyektiv və qərəzsiz mövqedən dəyərləndirilməsinə yol açdı. Xüsusilə də, həyat və fəaliyyətləri, elmi-mədəni, ədəbi-bədii yaradıcılıqları unutdurulmuş, hətta adlarının çəkilməsi belə yasaq edilmiş şəxsiyyətlər haqqında tarixi həqiqətlərin, faktiki məlumatların, elmi bilgilərin araşdırılıb üzə çıxarılmasına şərait yarandı. Belə bir mühitdə kulturoloji irsimizin öyrənilməsi və təbliğinə dair tədqiqatçılar bir sıra dəyərli əsərlər yazdılar. Lakin bunlarla yanaşı, hələ bu gün də həyat vəfəaliyyətləri, yaradıcılıqları layiqincə öyrənilməmiş şəxsiyyətlərimiz də vardır ki, bunlardan biri Y.Z.Talıbzadədir.

Sovet dövründə bir qisim ziyalılar kimi Y.Z.Talıbzadənin də adı yasaqlanmış, yaradıcılığı çox vaxt diqqətdən kənarda qalmış, bəzən də düşmən mövqeyindən təqdim edilmişdir. Bu haqda yalnız müstəqillik illərində bəhs etmək mümkün olmuşdur. Bu mənada, Y.Z.Talıbzadə də daxil olmaqla, XX əsrin əvvəllərində yazıb-yaratmış görkəmli şəxsiyyətlərimizin yaradıcılığının, onların mədəniyyət tariximizdəki xidmətlərinin müəyyənləşdirilməsi və əsərlərinin kulturoloji mahiyyətinin açıqlanması mühüm aktuallıq kəsb edir.

**I Fəsil. Mədəniyyət tarixidə milli istiqlal mübarizəsinin əsas istiqamətləri**

Tədqiqatlarda daha çox belə bir ümumi qənaət vardır ki, XX əsrin əvvəlinin böyük istiqlal hərəkatı ədəbiyyatda və mətbuatda, böyük ədəbiyyatı isə milli və ideoloji mübarizənin səngərində yaranmış, 1918-1920-ci illərin Cümhuriyyət hərəkatı əvvəlcə "ideya hərəkatı" kimi formalaşmışdır. "Mənəvi birlik və həmrəylik axtarışlarında ədəbi-ictimai fikir bir neçə mərhələdən keçdi, milli ideya, bəxtini islamçılıqda, turançılıqda sınadıqdan sonra, nəhayət, özünü azərbaycançılıqda tapmış oldu" (3, s. 3). Əslində Azərbaycanda sadəcə bir milli ideya var ki, o da əsası XIX əsrdə milli maarifçilərimiz tərəfindən qoyulmuş azərbaycançılıq ideyasıdır. Avropa və Rusiyanın qabaqcıl universitetlərində və Şərqin dini mərkəzlərində təhsil almış Azərbaycan mütəfəkkirləri məhz bu ideyaya söykənərək Şərqdə ilk dünyəvi, demokratik cümhuriyyətin qurulmasına nail oldular. Azərbaycanda hələ 1918-ci ildə çoxpartiyalı parlamentə, müstəqil KİV-ə malik ilk müsəlman dövləti qurulmuşdur. Azərbaycanda ABŞ və bir sıra Avropa ölkələrindən qabaq qadınlara seçim hüququ verilmişdir. Şərqdə ilk baleti, ilk operanı, dünyəvilik ideyalarını, sekulyar dövlət anlayışını da İslam dünyasına Azərbaycan gətirmişdir.

Azərbaycan cəmiyyətinin belə bir inkişaf səviyyəsinə yüksəldilməsində müstəsna xidmətləri olan şəxsiyyətlərdən biri də Y.Z.Talıbzadə idi. Bütün digər fəaliyyətləri ilə yanaşı bunu da qeyd etmək lazımdır ki, XX əsrin əvvəllərində Bakı xeyriyyə cəmiyyətlərinin və "Müsavat" Partiyasının Türkiyə ilə əlaqələrini saxlayan ən fəal şəxsiyyətlərdən biri məhz Y.Z.Talıbzadə olmuşdur. Onun Azərbaycan-Türkiyə əlaqələrinin yaradılması sahəsində gördüyü işlər mənbələrdə, o cümlədən ailə üzvlərinin xatirələrində təsdiqlənməkdədir. K.Talıbzadənin əlyazması halında olan (63) xatirə yazılarında bu barədə geniş məlumat verilmişdir. Həyat və fəaliyyətindən gətirdiyimiz nümunələr də təsdiqləyir ki, Türkiyədə hərbi təhsili, Balkan hərbində könüllü iştirakı, Birinci Cahan savaşında Osmanlı ordusu tərkibində Qafqaz cəbhəsindəki fədakarlıqları ilə bərabər Y.Z.Talıbzadə özünü Azərbaycanın ictimai-siyasi həyatından da təcrid etməmiş, dövrü mətbuat səhifələrində müxtəlif mövzulu məqalələrlə çıxış etmişdir.

Əvvəlki illərdə də Türkiyəyə gedib-gəlməsinə baxmayaraq o, 1912-ci ildə uzun müddətə Türkiyəyə köçmüş, burada hərbi təhsil almış, Birinci dünya müharibəsində (1914-18) Qars-Ərdəhan cəbhəsində vuruşmuşdur. Bəzi mənbələr onun Türkiyəyə gedişinin 1910-cu ilə təsadüf etdiyini göstərsələr də, əslində o, ailəsi ilə birlikdə 1912-ci ildə Azərbaycanı tərk etmişdir: "1912-ci ildə Yusif Ziya həyat yoldaşı Cənnət xanım və oğlu Tələtlə Türkiyəyə köçmüş, orada hərbi təhsil almış, I dünya müharibəsində Qars Ərdəhan türk ordusu sıralarında ruslara, ermənilərə qarşı döyüşlərdə (minbaşı-mayor rütbəsində) qəhrəmanlıqlar göstərmişdir" (5, s. 12). Onun sonrakı hərbi-siyasi fəaliyyəti Osmanlı ordusu və Azərbaycan könüllülərindən ibarət "İslam ordusu"nda davam etmişdir.

1918 ildə Nuru Paşanın başçılıq etdiyi Türkiyə Ordusu sıralarında Bakıya qayıtmış, Əhməd bəy Ağaoğlunun hərbi müşavir olduğu bir ordunun könüllülərdən ibarət olan Yardım alayının rəisi olmuş (5, s. 12), "Müsavat" partiyasının üzvü kimi Azərbaycan Xalq Cümhuriyyətinin mədəni quruculuq işlərində fəal iştirak etmiş, maarif nazirliyinin nəzdində əlifba islahatı komissiyasının üzvü seçilmişdir. Bir sıra məsələlərdə Cümhuriyyət rəhbərləri ilə razılaşmayan Talıbzadə yenidən

Türkiyəyə qayıtmışdır (4, s. 391). Y.Z.Talıbzadə Türkiyədə olduğu illərdə ictimai-siyasi və hərbi fəaliyyəti ilə yanaşı, publisistika ilə də məşğul olmuş, bir sıra yazılar qələmə almışdır. Artıq qeyd etdiyimiz kimi, bunlar içərisində onun "İqbal" qəzetinin xüsusi müxbiri kimi yazmış olduğu "Türkiyə məktubları" başlıqlı silsilə məqalələri (30) həmin dövrün tarixi-mədəni mühitini öyrənmək baxımından dəyərli bir mənbədir.

Bir müddət Türkiyədə yaşayan Yusif bəy siyasi fəaliyyətini Güney Azərbaycanda davam etdirir. Zəki Vəlidi Toğan öz xatirələrində qeyd edir ki, 1918-ci ildə Azərbaycanın birliyi uğrunda "Əncümən mərkəzi" adlı bir siyasi təşkilat yaranır. Həmin siyasi təşkilatda Azərbaycan nümayəndə heyətinin sədri tanınmış ədəbiyyatşünas-alim Cavad Heyətin atası Mirzə Əli Heyət olmuşdu. Osmanlı nümayəndəliyinə isə Axund Yusif Talıbzadə başçılıq etmişdi (18). Nərman Qocatürk yazır ki, Axund Yusif Azərbaycanın hər iki tərəfindən siyasətçi kimi tanınsa da, Türkiyədə, eləcə də Türküstanda cəsur döyüşçü kimi ad çıxarıb məşhurlaşmışdı. Hələ 1910-cu ildə Türkiyəyə səfər edən Yusif bəy orada hərbi təhsilə yiyələnib paşalıq rütbəsi alır. Birinci dünya müharibəsində türk ordusu sıralarında Balkanlarda döyüşür. Ruslar tərəfində vuruşan erməni alayları ilə döyüşdə şücaət göstərib bir sıra ordenlərlə təltif olunur. Düz 8 il türk ordusuna xidmət eləyir (18).

Azərbaycanlı türk ziyalıları Rusiyanın Osmanlı dövlətinə qarşı savaşını dəstəkləmədiyi kimi, Osmanlı dövlətinə qarşı maraqlarını da müxtəlif vəsilələrlə ifadə edirdilər. Həmçinin Azərbaycan türkləri Türkiyəyə qarşı bəslədikləri duyğularını daha öncə də göstərmişdilər. Yaxın bir keçmişdə – 1912-ci ildə Balkan Savaşında Osmanlı dövləti əleyhinə mövqe tutan rusların siyasətindən məmnun olmadıqlarını, o sıralar gizli



siyasi bir cəmiyyət olaraq çalışan Azərbaycan türklərinin qurduğu önəmli bir siyasi partiya olan "Müsavat" partiyası bir bəyannamə ilə ortaya qoymuşdu. Bu bəyannamədə Balkan Savaşını böyük həyəcan ilə izləyən Azərbaycan türk toplumuna "... Biliniz və agah olunuz ki, yeganə çareyi nicatımız Türkiyənin istiqlalı və onun tərəqqisindədir. Əgər biz indi də əvvəlki kimi hissizliyimizdən vaz keçməsək, bu üzdən dünyanın gözü önündə haqqı insaniyyət və milliyyətimizi qeyb edib əğyarə əcir, tabe və adətən (hər zaman) əsirlikdə qalacağımıza şübhə edilməsin..." müraciəti edilmişdi. Türkiyəli tədqiqatçı Halil Bal yazır ki, bu bəyannamədə İslam Xilafətinin sahibi Türkiyə bir aslana bənzədilərək, aslan nə qədər zəif olursa-olsun çaqqalların və tülkülərin onun yanına yaxınlaşa bilməyəcəklərini, bu baxımdan Türkiyəyə savaş açanın Balkanların kiçik dövlətləri deyil, pərdə arxasında "şimal ayısı" Rusiyanın olduğuna işarə edilmişdi. Həqiqətən də "dünya jandarmı" deyə anılan insanlığa və islamiyyətə düşməncəsinə siyasətlər izləyən müstəbid Rusiya tərəfindən doktor, tibbi vasitələr və çeşidli yardımlarla bərabər könüllü adı ilə bir çox əsgərləri Bolqar, Serb və Qaradağlılara yardıma göndərilməkdə idi. Bundan başqa Serb, Bolqar və Qaradağlılar nəzdində çox sayda Rusiya zabit və topçusu olmaqda idi. Bunlar Osmanlıların məğlubiyyəti haqqında teleqraflar çəkərək həm Rusiyadan hərbə gedənləri cəsarətləndirməyə, həm də müsəlmanları qorxutmağa çalışmaqda idilər. Bəyannamə "Digər məmləkətlərdəki İslam qardaşlarımız can və mal ilə müavinətdə bulunduqları halda biz Rusiya müsəlmanları nədən bir cəmad (cansız nəsnə) kimi donmuşuq!" sualını soraraq xalqı Türkiyəyə yardıma çağırmaqda idi (47, s. 25). Halil Bal "Sebilür-reşad" dərgisinə (IX, Sayı: 38-220, İstanbul 1328, s. 226) istinadən yazır ki, "Müsavat"

partiyasının bu bəyannaməsi gizlicə basılmış və Tiflisdə poçt qutularına atılmaq surətilə yayılmışdı. Sonra bəyannamə partiya üzvlərindən Yusif Ziya "Axund Yusif" tərəfindən gizlicə İstanbula gətirilmiş və nəşr edilmişdir. Balkan Savaşı sırasında Türkiyəyə Azərbaycan türklərindən bəzi yardımlar gəlmişdir. "Başbakanlık Osmanlı Arşivi (BOA), Dahiliye Nezareti, Kalem-i Mahsus Müdüriyeti (DN-KMS. Sıra no: 518, 1332 R.13 Dos: 17, No. 7. Edirnede inşa olunan Darül-eytam (Yetimhane) için Bakü İslam ahalisinin göndərdiyi yardımın yerinə ulaşdırıldığını bildirməkdədir; Rusiya bu sıralarda bir yandan Balkanlar, digər yandan da Erməni sorunu dolayısıyla Osmanlı Dövlətinə basqı yapmaqdaydı" (47, s. 25-26).

Qafqaz Cəbhəsində savaşlar davam edərkən Güney Azərbaycan türklərinin vəziyyəti də acınacaqlı halda idi. Ona görə də Sarıqamış döyüşlərinin sonlarında Ənvər Paşa əmisi Xəlil Paşa komandanlığında 37-ci və 38-ci tümənlərdən və bəzi jandarma birliklərindən ibarət bir qüvvəni Diyarbəkrdən hərəkətlə Güney Azərbaycana qarşı hərəkətə keçərək buradakı rus işğalını sona çatdırmağı düşündü. Bu qüvvənin Təbrizi alması ilə Qafqazın türk-müsəlman ünsürlərinin hərəkətə keçəcəyi hesab edilirdi. Lakin bu qüvvələrlə 3-cü Ordunun gücləndirilməsi zərurəti ortaya çıxınca Xəlil Paşa 3.000 nəfərlik və əsasən aşirət süvarilərindən meydana gələn bir dəstəni Təbrizə sövq edə bildi. Bu qüvvələr Gənc Türklərin öndərlərindən olan və Ənvər Paşa tərəfindən Azərbaycan türkləri ilə münasibət qurmaq və onları təşkilatlandırmaq üçün xüsusi olaraq görəvləndirilən Ömər Naci komandanlığında 14 yanvar 1915-ci ildə Təbrizi aldı (47, s. 33-34).

Türk ordusunun Azərbaycana yürüşünün Təbrizə qədər uzanması rusları narahat etdi. General Yudeniç sövq etdiyi



Kazak birlikləri vasitəsilə Təbrizi yenidən işğal etdirdi (yanvar 1915-ci ilin sonu), ardından ermənilərdən faydalanaraq Şərqi Anadolunu işğala başladı. Osmanlılar Güney Azərbaycan istiqamətində irəliləmək üçün bir neçə təşəbbüsd göstərsələr də, uğur qazana bilmədilər (47, s. 35).

Qeyd edək ki, Türkiyə ordusunun yüksək rütbəli zabiti Ömər Naci Bəy "İttihad və tərəqqi" partiyasının görkəmli xadimlərindən biri idi. O, Türkiyə hökumətinin xüsusi tapşırıqlar üzrə səlahiyyətli nümayəndəsi kimi Güney Azərbaycanda milli azadlıq hərəkatının güclənməsinə böyük kömək göstərmişdir. XX əsrin əvvəllərində onun səyi nəticəsində Osmanlı hökuməti Güney Azərbaycanda milli azadlıq hərəkatına kömək məqsədilə maliyyə yardımı ayırmışdır. Səttar xanın başçılıq etdiyi 1905-1906-cı illər inqilabını yaxından izləmiş, Türkiyə silahlı qüvvələrinin Baş komandanı Ənvər Paşanın tapşırığına əsasən Güney Azərbaycan türklərinin siyasi cəhətdən təşkilatlanması işinə yaxından kömək göstərmişdir. Birinci dünya müharibəsi illərində türk-alman ordusunun Güney Azərbaycanda həyata keçirdiyi hərbi əməliyyatlarda yaxından iştirak etmişdir. Tarix ədəbiyyatında "kiçik müharibə" adlandırılan termin onun adı ilə bağlıdır. Belə ki, 1915-ci ilin dekabrından başlayaraq, polkovnik Ömər Naci bəy və fon İeybner-Rixterin komandanlıq etdiyi 650 nəfərlik kiçik mücahidlər dəstəsi Muş-Bitlis-Güney Azərbaycan istiqamətində uğurlu hərbi əməliyyat apararaq 1916-cı il yanvarın 14-də Təbrizə daxil olmuşdu (O, sonra döyüşdə aldığı yaradan Kərkük hərbi xəstəxanasında vəfat etmişdir) (4, s. 281).

Erməni və assur (aysor) silahlı birləşmələrinin Güney Azərbaycanda türk-müsəlman əhalisinə qarşı törətdiyi soyqırımının qarşısının alınmasında Y.Z.Talıbzadənin də iştirakı

olmuşdur. Bu zaman ermənilər öz məkrli niyyətlərinə çatmaq üçün rusların xristian təəssübkeşliyi ilə Güney Azərbaycan ərazisində yerləşdirilən assurlardan (yerli camaat onları cilo adlandırırdı) da istifadə edirdilər. Rusiya və Amerika Birləşmiş Ştatları (ABŞ) kimi iri dövlətlərin himayəsinə arxalanan erməni-assur hərbi birləşmələri öncə Urmiya şəhəri ətrafında hərbi mövqe tutaraq, yerli əhalini soyub-talayır, gündüz barışığa vəd versələr də, gecələr şəhərin ayrı-ayrı məhəllələrini yandırıb, viran qoyurdular. Onlar bu cinayətlərdə toplardan da istifadə edirdilər ki, bu da əhali arasında böyük tələfata səbəb olurdu. ABŞ-ın Urmiyadakı konsulu Şedin hiyləsi ilə tərksilah olunmuş və heç bir yerdən kömək görməyən azərbaycanlılar ailələrini başqa yerə köçürüb, döyüşə atılmaq qərarına gəldilər. Seyid Əhməd Kəsrəvinin yazdığına görə, şəhəri top atəşinə tutan ermənilər əhali arasında vahimədən istifadə edərək, şəhərə daxil olub, dinc əhaliyə divan tutur, evləri yandırır, kütləvi qətl-qarət törədirlər. 1918-ci il martın 17-də, axır çərşənbə günü erməni daşnakları və assurlar 500-dən çox evi odlayıb, 10 mindən çox azərbaycanlını qırmışlar. Xalq arasında "Urmi bəlvası" kimi yad olunan bu qanlı faciələr indi də xatirələrdən silinməmişdir (3, s. 285).

Urmiya, Salmas, Xoy, Maku, Dilməqan şəhərlərində və onların ətrafındakı kəndlərdə Azərbaycan türklərinin soyqırımı davam etdiyi vaxt Osmanlı ordusu soydaşlarımızın yardımına gəldi. 1918-ci ilin iyununda Xoy şəhərinə çatan türk ordusu oradan Salmasa doğru hərəkət etdi. Bir neçə günlük döyüşlərdən sonra erməni ordusu darmadağın edilib, qaçmağa başladı. Lakin onlar geri çəkilərkən belə, kəndlərə od vurur, insanları qətlə yetirir, məğlubiyyətlərinin acığını dinc əhalidən çıxırdılar.



Həmin vaxt daşnak qaniçəni Andronik Xoy şəhərini ələ keçirmək və erməni-assur qoşunu ilə birləşmək üçün 8 min nəfərlik hərbi qüvvə ilə Culfa yolundan hərəkət etdi. Ermənilər Xoy şəhərini ələ keçirib, əhalini qırdıqdan sonra özləri ilə gətirdikləri 10 min erməni ailəsini burada yerləşdirmək və Azərbaycanın bu hissəsini Ermənistana birləşdirmək niyyətində idilər. 1918-ci il iyunun 24-də Andronikin ordusu Xoy şəhərini mühasirəyə aldı. Ermənilər Urmiyada törətdikləri vəhşilikləri burada da davam etdirdilər. Lakin şəhər sakinləri silahlı müdafiə ordusu yaradaraq, düşmənə ciddi müqavimət göstərdilər. Şəhərin müdafiəsində qadınlar da iştirak edirdilər. Ermənilər şəhəri top atəşinə tutdular. Lakin bu vaxt Salmas tərəfdən Osmanlı ordusunun yaxınlaşdığını görən ermənilər məğlub olacaqlarını hiss edib, gəldikləri yolla da geri döndülər. Ermənilər yeni-yeni məkrli planlar qurur, zəif müdafiə olunan şəhər və kəndlərə basqınlar edib, yeni faciələr törədirdilər. Onlar rusların Urmiya gölündəki hərbi gəmisindən də istifadə etməyi nəzərdə tuturdular. 180 nəfər yaxşı təlim görmüş erməni-assur hərbçisinin əlində olan bu gəmi vasitəsilə Şərəfxana limanına çıxmaq və oradakı gəmiləri ələ keçirmək istəyirdilər. Lakin onlar sahilə çıxarkən Osmanlı və Azərbaycan türkləri ilə döyüşdə məhv edildilər. Beləliklə, onların bu planı da baş tutmadı. Ermənilər 1917-1918-ci illərdə Güney Azərbaycanın qərb bölgələrindəki onlarla şəhər və kəndləri viran qoymuş, talan etmiş, kişi, qadın, uşaq və qocalara fərq qoymadan, ümumiyyətlə, 190 minə yaxın Azərbaycan türkünü qətlə yetirmişlər (3, s. 286).

Azərbaycan müstəqillik qazandıqdan dərhal sonra İranla normal qonşuluq və dostluq münasibətləri yaratmağa başladı. Azərbaycan Hökuməti 1918-ci il sentyabrın 12-də İrana

nümayəndə – işlər vəkili təyin etməyi qərara aldı. Lakin İran tərəfi ilk vaxtlar Azərbaycan Xalq Cümhuriyyətini tanımaq və onunla diplomatik əlaqələr qurmaqdan imtina etdi. 1918-ci il sentyabrın 6-da Azərbaycanın İstanbuldakı nümayəndə heyətinin başçısı M.Ə.Rəsulzadə Azərbaycan xarici işlər nazirinə məlumat verdi ki, Şimali Azərbaycanda müstəqil dövlətin yaradılması barədə İstiqlal bəyannaməsinin surətini buradakı İran konsulluğuna təqdim etmiş, İran konsulu isə bu sənədi zərfə qoyub geri qaytarmış, ona əlavə olunmuş vərəqdə bildirmişdi ki, o, Azərbaycan adında dövlətin müstəqilliyini tanımır (3 s. 181-182).

1918-ci ilin yazında Osmanlı qoşunlarının Güney Azərbaycana daxil olmasından sonra Şimali Azərbaycan təbəələrinin mənafeyini qorumaq məqsədilə Təbrizdə Azərbaycan konsulluğu fəaliyyətə başladı. Konsulluğa ilk dövrdə Teymur bəy Məlik-Aslanov, sonra Yusif Ziya və Rauf bəy başçılıq etmişdilər. Türk qoşunlarının 1918 ilin noyabrında Güney Azərbaycanı tərk etməsindən sonra İran hökuməti bu konsulluğu bağladı.

İranla ilk diplomatik münasibətlər 1919-cu ilin martında Azərbaycan Xalq Cümhuriyyətinin Tehrana fövqəladə missiya göndərməsi ilə quruldu. İsmayıl xan Ziyadxanın (Ziyadxanov) başçılıq etdiyi bu missiya şah hökuməti ilə İranın Bakıda və Gəncədə, Azərbaycanın isə Tehran, Təbriz, Rəşt və Məşhəddə diplomatik nümayəndəliklər açmaq təklifini müzakirə etdi. 1919-cu il iyulun 16-da Azərbaycan Hökuməti İranda diplomatik nümayəndəlik təsis etmək haqqında qərar çıxardı. Azərbaycan xarici işlər nazirinin müavini Adil xan Ziyadxan isə nümayəndəliyin başçısı təyin olundu. Azərbaycanın diplomatik nümayəndəsi Tehranda şah və hökumət üzvləri tərəfindən



hörmətlə qəbul edildi. Şah Azərbaycan Xalq Cümhuriyyətinin Təbrizdə və digər şəhərlərdə daimi rəsmi nümayəndəliklərinin açılmasına razılıq verdi. 1920 il fevralın 4-də Ənzəlidə Azərbaycanın vitse-konsulluğu yaradıldı. 1920 il aprelin 1-dən isə Azərbaycan Xalq Cümhuriyyətinin Təbrizdə baş konsulluğu, Rəştdə konsulluğu, Məşhəddə vitse-konsulluğu, Əhər və Xoy şəhərlərində konsul agentlikləri təsis edildi.

Azərbaycanın diplomatik nümayəndəliyi iki ölkə arasında ticarət əlaqələrinin inkişaf etdirilməsi, iqtisadiyyat, nəqliyyat və digər sahələrdə müqavilələr bağlanması üçün danışıqlara başladı. A.Ziyadxan İranda yaşayan azərbaycanlıların mədəni-maarif işlərinə xüsusi diqqət yetirirdi. O, 1920-ci ilin əvvəlində Azərbaycan xarici işlər nazirinə ünvanladığı məktubda diplomatik nümayəndəliyin xeyriyyə cəmiyyəti və Azərbaycan türkcəsini öyrədən cəmiyyət yaratdığını, dul qadınlara və yetimlərə yardım göstərmək, türk dilində məktəb açmaq, türkcə qəzet nəşr etmək və sair işlər görə bilmək üçün maddi vəsaitə ehtiyacı olduğunu bildirmişdi. A.Ziyadxanov Naxçıvandan didərgin düşənlərə yardım göstərilməsi, İran ermənilərinin Naxçıvana hücumunun qarşısının alınması istiqamətində də fəal iş aparırdı.

İrandakı Azərbaycan nümayəndəliyi ölkədə baş verən ictimai-siyasi proseslər, İrandakı azərbaycanlıların vəziyyəti, onların Azərbaycan Cümhuriyyətinə münasibətləri haqqında Bakıya müntəzəm məlumat göndərirdi. A.Ziyadxanov 1920-ci ilin martında xarici işlər nazirinə məktubunda yazırdı: "İran Azərbaycanında İrandan ayrılmaq və Azərbaycan Xalq Cümhuriyyətinə birləşmək istiqamətində... təbliğat gedir. Azərbaycan... bu hadisələrdən öz maraqları xeyrinə istifadə etməlidir". Aprelin 11-də göndərilən məktubda isə bildirilirdi: "İran

- 21681-

Azərbaycan Respublikası
PREZİDENT KİTABXANASI

sürünür; ...keçmiş əzəmətdən əsər-əlamət qalmayıb... Farsların bizim respublikaya münasibəti o qədər də yaxşı deyil, İran Azərbaycanı türkləri isə əksinə, bizə qardaşcasına və dostcasına münasibət bəsləyirlər. İran Azərbaycanı... müstəqilliyə və Farsistandan ayrılmağa can atır". Aprelin 12-də göndərilən məktubda Güney Azərbaycanda inqilabi əhval-ruhiyyənin gücləndiyi daha aydın qeyd edilirdi: "İran azərbaycanlıları açıq deyirlər ki, Azərbaycan azərbaycanlılar üçündür, ...nə vaxta qədər Tehrandan göndərilən fars hakimlərini dolandıracağıq" (3, s. 182).

Azərbaycan diplomatik nümayəndəsinin bu məlumatları elə həmin dövrdə Təbrizdə Şeyx Məhəmməd Xiyabaninin rəhbərliyi altında milli-demokratik, azadlıq mübarizəsinin başlanması, Azərbaycanın cənubunda "Azadıstan" adlandırılan milli dövlətin yaradılması ilə təsdiqləndi. Azərbaycanın şimalı ilə cənubunun birləşməsi üçün real imkan yarandı. Lakin bir neçə gün sonra Şimali Azərbaycanın Sovet Rusiyası tərəfindən işğalı, daha sonra isə Xiyabani hərəkatının qan içərisində boğulması bu imkanın reallaşdırılmasının qarşısını aldı. Azərbaycan Xalq Cümhuriyyətinin İranla diplomatik əlaqə yaratması, müvəqqəti də olsa, iki ölkə arasında normal qonşuluq münasibətlərinin qurulmasına, bölgədə əmin-amanlığın bərqərar edilməsinə səbəb oldu (3, s. 183).

Demək lazımdır ki, Y.Z.Talıbzadənin bu illərdə Güney Azərbaycandakı fəaliyyəti də, demək olar ki, tamamilə tədqiqatdan kənarda qalmışdır. Bu haqda bəzi mənbələrdə yalnız natamam məlumatlar verilir. Təbii ki, onun bu fəaliyyətləri Osmanlı ordusu və islam ittihadçılarının planları çərçivəsində həyata keçirilmişdir. Belə ki, Birinci Dünya müharibəsində Güney Azərbaycanı işğal etmiş çar ordusunun, 1917-ci il



oktyabr inqilabı ilə əlaqədar zəbt olunmuş əraziləri tərk etməsi Osmanlı ordusu üçün əlverişli imkan yaratdı. Bu yolla Güney Azərbaycan Osmanlı ordusu tərəfindən ələ keçirildi. Bu tarixi hadisənin mahiyyətinə və burada Y.Z.Talıbzadənin iştirakına aydınlıq gətirən Doktor Cavad Heyət bildirir ki, bu hadisə ərəfəsində Urmiya; Xoy və çevrələrindəki xristian-müsəlman toqquşmasında bütün bölgədə təqribən 130 min nəfər insan öldürülür. O, Əhməd Kaviyanpura istinadən yazır: "Bu zaman Rus silahlı gücləri müsəlmanları tərki silah etmək üçün əmr çıxarır, fərman verir. Burada bildirilirdi: Azərbaycanda İran dövləti tərəfsizliyini saxlaya bilmədiyi üçün müttəfiqlərin qərarı ilə xarici Osmanlı ordusunun Azərbaycana girişinin qarşısını almaq məqsədilə milli Xristian ordusu təşkil edilir... Müsəlmanlar aşağıdakı şərtlərə riayət etməlidirlər:

1. İstipanyans başqanlıq və liderliyində 16 nəfərlik bir məclis təşkil edilir.

2. Şəhərdə fövqəladə vəziyyət elan olunduğundan, polis idarəsinin rəisi bu məclis tərəfindən təyin edilməlidir.

3. Müsəlmanlar 48 saat içərisində silahsızlanmalı və silahlarını təhvil verməlidirlər.

4. İran qazaq birimləri Rus zabitlərinə tabe olunmalıdırlar" (9, s. 79).

Araşdırmalar göstərir ki, Osmanlı ordusunun Güney Azərbaycana girməsinin kökündə heç də yalnız işğalçılıq niyyəti deyil, həm də soydaş və dindaşlarını soyqırımından qurtarmaq məqsədi dururdu. Çünki artıq bu zaman erməni generalı Andranik 3 minlik öz silahlı ordusu ilə Araz çayından keçib Xoy şəhərini mühasirə edir və xoyluları qırdıqdan sonra, Urmiyaya tərəf getmək, xristian qüvvələrlə birləşərək, Xristian dövlətinin təşkil olunacağı yerdə, hər ehtimala görə, Osmanlı

ordusu hücumunun qarşısını almaq istəyir. Andranik öz planlarını realizə etmə və böyük Ermənistan yaratma yönündə Rus və ingilis komandanlarının razılığını almışdı. Osmanlı Türk ordusu yalnız belə bir şəraitdə Azərbaycana gəlir, Xoy və Salmasda Andraniki və digər Xristian qüvvələri məğlub edir. Andranik öz ordusu ilə fərar etmək məcburiyyətində qalır. Bununla belə milli düşmənlərimizin Güney Azərbaycanda müstəqil Xristian dövləti yaratmaq planı 130 min nəfər insanın öldürülməsi ilə nəticələnir.

Təəssüflər olsun ki, Osmanlı imperatorluğunun müvəqqəti barışma imzalaması nəticəsində Osmanlı ordusu tezliklə Güney Azərbaycandan çəkilir. Türk ordusunun Güney Azərbaycanda olduğu vaxt xalqımızın milli dövlətçiliyi baxımından yaranmış tarixi şəraitin əldən verilməsinə təəssüflənən Əhməd Qaraca "Azərbaycanın yaxın tarixinə qısa bir baxış" adlı əsərində yazır: "Burada Osmanlı imperatorluğu böyük bir səhv elədi. Güney Azərbaycanda fəaliyyət göstərən Şeyx Məhəmməd Xiyabaninin dövlət qurmasına yol vermədilər və onu Qarsa sürgün etdilər. Halbuki, Şeyx Xiyabani Güney Azərbaycanda türk dövlətini qurmuş olsaydı, eyni vaxtda Şimali Azərbaycanda qurulan Azərbaycan Demokratik Respublikası ilə birləşərək, vahid "Azərbaycan dövləti" yaranacaqdı" (51, s. 16). Əslində bu fikirdə tarixi həqiqətə birtərəfli münasibət özünü göstərir. Çünki regiondakı qarışıq və dolaşıq münasibətlərdə Xiyabani tərəfdarları müsavatçılardan çox bolşeviklərə ümid bəsləyirdilər.

Doğrudur, Osmanlı ordusu geri çəkiləndən sonra Şeyx Məhəmməd Xiyabani Qarsdan Təbrizə qayıdır və 1920-ci ildə Azadıstan Respublikasını qurur. Surətli islahat işlərinə başlanılır. Azərbaycan türkcəsi rəsmi dövlət dili olur. Lakin ingilislərlə bolşeviklərin şiddətli müxalifəti, pozucu və qızışdırıcı fəaliyyətləri ilə qarşı-qarşıya gələn Azadstan Respublikası rus, ingilis və İran orduları tərəfindən yıxılır. Şeyx Məhəmməd Xiyabani Təbrizdə son qüvvəsinə qədər vuruşur və şahid olur.



Osmanlı ordusunda "İttihadi-islam" cəmiyyətinin nüfuzu və tutduğu mövqeyi şərh edən Doktor Cavad Heyət Y.Z.Talıbzadəni Osmanlı islam ittihadının başqanı kimi təqdim edir. O, "Dr.Turəc Ətabəkinin "Azərbaycan" kitabı üzərinə bir dəyərləndirmə və təkmilləşdirmə" adlı əsərində yazır: "Mənim atam mərhum müctəhid Mirzə Əli Heyət ki, xalq tərəfindən sayğı ilə qarşılanar və Azərbaycanda hökumətin təmsilçisi olan Qacar vəliəhdi Məhəmməd Həsən Mirzə ilə də çox yaxşı münasibətləri var imiş. Osmanlılarla da yaxşıca ilişgiləri olmuş və onlarla birlikdə "İttihadı İslam" cəmiyyətini təşkil etmiş və özü də İran üzrə bu cəmiyyətin başqanlığını (Osmanlı İslam ittihadının başqanı mərhum Yusif Ziya bəy idi) yapmışdır. Osmanlıların sonrakı davranış və tərkləri barədə belə rəvayət edərdi: Rus, ingilis ordusunun, Fransız və Amerika missionerlərinin himayəsini arxasına alan Asurilər, Erməni daşnakları və Andranik ordusu Urmiyada, Salmasda, Xoyda və ətraf kəndlərində müsəlmanları ümumi qətlə uğratdıqdan sonra, Osmanlı ordusu yetişdi və onların hücumu nəticəsində, xristian gücləri məğlub olub, əksəriyyəti fərar etdilər..." (9, s. 79-80). Müəllif, Yusif Ziya bəylə bağlı qeydində belə bir açıqlama da verir ki, Osmanlı ordusunun albayı Yusif Ziya Paşa Quzey Azərbaycanlı və Bakı Universitetinin müəllimi Abdulla Şaiqin qardaşı olmuşdur. Sovetlər Birliyi qurulduqdan sonra, Yusif Ziya Nərimanov tərəfindən dəvət edildi və bir neçə ay Naxçıvanda Azərbaycana xidmət etdi (9, s. 80).

Y.Z.Talıbzadənin Güney Azərbaycandakı fəaliyyətini təsdiqləyən mötəbər mənbələrdən biri də "Abdulla Şaiqin Mənzil Muzeyi"ndə mühafizə olunan fotoşəkildir. Qiymətli bir sənəd kimi, muzey fondunda saxlanılan bu fotoşəkil Yusif Ziyanın Güney Azərbaycanla bağlantısına tutarlı dəlil olmaqla yanaşı, onun həm də "İttihadi İslam" cəmiyyətinin rəhbər simalarından biri olduğunu təsdiqləyən əyani sübutdur. Burada dövrün dini, hərbi və siyasi xadimlərinin əhatəsində (mərkəzdə) hərbi geyimli Y.Z.Talıbzadənin və Doktor Cavad Heyətin atası – müctəhid Mirzə Əli Heyətin yanaşı təsvirləri ön plandadır.

Sonralar – Azərbaycan Xalq Cümhuriyyətinin ilk vaxtlarında ittihadçılar, belə demək mümkündürsə, həm də ilhaqçılarla eyni cəbhədə olan Yusif Ziyanın AXC rəhbərləri ilə bəzi anlaşılmazlıqlara səbəb olan mövqe fərqliliklərinin mahiyyətinə aydınlıq gətirmək üçün 1915-ci il Güney Azərbaycan hadisələri də maraq doğurur. T.Svietoshovski "Rus Azərbaycanı 1905-1920" əsərində məlumat verir ki, Xəlil Paşa, komandanlığındakı gücləndirilmiş qüvvətlərlə 1915-ci ilin yanvarında Təbrizi zəbt edərək, Rus Azərbaycanının qapısına dayanmışdı. Bu zaman Osmanlı Dövlətinin Qafqaz siyasətinin rəhbəri Ömər Naci idi və o, Şərqi Qafqaz İttihad və Tərəqqi Komitəsi Müfəttişi təyin edilmişdi. T.Svietoshovskiyə görə vəzifə osmanlıların iki Azərbaycanı birləşdirmə istəklərinə və bunun Osmanlı Dövlətinin himayəsində gerçəkləşəcəyinə işarə idi (57, s. 113-114). Lakin Osmanlı Ordusu Təbrizdə çox davam gətirə bilməyir. Sarıqamış məğlubiyyətindən sonra Təbriz dərhal rusların əlinə keçir. Sonrakı cəhdlər, Ənvər Paşanın gözlədiyi və umduğu "Türkçülük" səmərələri də nəticə vermədi. Tədqiqatçılardan Fevzi Çakmak, Kurat, Sünbül, B.Aslan, Svietochovski və digərləri (41; 16) təsdiqləyirlər ki, xüsusilə



Ömər Nacinin Təbrizdə olduğu əsnada, istər İran Azərbaycanında və istərsə də Şərqi Qafqazda ruslara qarşı üsyanlar başladı. Bu hərəkatların mərkəzi "Difai" təşkilatının güclü olduğu Gəncə idi. Bu arada Azərbaycan türklərinin bu təşkilat vasitəsilə Osmanlı Dövləti ilə münasibətlər yaratdığı anlaşılır. Həmçinin 1915-ci ilin fevralında Fətəli xan Xoyskinin qardaşı oğlu Əmiraslan xan gizlicə sərhədi keçərək Ərzuruma gəlmiş və Türkiyə səlahiyyətliləri ilə əlaqə qurmuşdur. O, "Difai" təşkilatının nümayəndəsi kimi Transqafqaz müsəlmanlarının müstəqil bir dövlət qurmaq arzularını açıqlamışdır. Onun təklifinə görə Bakı, Gəncə, İrəvan quberniyalarıyla Terek və Dağıstanı daxil edərək İsveçrə tipli müstəqil bir dövlət qurulması mümkün idi. Qafqazda Türkiyə ilə Rusiya arasında belə böyük bir tampon dövlət qurulması fikri Ənvər Paşa tərəfindən də müvafiq sayılmasına baxmayaraq Ruslar qarşısındakı məğlubiyyət belə bir planın gerçəkləşməsinə manc olmuşdu (41, s. 72).

Y.Z.Talıbzadənin sonrakı hərbi-siyasi fəaliyyəti Osmanlı ordusu və Azərbaycan könüllülərindən ibarət "İslam ordusu"nda davam edir. 1918-ci il iyun ayının 4-də "Osmanlı imperatorluğu hökuməti ilə Azərbaycan Respublikası arasında dostluq müqaviləsi" imzalanır. Həmin müqaviləni Türkiyə tərəfindən ədliyyə naziri Xəlil Menteşə, Qafqaz cəbhəsinin Baş komandanı Vehib Paşa, Azərbaycan tərəfindən xarici işlər naziri M.H.Hacınski və Milli Şuranın sədri M.Ə.Rəsulzadə imzalayırlar. Azərbaycan Respublikasının xarici dövlətlərə imzaladığı ilk müqavilə 11 maddədən ibarət idi. Müqavilənin Azərbaycan üçün çox mühüm olan dördüncü maddəsində göstərilirdi ki, "Dinclik və asayişi möhkəmləndirmək, ölkənin təhlükəsizliyini təmin etmək üçün əgər ehtiyac olarsa, Osmanlı hökuməti Azər-

baycan Respublikasına hərbi yardım göstərməyi öz üzərinə götürür" (62, s. 90).

Azərbaycan Xalq Cümhuriyyətinin elan edildiyi günlərdən 1918-ci ilin noyabrına qədər fəaliyyət göstərmiş Qafqaz İslam Ordusu Bakıda hakimiyyəti ələ keçirmiş S.Şaumyanın başçılıq etdiyi daşnak-bolşevik rejiminin Azərbaycanın türk-müsəlman əhalisinə qarşı həyata keçirdiyi kütləvi soyqırımının qarşısını almaq və Azərbaycan xalqının müstəqilliyini qorumaq üçün Osmanlı Türkiyəsi və Azərbaycan silahlı qüvvələrindən təşkil edilmiş hərbi birlik idi. Azərbaycan xalqına qarşı daşnak-bolşevik qırğınının yaxınlaşması ilə bağlı olaraq Azərbaycan milli azadlıq hərəkatının liderləri yeganə çıxış yolunu Osmanlı Türkiyəsindən hərbi yardım almaqda görürdülər. Bu məqsədlə İstanbula xüsusi nümayəndə heyəti göndərilmişdi. Nağı Şeyxzamanlının rəhbərlik etdiyi həmin heyət Osmanlı sultanı, habelə baş nazir Tələtpaşa, hərbi nazir Ənvərpaşa ilə görüşərək, Azərbaycan xalqına hərbi yardım göstərilməsinə razılıq almışdı (4, s. 100). Türkiyə tərəfinin planlarına görə, Azərbaycandakı silahlı qüvvələr türk hərbi mütəxəssislərinin rəhbərliyi ilə yenidən qurulmalı idi. Həmin məqsədlə Azərbaycana göndərilən hərbçilər qrupuna Ənvər paşanın ögey qardaşı Nuru paşa rəhbərlik edirdi. 1918-ci il mayın 25-də Nuru Paşa və onunla birlikdə Azərbaycana gələn türk hərbçiləri Gəncədə qarşılandı. Nuru Paşa Azərbaycanda hərbi-siyasi vəziyyətin son dərəcə gərginləşdiyini, daşnak-bolşevik rejiminin Azərbaycanın bütün ərazisini öz hakimiyyəti altına keçirmək cəhdini, bu təhlükənin qarşısını alacaq milli hərbi qüvvələrin zaifliyini və onların formalaşdırılmasına xeyli vaxt lazım gələcəyini nəzərə alaraq, Osmanlı dövlətinin rəhbərliyi qarşısında tezliklə



Azərbaycana hərbi qüvvə göndərmək məsələsini qaldırdı (4, s. 100).

Təbii ki, I Cahan hərbinin sonlarına doğru hərbi-siyasi vəziyyəti son dərəcə gərgin durumda olan Osmanlı dövlətinin Azərbaycana ordu göndərməsinin bir sıra müşkülatları vardı. Bu addım nəinki qarşı cəbhə dövlətlərinin, habelə müttəfiq Almaniyanın da müqaviməti ilə qarşılandı. Bunun üçün də Türkiyə hökuməti Osmanlı ordusu ilə Azərbaycan könüllülərindən ibarət Qafqaz İslam Ordusu yaradılması qərarını verir. Və bu işin, Azərbaycanı hər yöndən yaxşı tanıyan hərbçi və siyasətçilər olmadan uğurlu olacağını mümkünsüz hesab edən ordu rəhbərliyi, hər iki ölkənin ictimai-siyasi həyatında kifayət qədər nüfuzları olan və həmin dövrdə Türkiyədə çalışan Əhməd bəy Ağaoğlu, Əli bəy Hüseynzadə, Axund Yusif Talıbzadə kimi şəxsiyyətlərin orduda təmsil olunmalarını zəruri və çox faydalı bilmişdi. Əhməd bəy Ağaoğlunun hərbi müşavir olduğu bu ordunun könüllülərdən ibarət Yardım alayının başında Yusif Ziya dururdu. Mühacir Azərbaycan ziyalılarından Əbdülvahab Yurdsevər bu haqda yazır: "Axund Yusifin türkçülüyündə və turançılığında kimsənin şübhəsi olmasa gərəkdir. Xarakter etibarı ilə Şaiqin tamamən xilafına olaraq fəal bir siyasət adamı və usanmaz bir mücadiləçi bulunan Axund Yusif çarlıq dövründə bir müddət Bakı real lisəsində türkcə və şəriət öyrətmənliyini yapdıqdan sonra, Balkan hərblərində Türkiyəyə gedərək, orduya könüllü qeyd olmuş və rəşadəti sayəsində çabuq irəliləyərək kəndi iradəsinə görə minbaşı rütbəsinə qədər yüksəlmişdir. İstiqlal dövrümüzdə Axund Yusif Azərbaycana dönərək könüllü yardım alayının komitəsini kəndi üzərinə almışdı. Axund Yusif qayət hərəkətli və fəal bir mücadilə adamı idi. Hətta deyilə bilər ki, qabına

sığmayan xarakterdə bir insandı. Eyni zamanda "Musavat" partiyasının ən əski əzalarındandı" (59, s. 14).

Akademik K.Talıbzadə də bu faktları təsdiqləyərək yazır ki, Yusif Ziya "1918-ci ildə türk ordusu ilə bərabər Bakıya qayıdır. Demokratik Respublika dövründə "Müsavat" partiyasının orqanı "Azərbaycan"da və dövrün başqa mətbuat orqanlarında fəal iştirak edir, maarif-mədəniyyət mövzularına dair məqalələr nəşr etdirir. Bəzi siyasi məsələlərin həllində Demokratik Respublika rəhbərləri ilə razılaşmadığı üçün yenidən Türkiyəyə qayıdır" (39, s. 44).

1918-ci il iyun ayının əvvəllərində türk hərbi dəstələrinin Gəncə istiqamətinə hərəkəti başlamışdı. Lakin ordu rəhbərliyi Gəncəyə daha tez gəlmişdi. Halil Bal tarixi sənədlərə istinadən bildirir ki, Qafqaz İslam Ordusu Komandanı təyin edilən Nuri Paşa 25 may 1918 tarixində Gəncəyə daxil olmuşdu. Vəzifəsi – özü ilə bərabər gətirdiyi zabit heyətindən faydalanaraq Azərbaycanda Qafqaz İslam Ordusunu qurmaq və Bakını bolşeviklərdən qurtarmaq idi. Şimali Qafqaza yardım ancaq bundan sonra mümkün ola bilərdi. Nuru Paşa vaxt keçirmədən azərbaycanlı könüllülərdən Qafqaz İslam Ordusunun quruluşuna başlamışdı, amma nizamlı Türk qüvvələri gətirmədən Bakı məsələsinin həll edilməsinin mümkün olmadığı anlaşıldı (46, s. 50).

Beləliklə, Qafqaz İslam Ordusuna Türkiyədən bir-birinin ardınca yeni-yeni qüvvələr cəlb edilir. Türkiyə qoşunlarının bir qismi Qars və Aleksandroproldan keçib Qarakilsə-Dilican-Qazax və Ağstafa vasitəsilə, digər hissəsi isə Güney Azərbaycan-Qarabağ istiqamətindən hərəkət edirdi. Mürsəl Paşanın başçılıq etdiyi Türkiyə ordusunun ən yaxşı diviziyalarından olan 5-ci diviziya iyun ayının əvvəllərində Gəncəyə daxil oldu



(62, s. 94). Qeyd etdiyimiz kimi, bu vaxt artıq Türkiyənin Qafqazda olan hərbi hissələrinin yeni baş komandanı, Ənvər Paşanın ögey qardaşı Nuru Paşa öz qərargahı ilə Gəncədə idi.

Deməli, Osmanlı ordusunun Qafqaza, o cümlədən Azərbaycana doğru hərəkəti hələ 4 iyun Batum müqaviləsindən öncə başlamışdı. "Müslüman cemaatten ulusal kimliğe Rus Azerbaycanı 1905-1920" əsərində Tadeusz Svietochovski bu haqda yazır: "Nuri Paşa daha Osmanlı-Azerbaycan anlaşması imzalanmadan, 2 Haziranda. "Bağımsız, İslami Azerbaycan Cumhuriyeti kurulması talebi doğrultusunda" müslümanları Bolşevik idaresindən kurtarmak üzere askeri hareket başlatma emri almıştı" (57, s. 179).

Bakının alınmasınadək – 1918-ci il sentyabrın 15-ə qədər keçilmiş şərəfli döyüş yolunda Osmanlı əsgərləri ilə yanaşı, azərbaycanlı könüllülərin, o cümlədən könüllülərdən ibarət yardım alayının komandiri Y.Z.Talıbzadənin şücaəti şəksizdir. Əgər Balkan müharibəsində Azərbaycan türklərinin həmrəyliyini bildirən bəyannamələrin İstanbulda yayılması Yusif Ziyanın adı ilə bağlı idisə, Bakının alınması ərəfəsində onun da ön sıralarda döyüşdüyü Qafqaz İslam Ordusunu ruhlandıran, bu işin tarixi əhəmiyyətini türk əsgərlərinə aşılayan və bu şansın əldən verilməsi ilə onsuz da düşmən zülmü altında inləyən bacı və qardaşlarımızı hansı taleyin gözlədiyini gizlin müraciət və bəyannamələrdə yayanlardan biri də onun kiçik qardaşı Abdulla Şaiq idi. Heç şübhəsiz ki, A.Şaiqin mübarizlik ruhunun, türkçülük və turançılığın ən güclü dayağı, ən qüvvətli hamisi böyük qardaşı Yusif Ziya olmuşdur. Əbdülvahab Yurdsevərin bir yazısında təsdiqlənir ki, "Ayrıca bir çox şeirlərində Abdulla Şaiqin fikri siması üzərində mərhum ağabəyisi Axund

Yusif (Yusif Ziya) Talıbzadənin (bu məfkurəyə bağlılığını sərahətən isbat etmişdir) böyük təsiri olmuşdur" (59, s. 14).

Axund Yusifin kiçik qardaşı Abdulla Şaiqin bu dövrdə yazılmış əsərlərinin hamısı Azərbaycan türklərinin milli varlıqlarının təhlükəyə məruz qaldığı, ölüm-dirim savaşına qalxdıqları tarixi məqamlarla bağlıdır. "İki mücahid", "Vətənin yanıq səsi", "Arazdan Turana", "İntizar qarşısında" və bu səpkili digər əsərlərin çap olunduğu tarixlərin özü tədqiqatçılara çox şey deməkdədir. Bunlardan biri – "Neçin böylə gecikdin" şeirinin tarixçəsinə diqqət yetirsək, onun hansı bir tarixi şəraitdə yazılmış olduğu aydınlaşar. Osmanlı və Azərbaycan türklərinin əsgəri birləşmələrindən ibarət "Qafqaz İslam ordusu" ilə rus və erməni qüvvələrindən ibarət bolşevik qoşunlarının Gəncə və Bakı arasındakı qanlı çarpışmalarına şahidlik edən bu illər türk tarixinin şanlı səhifələrini təşkil etməkdədir.

Sənsiz qəlbim qırıq, sönük, çeynənmiş, xırpalanmış,
Ömür şüşəm daşa dəymiş, həyatım parçalanmış.
Qırıq bir saz kimi sızlar qanlı, yorğun telləri,
Yakılar da, yakar bütün qayğı vurmuş elləri.
Şu vətənin öksüzləri, gəlinləri, dulları,
Göz yaşıyla sulanmış həp keçdiyiniz yolları.
Yolunuzu bəkləməkdən bənizləri saralmış,
Heç gəlmədin. O şən, gülər ürəkləri qəm almış.
Sən gəlməsən, dolumsanmış ürəklər heç şad olmaz,
Sən gəlməsən, xərabaya dönən qəlb abad olmaz.
Sən gəlməsən, günəş doğmaz, ümid gülüm açılmaz,
Dodaqlarım gülməz, sönük baxtıma nur saçılmaz.
Başqasını istəməm də, ey türk, çabuk sən gəl, sən,
Bəkləməkdən yoruldum, eh, iştə gec qaldın, nədən?
Yollarına daşmı qalanmış? Ya azğın quldurlar



Burakmıyor? Daş, dəmir, ya polad olsa da onlar,
Ürəyində şölənənən mətin, qızğın atəşlə
Yak onları, ərit, söndür, çeynə, boğ, əz, xırpala!
Xain, alçaq düşmənlərə qol gücünü həp göstər,
Aç yolları, çabuq gəl ki, qəlbim seni pək istər (1, s. 61).

A.Şaiqin bu şeiri – 1918-ci ilin 12 iyununda Gəncə ermənilərini itaət altına alan, 30 iyunda Göyçayı, 2 iyulda Salyanı, 5 iyulda Ağsunu, 10 iyulda Kürdəmiri, 19 iyulda Şamaxını, nəhayət 15 sentyabrda Bakını işğaldan azad etmiş Türk ordusunun intizarında olan xalqın həyəcanının tərcümanıdır. Ona görə də müəllif şeirə həm də "İntizar qarşısında" adı vermişdir.

Bu günün özündə də belə bir şeir gözlərimiz önündə minlərlə türk qəhrəmanlarının şücaətini canlandırmaqdadır. Həm Osmanlı ordusu tərkibində gələn, həm də könüllü azərbaycanlılardan yüzlərlə şəhid vermiş qəhrəman türk ordusunun Bakı uğrunda 5 avqustda başladığı birinci hücumu hərbi sursat qıtlığından uğursuz olmuşdu. Türk hücumunun dəf edilməsi düşmən cəbhəsində ruh yüksəkliyinə səbəb oldu. 6 avqustdan etibarən Bakıda əli silah tutan 15-65 yaşlar arasında olan kişilər əsgəri xidmətə çağırılaraq məcburən silahlandırıldı. Buna qarşı çıxıb əsgər getmək istəməyən türklərdən 600 nəfər edam edildi. Dəhşətlər, iztirablar içərisində inləyən Bakı türkləri, əsgərlərin ruh yüksəkliyini qaldırmaq və onları daha da cəsarətləndirmək məqsədi ilə 10 avqust 1918-ci ildə "Milyonlar şəhəri adlanan Bakının qapıları önündə neçə gündür qələbə quşunun qanadlarını tutmaq istəyən Türk Ordusuna" başlıqlı müraciət hazırlamış və onu "Qafqaz İslam Ordusu" içərisində yaymışlar.

Bakının azad edilməsindən sonra sabitlik və əmin-amanlıq yaratmaq yolunda ciddi işlər görmüş Türk Ordusuna Azərbaycanı tərk etmək əmri veriləndə belə, ordunun əksər zabit və

əsgərləri Azərbaycan vətəndaşlığını qəbul edib burada qalmağa qərar vermişdilər. Və təbii ki, əslən azərbaycanlı olan hərbçilər də müstəqil Azərbaycan dövlətinin təşəkkülündə xidmətlərini əsirgəmirdilər ki, onların içərisində Y.Z.Talıbzadə çoxyönlü fəaliyyəti ilə diqqət mərkəzində olanlardandır.

Qeyd edək ki, Azərbaycan Xalq Cümhuriyyəti dövründə Daxili Qoşunların yaranma tarixi və Azərbaycanın ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə iştirakı, habelə şəxsi heyətin ölkənin əksər bölgələrindən keçən cəbhə zolağında öz cərgələrdə olması, cəsarət və igidlik nümunələri göstərməsinə dair bir sıra arxiv materialları vardır. Bu materiallarda respublika ərazisində ictimai asayişin bərpası, təhlükəli cinayətkarların zərərsizləşdirilməsi, vətəndaşların əmin-amanlığının qorunması istiqamətində aparılan xüsusi əməliyyatlarda şəxsi heyətin yüksək peşəkarlığına dair faktlar da yer almışdır (5, s. 10). Həqiqətən də Cümhuriyyət Hökuməti asayişin, əmin-amanlığın qorunmasını, qanuna-zidd hərəkətlərin qarşısını almağı da vacib hesab edirdi. Belə ki, Azərbaycan Respublikasının Dövlət Arxivində mühafizə edilən sənədlərdə bu gün Daxili Qoşunlar adlanan qurumun məhz Cümhuriyyət dövründə yaradılması barədə məlumatlar vardır. Azərbaycanda milli dövlətin yeni təşəkkül tapdığı bir dövrdə əhalini hərbi işlə tanış etmək, şəhərdə sabitlik və nizam-intizamın saxlanması məqsədi ilə Azərbaycan demokratik Respublikası parlamentinin icazəsi ilə 1919-cu il 1 iyun tarixindən könüllü əsgərlər dəstəsi yaradılmışdır. Bu barədə Bakı şəhərinin komendantı general-mayor F.Vəzirovun 7 sentyabr 1919-cu il tarixli məlumatında bildirilmişdir. Dəstə Bakı şəhərinin 14 rayonunu: Sabunçu, Mərkəzi, Balaxanı, Zabrat, Suraxanı, Xil, Aşağı Bibiheybət, Yuxarı Bibiheybət, Qara şəhər, Ağ şəhər, Tağıyev fabrikası, Binəqədi,



Maştağa, Nardaranı əhatə edirdi. Dəstənin rəisi Yusif Ziya bəy Talıbzadə təyin edilmişdir. 1919-cu il 10 iyun tarixində Azərbaycan Xalq Cümhuriyyəti Dövlət Müdafiə Komitəsinin iclasında qərara alınmışdı ki, Bakı şəhəri və onun rayonlarının ərazisində yaşayan hərbi çağırış yaşına çatmış şəxslər üçün hazırlıq təşkil edilsin. Könüllü dəstələrin təşkili üzrə komissiyanın sədri Yusif Ziya bəy Talıbzadə (beş min rubl əməkhaqqı verilməklə) təyin edilmişdir. 1920-ci il 27 mart tarixində yenə də Azərbaycan Xalq Cümhuriyyəti Dövlət Müdafiə Komitəsinin qərarı əsasında Bakı təşkilatının Yardım alayının könüllü dəstələri Daxili İşlər Nazirliyinin sərəncamına verilmişdir (5, s. 10-11).

Belə bir məsul ictimai-siyasi və hərbi fəaliyyəti ilə yanaşı Y.Z.Talıbzadə Azərbaycan Xalq Cümhuriyyəti dövründə nəşr edilən mətbuat orqanlarında da fəal iştirak edərək siyasətə, maarif-mədəniyyət mövzularına dair məqalələr də çap etdirmişdir (21, s. 51-52). O, həmin illərin dövri mətbuatında, xüsusilə də "Müsavat" partiyasının orqanı olan "Azərbaycan" qəzetində mədəniyyətin müxtəlif problemlərinə dair müntəzəm çıxışlar edir. Bir müddət Azərbaycan Xalq Cümhuriyyətinin siyasi həyatında qızğın fəaliyyət göstərir. "Azərbaycan" qəzetində dərc etdirdiyi "Müsavat qurultayında daxili siyasətimiz" (31), "Əkmək məsələsi" (32), "Qafqasiyaya bayram təbriki" (33), "Cəmiyyəti əqvam" (35), "Əfqanıstan" (34) və s. başlıqlı məqalələrindən aydın olur ki, Y.Z.Talıbzadə Azərbaycanla bu və ya digər şəkildə bağlantısı olan beynəlxalq hadisələrə də biganə qalmamış, milli hökumətin yanlış və qüsurlu tədbir və icraatını tənqid etməkdən çəkinməmişdir.

Ümumilikdə Azərbaycan Xalq Cümhuriyyəti yaranışı ilə ədəbi-mədəni həyata sövqi-təbii canlanma, ılıq bir bahar nəsimi

gətirdi. Uzun onilliklər Rusiya imperializminin boyunduruğu altında əzilən, alçaldılan insanlar taleyin qisməti ilə milli dövlətin təsisindən qürur hissi keçirir, fəxarət duyurdular. Dövlətçilik quruculuğu istiqamətində özünü büruzə verən ən kiçik yeniliklər cəmiyyətdə böyük maraq və məhəbbətlə qarşılanırdı. Ədəbiyyatda, sənətdə milli istiqlal ideyalarının, vətənpərvərlik və qəhrəmanlıq mövzusunun tərənnümü ön plana keçirdi (28, s. 46-51).

Bu dövrdə Y.Z.Talıbzadənin də vaxtaşırı yazılar dərc etdirdiyi "Azərbaycan" qəzeti Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin rəsmi orqanı olaraq Gəncədə, sonralar isə Bakıda Azərbaycan və rus dillərində nəşr olunmuşdur. 4 nömrəsi Gəncədə, sonrakı nömrələri isə Bakıda çıxmışdır. Qəzetin ilk nömrəsi 1918 il sentyabrın 15-də Gəncə qubernatorunun mətbəəsində çap edilmişdir. Dörd səhifədən ibarət olan bu nömrənin iki səhifəsi Azərbaycan, iki səhifəsi isə rus dilində buraxılmışdır. Gəncədə buraxılan axırıncı (dördüncü) nömrənin üç səhifəsi rus, bir səhifəsi isə Azərbaycan dilində idi. Qəzetin Gəncədə Azərbaycan dilində buraxılmış səhifələrinin başında qəzetin adı ilə yanaşı "Türk və islamçılığa aid məqalələrə "Azərbaycan"ın səhifələri açıqdır" yazısı da verilmişdir. Qəzetin birinci nömrəsində "Heyəti-təhriyyə" ("Redaksiya heyəti") imzası ilə böyük bir yazı verilmişdir. Bu nömrədə Bakının azad edilməsi ilə bağlı xəbərlər daha çox diqqəti cəlb edir: "Dünən gecə Azərbaycan Cümhuriyyəti Hökuməti adına Qafqaz İslam Ordusunun komandanı Nuru Paşa həzrətləri tərəfindən belə bir teleqram gəlmişdir: "Bismillahir rəhmanir rəhim! Bakı şəhəri 15.09.18, saat 9-a işləmiş igid ordu hissələrimiz tərəfindən zəbt olundu. Qafqaz, İslam Ordusunun komandanı Fərrux Nuri". "Azərbaycan" qəzetinin həmin nömrəsində Azərbaycan Cümhuriyyəti Hökumətinin sədri F.X.Xoyskinin adından Nuru Paşaya cavab teleqramı da dərc olunmuşdur: "Qafqaz İslam Ordusunun komandanı Səadətli Nuru Paşa həzrətlərinə. Təhtikomandanızda olan cəsur türk əsgərlərimiz tərəfindən Azərbaycanın paytaxtı olan Bakının düşmənlərdən xilas edilməsi münasibətilə millətin zatihəmiyyət-pərvəranələrinə və dünyanın ən nəcib əsgəri olan türk oğullarına minnətdar olduğumu ərz etməklə iftixar edirəm, əfəndim. Heyəti-vükəla rəisi Fətəli xan" ( 3, s. 135-136).



Əgər əsrin ilk onilliyində Y.Z.Talıbzadənin yazılarında dini mövzular əsas yer tuturdusa, artıq o, Cümhuriyyət illərində daha çox hərbi-siyasi fəaliyyətə üstünlük verir. Halbuki bu dövrdə dini fəaliyyət üçün daha münasib şərait yaradılmışdı. Belə ki, Ruhani idarəsi Tiflisdən Bakıya köçürülmüş, Nazirlər kabinetinin qərarı ilə Maarif və Dini etiqad nazirliyi yaradılmışdı. N.Yusifbəyli bu səlahiyyətlə bir sıra qərarlar qəbul etmişdi. "Azərbaycan" qəzetində, (1918, № 75) dərc edilmiş "Ədyan və məzahib nəzarəti"nin fəaliyyətinə həsr olunmuş bir məqalədə deyilirdi ki, bu vaxtadək zəkat, fitrə, xüms və bu kimi bir taqım şərti məcburi ianələr ruhanilərimizə mədaxil mənbəyi olaraq zahirən onların məişətini asan yola çıxarmışdı. İndi isə bu cür şəri sədəqələr dövlət xəzinəsinə yetişəcəkdir... Cümhuriyyətin müxtəlif tədbirlərində Müşeyxət sədri şeyxülislam M.M.Pişnamazzadə iştirak edirdi. M.M.Pişnamazzadə öz səhhəti ilə əlaqədar istefa verəndən sonra Bakıda altı alimin üzv olduğu "Ruhani idarəsi" yaradıldı. Şeyxülislam Ağa Əlizadə, müfti Mustafa Əfəndizadə, üzvlər – Əli əd-Din Sübhanquluzadə, Axund Axundzadə, şeyx Həsən Molla Sadıqzadə, Əbdülxaliq Əfəndizadə. Yeni ruhani idarəsinin "Ümumazərbaycan müsəlmanlarına" geniş müraciətnaməsi

qəbul olunaraq xalqı birliyə, vətənpərvərliyə, əsgəri xidməti vicdanla yerinə yetirməyə, düzlüyə və digər prinsiplərə əməl etməyə çağırırdı (17, s. 14-15).

Cümhuriyyət dövründə Ruhani idarəsinin verdiyi sərəncamlarla uyezdlərə axundlar təyin olundu. Ruhani idarəsi bütün fəaliyyəti ilə Cümhuriyyəti qorumağa çağırırdı. Məsələn "Azərbaycan" qəzetində (1920, № 240) getmiş bir müraciətdə deyilirdi: "Başımıza gələn bəlalardan ibrət alalım, bir dəfəlik xab qəflətdən ayılalım, hökumətimizə yardımdan geri durmayıb hər növ fədakarlıqda bulunalım. Lazımi qədər əsgər və at verməli. Həm dünyada izzət, həm də hüququmuza sahib olalım. Həm də axirətdə savab və nicata nail olalım" kimi islami təbliğat ümumi işin xeyrinə olaraq şeyxülislamın və digər ruhanilərin dövri mətbuatda dərc olunan məqalələrinin əhəmiyyətindən xəbər verir. Ruhani idarəsi Şəriət işlərini tənzimləməklə yanaşı vətəndaşlıq vəziyyəti qeydiyyatını – yeni doğulan uşaqların dövlət qeydiyyatına götürülməsini, bu barədə rəsmi sənəd verilməsini, evlənənlərin kəbin işini – nikah münasibətlərini, o cümlədən boşananların talaq, miras məsələlərini və başqa mühüm işləri yerinə yetirirdi (17, s. 15).

Azərbaycan Xalq Cümhuriyyətinin elan olunduğu tarixi şəraitin mürəkkəbliyi, beynəlxalq vəziyyətdəki qeyri-müəyyənlik, dünya dövlətlərinin Azərbaycan siyasətindəki gərginlik, müxtəlif məslək və cəbhələrə xidmət edən daxili siyasi qruplar arasındakı çarpışmalar, hətta nəticə etibarı ilə eyni əqidə və amal uğrunda mübarizə aparan qruplar arasında belə mübahisəli məqamlar ortaya çıxarırdı.

1911-ci ildə "Müsavat" firqəsinin təşəkkülünü bildirən bəyannamədən və partiyanın sonrakı proqramlarından islam amilinə nə dərəcədə mühüm yer verildiyi aydın görünür. 1911-



ci ildə nəşr olunmuş proqramın əsas bəndləri islam ittihadına həsr edilmişdi. 1-ci maddədə deyilirdi: "Milliyyət və məzhəb fərqi qoymadan bütün müsəlmanların birləşməsi" (22, s. 44). Sonrakı partiya proqramlarında (1917, 1919, 1936) bu prinsiplərdə əsaslı dəyişiklik olsa da, islam amili heç vaxt kölgədə qalmamışdır. Müsavatın ilk beş üzvü sırasında yer tutan Y.Z.Talıbzadəni də, heç şübhəsiz, ilk vaxtlar türkçülükdən çox din amili, daha dəqiq desək, islam ittihadı maraqlandırmışdır. Şeyx Cəmaləddin Əfqanidən üzü bəri müsəlman dünyasında islahatçılıq fikrinin təbliğatçıları, Osmanlı dövlətini islamiyyətin mərkəzi və sultanı da xəlifə kimi görür və sonradan "turançılıq" ideyasının bir çox yaradıcıları müsəlman-türk topluluqlarının qurtuluşunu Osmanlı dövləti ilə ittihadda görürdülər. Y.Z.Talıbzadənin həyat və yaradıcılığı da, onun əsasən bu əqidənin daşıyıcısı olduğunu təsdiqləyir. Azərbaycan Xalq Cümhuriyyətinin ideoloqları ilə olan fikir ayrılıqları da məhz bu məqamla bağlı olmuşdur. Demokratik Respublikanın ilk günlərində, xüsusilə də Qafqaz İslam Ordusu rəhbərliyi ilə milli hökumət rəhbərləri arasındakı mübahisələrdə bu amil də az rol oynamamışdır.

Müstəqilliyə gedən yolun çətinliyini təsəvvür etmək üçün siyasi qüvvələr arasındakı çəkişmələrə diqqət yetirmək kifayətdir. Cümhuriyyətin taleyinin həll edildiyi məqamda isə əsas təhlükələrdən biri də qardaş köməyinə gəlmiş Osmanlı ordusundan öz qara əməlləri üçün istifadə etməyə çalışan mürtəce qüvvələrin baş qaldırması idi. Bu zaman həm rus hakimiyyəti, həm də inqilab nəticəsində zərər çəkmiş mürtəce qüvvələr üçün Osmanlı dövlətinin ictimai və siyasi rejimi çox əlverişli idi. Belə bir situasiya Azərbaycanı nəticə etibarı ilə asılı vəziyyətə salacaq ilhaqçılıq üçün də çox münasib bir

fürsət yaradırdı. Daha doğrusu, "Azərbaycan hökumətinin dəvəti ilə və müəyyən müdaxiləyə görə köməyə gəlmiş İslam Ordusu komandanlığının, hökumətlə mürtəcelər arasındakı mübarizələrdə "bitərəflik" elan etməsi, azərbaycanlılar üzərində çox ağır təsir yaratmışdı. O yalnız bitərəflik elan etməmiş, hökumətin və Milli Şuranın tamamilə dağılmasını və mövqeyini Paşanın öz arzusu ilə təşkil edəcəyi hökumətə verməsini istəyirdi. Təşkil olunacaq bu "Hökumət" isə rus çarizminin sabiq qapı qulları ilə şeyxülislamdan ibarət olacaqdı" (22, s. 99).

Əslində Milli Şura xaricində Paşanın öz arzusu ilə təşkil ediləcək hökumətin mövcudluğu yeni hüquqi vəziyyət yaradacaqdı.

Bununla da Azərbaycan müstəqil bir dövlət olmaqdan çıxaraq Türkiyənin bir hissəsi şəklinə girəcəkdi. Halbuki bu, 1918-ci il 4 iyun Batum müqaviləsinə, Brest-Litovsk müqaviləsinə və eləcə də müstəqillik yolunda qazanılmış bütün uğurlarla daban-dabana zidd bir yanaşma idi. Belə bir məqamda hətta milliyyətçiliklərinə şübhə edilməyən bəzi tanınmış şəxsiyyətlər də Azərbaycanın qurtuluşunu yalnız Türkiyəyə birləşməkdə görürdülər ki, bir tərəfdən islam ittihadı təbliğatçısı, digər tərəfdən də Qafqaz İslam Ordusunun kifayət qədər nüfuzlu zabiti olan Y.Z.Talıbzadə də heç şübhəsiz bu ideya tərəfdarlarından idi. "Əhməd bəy Ağaoğlu kimi böyük şəxsiyyət belə Azərbaycanın müstəqil yaşaya bilməyəcəyini və Rusiya ilə Türkiyədən birinə arxalanmasının vacib olduğunu, Türkiyə məğlub olduqdan sonra Rusiya ilə anlaşmaqdan başqa çarə qalmadığını Bakıda çıxan bir rus qəzetinə verdiyi müsahibədə bəyan edirdi" (22, s. 108). Təbii ki, Azərbaycanın üzləşdiyi bəlalar fonunda və gərgin ictimai-siyasi şəraitdə



xalqın qurtuluş yolunu arayan bu əqidə sahiblərinin siyasi baxışlarının haqq qazandırılan tərəfləri də var idi. Nəhayətdə Azərbaycan Xalq Cümhuriyyətinin həmin tarixi şəraitdə taleyi yenə Milli Şura və Hökumət rəhbərləri ilə Qafqaz İslam Ordusu tərkibində səlahiyyət sahibləri olan Ə.Ağaoğlu və Y.Z. Talıbzadə kimi əslən azərbaycanlı ideoloqların birgə diskussiyaları, fikir mübadilələri sayəsində həll edildi.

Bəlkə də elə yuxarıda qeyd olunan mübahisəli məsələlər və fikir ayrılıqları səbəbindəndir ki, Y.Z.Talıbzadənin cümhuriyyət illərindəki fəaliyyətində anlaşılmaz məqamlar ortaya çıxır. Bununla bağlı mənbələrdə ziddiyyətli məlumatlara rast gəlinir. M.Sarvan "Borçalı alimləri" kitabında Y.Z.Talıbzadənin "Bəzi siyasi məsələlərin həlli üçün yenidən Türkiyəyə qayıtmasından" bəhs edir (29, s. 427). Kamal Talıbzadə isə yazır ki, o, həmin dövrdə "Bəzi siyasi məsələlərin həllində Demokratik Respublika rəhbərləri ilə razılaşmadığı üçün yenidən Türkiyəyə qayıdır" (39, s. 44). Y.Z.Talıbzadənin bacısı oğlu Hüsnəddin Rzayevin K.Talıbzadə tərəfindən yazıya alınmış xatirələrində (64) bu haqda iki yerdə bəhs edilir. Birində qeyd olunur ki, "Müsavat hökumətində Axund Yusif qalmır. Eşitdiyimə görə Axund Yusif istəmirdi Müsavat ingilislərlə əlaqəyə girsin. Axund Yusif müstəqil siyasətin tərəfdarı idi". Digər bir yerdə isə oxuyuruq: "Nəsib bəy Yusifbəyov ilə zidd idi. Xanxoyski ilə Kərim bəy Vəkilov ingilis tərəfdarı olduqları üçün onlara da münasibətləri pis idi. Qəti şəkildə Türkiyə tərəfdarı idi". Buradan da aydın olduğu kimi, Y.Z.Talıbzadə nəinki həmin illərdə, ondan sonrakı fəaliyyətini də türk-islam ittihadçılığı uğrunda mübarizəyə həsr etmişdir.

Əvvəldə də qeyd etdiyimiz kimi, Azərbaycan Xalq Cümhuriyyətinin daxili və xarici siyasəti ilə bağlı, ümumilikdə isə

Azərbaycanın ideoloji perspektivlərinə dair siyasi baxışlardakı fərqlər Osmanlı Ordusu nümayəndələrinin Gəncəyə gəldiyi gündən daha kəskin xarakter almışdı. Nuru Paşanın özü belə müstəqilliyini yenicə elan etmiş respublikanın siyasətinə müdaxilə etmək cəhətdən tərəddüd etmir, "Azərbaycanist" düşüncədə olmalarından narahat ola biləcək solçu və ya müsavatçılara qarşı mühafizəkar və panislamist çevrələrə olan yaxınlığını gizlətmirdi. Xüsusilə də, Rus inqilabının bir məhsulu hesab etdiyindən Milli Şuraya da çox ciddi yanaşmırdı.

Osmanlı dövlətinin həm şimali, həm də Güney Azərbaycanla bağlı siyasətini araşdıran tədqiqatçıların əksəriyyəti bu fikirdədir ki, bu siyasəti həyata keçirənlər hər cür müstəqillik fikrinə müxalifətdə olmuş, milli istiqlal öndərlərini mübarizə meydanından uzaqlaşdırmaq üçün bir sıra tədbirlər görmüşlər. T.Svietochovskinin qənaətinə görə, ümumilikdə, Osmanlı əsgəri idarəsi altında həyata keçirilən siyasət Rus inqilabının demokratik sahədəki nailiyyətlərini zədələyirmiş kimi görünürdü. Tədqiqatçı-alim digər araşdırıcılara – R. Pipes, Ş.Tağıyeva və başqalarına istinadən yazır: "Osmanlı yönəticiləri, aralarında Rəsulzadənin də olduğu birkaç Azərbaycanlını Türkiyəyə uzunca bir ziyarətə davətlə yerlərindən oynatmışlardı. İşğalçı kuvvətlər Təbrizdə daha da sərt tədbirlərə başvuruyorlardı, Azərbaycan Demokratik Partisinin radikal öncüsü və Sattar Hanın əski dostu Şeyx Məhəmməd Hiyabani Qarsa sürülmüş, Demokratik Parti yasaqlanmış, İttihad bənzəri və Osmanlı yanlısı İslam Birliyi dışında heç bir yasal siyasal örgüt buraxılmamışdır" (57, s. 180).

Tarixi hadisələr izlənildikdə belə bir qənaət hasil olur ki, "İttihadi-islam" cəmiyyətinin öndərlərindən biri kimi Y.Z.Talıbzadənin Güney Azərbaycandakı fəaliyyəti nəticə etibarilə



həm müsavatçıların siyasi xəttinə, həm də Xiyabani hərəkatına müxalif ruhda olmuşdur. Əslində cənubdakı milli hərəkatla Azərbaycan Xalq Cümhuriyyətinin siyasi kurslarında da fərqli və bir-birinə zidd mövqelər müşahidə edilməkdə idi. "Bakı və Təbriz idarəçiləri arasındakı yaxınlaşma (İranla-Azərbaycan arasında 1920-ci ilin martında bağlanmış dostluq və ticarət anlaşması nəzərdə tutulur – M.Ə.) və müsavatçıların qatı ingilis tərəfdarlığı, Xiyabani öndərliliyində işğala qarşı güclənən və xüsusən bu hərəkatın genişləndiyi Təbrizdə müxalif reaksiyaya səbəb oldu. Bu hərəkat Tehrandakı mərkəzi hökumətə olduğu qədər, ingilis hakimiyyətinə də qarşı idi, bununla bərabər Azərbaycan Cümhuriyyətinə də düşmənçilik bəsləməyə başlamışdı. Xiyabani və tərəfdarlarının Müsavat rejiminə qatı, soldan müxalifətdə olan Hümmət və ədalət qruplarının simpatiyasını qazanması çox təəccüblü sayılmazdı, beləcə inqilabçı pan-Azərbaycan həmrəyliyi təkrar gündəmə gəlmişdi" (57, s. 209).

Əslində Xiyabani, imperialist dövlətlər tərəfindən tanınan müsavatçılarla Azərbaycan birliyi üçün həmrəy deyildi; bolşeviklərin Bakı çevrilişini müsbət qarşılamışdı, bu hadisəni əski hümmətçilərin bir zəfəri olaraq görürdü. Ancaq qısa bir müddətdən sonra, Bakıda son sözün ruslarda olduğunu və bolşevizmin vüsət aldığını dərk edincə baxışlarını dəyişdirmişdi. Bolşevizmin İrana doğru hərəkətinin sonrakı inkişafında Xiyabaninin sovetlərə qarşı şübhələri getdikcə artır. O, Tehrana qarşı üsyanı davam etdirməklə bərabər, həm də hiddətli bir İran vətənpərvəri olmuşdu. İngilis olsun, rus olun – yabançıların İranın daxili işlərinə müdaxiləyə haqqı olmadığını bildirir, bolşeviklər İranın hər hansı bir yerini ilhaq etməyə qərar verdikləri təqdirdə İran azərbaycanlılarının onlara qarşı bir nəfər qalıncaya qədər vuruşacaqlarını bəyan edirdi. Belə bir durum

meydana gəlmədi, fəqət Azadıstan qısa bir müddət ərzində Araz çayının şimalındakı Sovet iqtidarına müxalif olanların sığınağı halına gəldi (57, s. 246-247).

Dünya dövlətlərinin Azərbaycan siyasətindəki mənafe müxtəlifliyi, Türkiyədə Dünya hərbində məğlub olmuş Osmanlı iqtidarı ilə Atatürkün rəhbərlik etdiyi milli hərəkatdan doğan ikihakimiyyətlilik Azərbaycandakı vəziyyəti daha da mürəkkəbləşdirirdi. Həm Zaqafqaziyadakı, həm də Anadoludakı türklər Azərbaycan hökumətinin incə diplomatik durumunu çox diqqətə almırdılar. Mustafa Kamala gəlincə, o, Türkiyənin xarici siyasətinə bağlı olaraq panislamizm və pantürkizmi tamamilə rədd edir, beləcə 1918-ci ildən sonra da bu ideyaları dəstəkləyən ittihadçıların siyasətindən qəti surətdə ayrılırdı. Onun fikrincə, pantürkizm və panislamizm sadəcə Türkiyənin Rusiyanın dostluğuna olan ehtiyac ilə zidd olmaqla qalmır, "öncə Türkiyə" düşüncəsinə dayanan milliyyətçiliyi ilə də təzad təşkil edirdi. Bununla belə, Azərbaycanda Anadolu milli azadlıq hərəkatına rəğbət bəsləyənlərin sayı olduqca çox idi və getdikcə də artırdı. Bu durum isə çox fərqli siyasi mənzərə yaradırdı: bunlar arasında, sonunda ittihadçıların milliyyətçilərin yerini alacağına inanan panislamistlər, Türkiyədəki hərəkatın dünya çapında bir anti-imperialist partlayışın başlanğıcı olduğunu düşünən solçular və ümumilikdə məhdud, dar Azərbaycan millətçiliyinə qarşı olan dəyişik siyasi düşüncələrə sahib kimsələr vardı. Nəsib bəy Yusifbəylinin ikinci kabineti, bu geniş rəğbət hisslərindən doğan bir xoş niyyət göstəricisi olaraq, dekabr 1919-cu ildə Mustafa Kamala maddi (pul) yardımı etdi. Lakin "Bu hərəkət, genəl durumu dəyişdirmədiyi kimi, Azərbaycanda bulunan türklərin əslində Azərbaycan Cümhuriyyətinin yıxılmağına yol açacaq fəaliyyətlərini də



durduramamışdı. Halil Paşanın dahi çocukça davrandığını söylədiyi Nuri Paşa, kökü 1918 haziran krizine dayanan Müsavatçılara qarşı böyük kiniylə, bütün gücünü bolşevikləri dəstəkləməyə vermişdi. Kəndisi və İttihad və Tərəqqi təqibçilərinə Azərbaycanda siyasi dəstək sağlayan ittihad qrupuyla yaxın ilişgisi iştə bu tarihlərdə başlamışdı" (57, s. 215-216). Milli hökumətə qarşı təzyiqlər həm ittihadçılar, həm də Mustafa Kamal tərəfdarları tərəfindən göstərilirdi. Rus işğalı ərəfəsində bu təzyiq daha sərt bir şəkil almışdı. Anlaşılmazlıq o səviyyədə idi ki, hətta bu arada ittihadçılar hökumətə qarşı küçə nümayişlərində, qərbyönlü müsavat liderlərini Qızıl Ordunun Türkiyənin yardımına getməsini əngəlləməklə günahlandırırdılar.

Heç şübhəsiz ittihadçı və panislamizmin qatı tərəfdarı olan Yusif Ziya birbaşa olmasa da, nəticə etibarilə Azərbaycan Xalq Cümhuriyyətinin istiqlal ideyalarına həmrəy olmamışdır. O da dövrün bir çox türk böyükləri kimi Azərbaycanın qurtuluşunu ən yaxşı halda Osmanlı hüdudlarına qatılmaqda görürdü. Onun istər rus işğalından əvvəl, istərsə də sonrakı illərdəki panislamizm və ittihadçılıq fəaliyyətləri onun ideoloji baxışlarındakı fərqləri aşkar büruzə verir. Milli hökumətlə münasibətlərdəki anlaşılmazlıqlar da məhz siyasi baxışlardan irəli gəlirdi. Rus işğalına qədər, daha çox Türkiyə və İran hüdudlarındakı çalışmaları da onun ittihadi-islam əqidəsinə sədaqətindən doğurdu. Y.Z.Talıbzadənin sovet dövrünün ilk illərində Azərbaycandakı fəaliyyətinə son qoyub doğma yurdu tərk etməsi və Türkiyəyə – Mustafa Kamal öndərliyindəki milli azadlıq hərəkatına deyil, Orta Asiyaya – panislamist və pantürkist Ənvər Paşanın başçılıq etdiyi "Basmaçılar" hərəkatına doğru üz tutması, və islam birliyi məfkurəsi uğrunda şəhidlik

mərtəbəsinə yüksəlməsi isə, fikrimizcə, məslək və ideya baxımdan heç bir mübahisəyə rəvac vermir.

Dünya hərbi illərində Y.Z.Talıbzadənin Osmanlı ordusu tərkibində Güney Azərbaycandakı fəaliyyətinə yuxarıda müəyyən qədər toxunmuşduq. Lakin o, sonralar da – cümhuriyyət dövründə də Güney Azərbaycanda siyasi-ideoloji fəaliyyətlə məşğul olmuşdur. Y.Z.Talıbzadənin Azərbaycan Xalq Cümhuriyyətinin siyasi həyatında qızğın fəaliyyət göstərməsindən bəhs etdikdən sonra akademik K.Talıbzadə yazır: "1919-cu ildə Osmanlı dövləti nümayəndə heyətinin başçısı kimi Təbrizə gedir (Yusif Ziya nəzərdə tutulur – M.Ə.), orada həmkarları ilə Güney azərbaycanlıların azadlıq mübarizəsini dəstəkləyən "İttihadi-islam" cəmiyyətini yaradır" (63). Lakin Quzey Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra Güneydə də vəziyyət dəyişir (18). Hələ Cümhuriyyət vaxtı siyasi fəaliyyətini İranda "İttihadi islam" vasitəsilə həyata keçirən Y.Z.Talıbzadə rus işğalından sonra İran sərhədindən Azərbaycana keçərkən həbs olunur. K.Talıbzadənin tədqiqatlarından (39, s. 44-45; 26; 37; 38) öyrənirik ki, həbs olunan zaman onu öz xahişi və təkidi ilə o zaman Azərbaycan Nazirlər Şurasının sədri vəzifəsini icra edən Nəriman Nərimanovun yanına gətirirlər. Qısa söhbətdən və Moskva ilə razılaşdırıldıqdan sonra Yusif Ziya azad olunur, çox çəkmir ki, Nəriman Nərimanovun vasitəçiliyi ilə Naxçıvana Hərbi komissar təyin edilir. 1921-ci ilin əvvəllərində (fevral-mart aylarında) ailəsi ilə Naxçıvana köçən Yusif Ziya Naxçıvan inqilab komitəsinin üzvü olur, hərbi komissar vəzifəsində çalışır. Vəfat etmiş Sokolovskini əvəz edən yeni hərbi komissar, Naxçıvan torpağına göz dikən, ona əl uzadan daşnak silahlı dəstələrinə divan tutmaqda o zaman Naxçıvanda xeyli məşhurlaşmışdı.



Abdulla Şaiqin Mənzil Muzeyində mühafizə olunan materiallar içərisində Naxçıvanın qocaman elm-mədəniyyət xadimi, tarix elmləri namizədi, dosent Əli Əliyevin 16 oktyabr 1994-cü il tarixli qeydləri də Y.Z.Talıbzadənin Naxçıvan dövrü haqqında maraqlı bilgi verir. O, yazır ki, Azərbaycan İnqilab Komitəsi tərəfindən Naxçıvana göndərilən komissiyanın sədri Bahadur Vəlibəyovun 300 nəfərlik atlı süvari dəstəsinin tərkibində Naxçıvanın daşnaklardan müdafiəsi üçün göndərilənlərdən biri də Yusif Talıbzadə olmuşdur. Məşhur yazıçı Abdulla Şaiqin böyük qardaşı olan Yusif Talıbzadə Naxçıvanın Hərbi Komissarı təyin edilir. O, çox cəsur döyüşçü olmuşdur. Yusif Talıbzadə Hərbi komissarlığın işçilərinin qarşısında çıxış edərək demişdir: "Yoldaşlar, sayıq olmaq lazımdır. Çünki biz daşnak Ermənistanın mühasirəsindəyik. Daşnakların Naxçıvana basqını nəzərdə tutulur. Çünki Dronun (Ermənistanın hərbi naziri) və Mizronun (Zəngəzurun daşnak qoşunlarının başında duran şəxs) Naxçıvana həm Ermənistandan, həm də Zəngəzurdan basqını gözlənilir. Buna görə də həmişə sayıq olmaq lazımdır. 1921-ci ilin fevral-aprel aylarında daşnaklar bolşevikləri İrəvandan çıxarıb ətrafa qovmuşdur. İrəvanda hakimiyyət daşnakların əlinə keçib. Biz həmişə hazır olmalıyıq" (60).

Yusif Ziyanın bacısı oğlu Hüsnəddin Rzayev dayısının Naxçıvana hərbi komissar təyin edilməsi faktı barədə belə məlumat verir ki, Axund Yusif sərhədi keçərkən çeka tərəfindən tutuqlanır. N.Nərimanov onun barədə A.Şaiqə xəbər göndərir. "Axund Yusif Şaiqlə evə gəlir. Nənəm çox sevinir. Çoxdan görmədiyi balasını bağrına basır. Sonra Nəriman Moskvaya gedir, Leninlə Yusif haqqında danışır. Lenin deyir ki, hansı ildən o, öz təşkil etdiyi partiyanın üzvüdürsə, həmin

ildən bizim partiyaya qəbul edə bilərik. İş də vermək mümkündür. Axund partiyaya girmir. O vaxt daşnaklar Naxçıvana xeyli yaxınlaşmışdılar. N.Nərimanov Axund Yusifi ora hərbi komissar təyin edir və o, tezliklə Naxçıvanda daşnaklarla mübarizəsinə görə məşhurlaşır. Deyirlər Naxçıvanda "Yusif Ziya" kəndi varmış. İrəvana doğru hücum mərkəzin əmri ilə saxlanılır. Axund Yusif inciyib geriyə qayıdır" (64).

Beləliklə, 1921-ci ilin əvvəllərində Yusif Ziya Naxçıvana hərbi komissar təyin olunur. Fevral-mart aylarında ailəsi ilə birgə Naxçıvana köçür. Yeni hərbi komissar Naxçıvan torpağına göz dikən, ona əl uzadan daşnak silahlı dəstələrinə divan tutmaqla Naxçıvanda xeyli məşhurlaşır. Belə məlumatlar da var ki, hətta Naxçıvanda Yusif Ziya kəndi də olub. Y.Z.Talıbzadə 1921-ci ilin fevral ayından 1922-ci ilin dekabrınadək Naxçıvanda hərbi komissar vəzifəsində çalışmışdır (5, s. 13).

Y.Z.Talıbzadənin Naxçıvandakı fəaliyyətini təsdiqləyən və hərbi komissar kimi şücaətinə işıq salan bir sıra arxiv materialı vardır. Bunların bir hissəsi "Azərbaycan arxivi" jurnalının 1985-ci il, birinci sayında nəşr olunmuşdur (24, s. 32-49).

Naxçıvan MSSR-in yaradılmasının 60 illiyi münasibətilə tədqiqatçı Fəxrəddin Cəfərov tərəfindən təqdim edilən həmin arxiv materialı Y.Z.Talıbzadənin Naxçıvandakı fəaliyyətini öyrənmək baxımından tutarlı mənbədir. Naxçıvan İnqilab Komitəsinin iclas protokollarından ibarət bu sənədlərdə onun adı "Юсиф Зия", "Талыб-заде" və "Юсиф Зия Талыб-заде" kimi çəkilir. 10 aprel 1921-ci il, 13 saylı (24, s. 41-42), 18 aprel 1921-ci il 15 saylı (24, s. 43), 21-22 aprel 1921-ci il, 16 saylı (24, s. 43-45), 5 may 1921-ci il, 17 saylı (24, s. 45), 27



may 1921-ci il, 18 saylı (24, s. 45-46), 27 may 1921-ci il, 19 saylı (24, s. 46), 12 iyun 1921-ci il, 20 saylı (24, s. 46) və 14 iyun 1921-ci il 21 saylı (24, s. 47) protokollarda A.Y.Talıbzadənin adı həm hərbi komissar, həm də Naxçıvan İnqilab Komitəsi iclaslarının üzvü kimi qeyd edilir. Protokolların məzmunundan aydın olur ki, həmin dövrdə Naxçıvan əhalisinin taleyüklü məsələlərinin həllində, çox məsul və səlahiyyətli şəxs kimi Y.Z.Talıbzadə mühüm işlər görmüşdür.

İsa Həbibbəylinin 21 may 1987-ci il tarixdə Naxçıvandan Kamal Talıbzadəyə ünvanladığı məktubda da Y.Z.Talıbzadə ilə bağlı bəzi mətləblərə aydınlıq gətirilir. Bəlli olur ki, məktub müəllifi Y.Z.Talıbzadə ilə bağlı sənədləri əldə etmək üçün tədqiqatçı alim Əli Əliyevin şəxsi arxivinin də bütünlüklə mühafizə olunduğu Naxçıvan Dövlət Arxivinə gedir. Lakin fondun müdiri Fəxrəddin Cəfərovla aparılan araşdırmalar səmərə vermir. Daha dəqiq desək, aydınlaşdırılır ki, Y.Z.Talıbzadənin şəxsi işi burada yoxdur. Hərbi komissar vəzifəsində çalışmış bir dövlət adamının şəxsi işlərinin xüsusi qayğı ilə, hansısa ayrıca fondda hökmən mühafizə olunduğuna əmin olan arxiv işçiləri məsləhət bilirlər ki, Azərbaycan hərbi komissarlığına müraciət olunsun. Çünki hərbi komissarlığın öz arxivi olduğu üçün oradan Dövlət Arxivinə çox az material daxil olur. İ.Həbibbəyli yazır ki, "bununla belə, 1920-1922-ci illərdən yadigar qalmış xeyli materialla tanış olduq. Bu materialların əksəriyyəti hərbi komissarlığın tərkibi haqqında siyahılardan ibarətdir. Həmin siyahılar ya təsdiq, ya da məlumat üçün Naxçıvan SSR (1924-cü ilə qədər belə adlanmışdır) Xalq Komissarlar Sovetinə, yaxud da İnqilab Komitəsinə təqdim edilmişdir. Müxtəlif siyahılardan çıxan nəticə belədi: Y.Talıbzadə, Naxçıvanda 1921-ci ilin təxminən fevral-mart aylarından

1922-ci ilin axırlarınadək hərbi komissar vəzifəsində çalışmışdır" (62, s. 2).

Bu siyahılar və yuxarıda bəhs etdiyimiz iclas protokolları Y.Z.Talıbzadənin kimlərlə birlikdə işlədiyini öyrənmək üçün də maraq doğurur. Onunla eyni vaxtda çalışanlar arasında Cəlil Məmmədquluzadə və Eynəli Sultanova yaxın olan, sovetləşmədən əvvəl Rusiya və Zaqafqaziyanın müxtəlif yerlərində təhsil almış, ziyalıların soyadları da vardır ki, onlardan Kəngərli və Kələntərov familiyalı şəxslər Naxçıvanın məşhur ziyalı nəsillərinin nümayəndələridir.

Rus dilində olan və dəftərxana müdiri Kəngərli tərəfindən imzalanmış siyahılardan ikisinin azərbaycancaya tərcüməsinin nümunə üçün burada verilməsini məqsədəuyğun hesab etdik.

Qeyd edək ki siyahıların üzərində "CEKPETHO" sözü yazılmışdır.

"Naxçıvan ölkəsi hərbi komissarlığı əməkdaşlarının

SİYAHISI

| | |
|---|---|
| Hərbi komissar: | Y.Z.Talıbzadə |
| Müavini: | Əbdüləzim Rüstəmov |
| Dəftərxana rəisi: | R.Rəhimov |
| Kargüzar: | Ə.Kəngərlinski" (362). |

Digər siyahıda isə hərbi komissarlığın bütün, tam heyəti barədə məlumat alırıq:

"Naxçıvan ölkə hərbi komissarlığı heytəinin

SİYAHISI

| | |
|---|---|
| 1) Hərbi komissar | Y.Z.Talıbzadə |
| 2) Hərbi rəhbər | A.Hüseynov (Ordubaddan) |
| 3) İşlər müdiri | İ.Bağırov (Naxçıvandan) |
| 4) Qeydiyyat şöbəsi | Ə.Kəngərlinski (Naxçıvandan) |
| 5) Mühasiblər | Q.Qreb (45yaş; Samara |
| 6) Kargüzar | quberniyasından) |
| 7) Anbar müdiri | S. Vəzirov (Naxçıvandan) |
| 8) Komendant | Z.A.Kələntərov (36 yaş; Naxçıvan) |
| 9) Kuryer | H.Kəngərlinski (35yaş; Naxçıvan) |
| 10) Hərbi komissarın | Yurik (Bazarçaydan) |
| şəxsi katibi | İ.Abbasov (22 yaş; Nehrəmdən) |
| 11) Dəftərxana müdiri | İ.Kəngərlinski (35 yaş; Naxçıvandan) |
| | R.Rəhimov (28 yaş; Baş Noraşendən) |

Kəngərli

20 may 1921-ci il, № 248" (363).

Y.Z.Talıbzadənin hərbi komissar kimi fəaliyyətini əks etdirdiyi üçün Naxçıvan Dövlət Arxivində saxlanılan və vaxtilə Naxçıvan İnqilab Komitəsinə göndərilmiş protokolun surətinin əsas məzmununu (bəzi ixtisarlarla) da verməyi lazım bilirik (16 aprel 1921-ci ildə (№ 596) göndərilmişdir).

"Protokol № 2

Naxçıvan ölkəsi hərbi komissarlığının hərbi komissarı Y.Z.Talıbzadənin sədrliyi ilə keçən 14 aprel 1921-ci il tarixli iclası...

İclasın gündəliyi:

1) 1921-ci ilin aprel ayı üçün xərclənmə smetasının nəzərdən keçirilməsi...

2) Təchizat idarəsinin anbarında saxlanılan ağ Amerika ununun toxunulmazlığı haqqında.

3) Keçmiş hərbi komissar Sokolovski yoldaşın şəxsi əşyaları haqqında.

4) Türk qaçqınları haqqında.

5) 180-ci polkun üçüncü ildönümünün bayram edilməsi haqqında.

Eşidildi:

1) Təchizat idarəsinin rəisi Sokolovski 1921-ci ilin aprel ayı üçün nəzərdə tutulmuş smetanı oxuyur…

Qərar: Təsdiq edilsin.

Eşidildi:

2) Hərbi komissar Y.Z.Talıbzadə ərzaq məsələləri aydınlaşdırılana qədər sovet idarələrinə ağ Amerika ununun buraxılmasının dayandırılmasını təklif edir.

Qərar: Dönmədən qəti əməl edilməsi məqsədi ilə nəzarətə alınsın.

Eşidildi:

3) Hərbi komissar Y.Z.Talıbzadə yoldaş Azərbaycan İnqilab Komitəsi qarşısında mərhum hərbi komissar Sokolovskinin ailəsinə maddi kömək göstərmək məqsədilə xüsusi məsələ qaldırmağı təklif edir. O, göstərir ki, həmçinin Müvəqqəti İnqilab Komitəsindən (Naxçıvanın) Naxçıvan, Ordubad və Şərurun bütün sovet idarələrindən mərhum Sokolovskinin portreti üçün pul toplanmasına sərəncam verilməsi xahiş edilsin. Əldə edilən pul vəsaiti mərhumun şəxsi əşyaları və saatı ilə birlikdə onun ailəsinə göndrilsin.

Qərar: Təklif bəyənilsin.

Eşidildi:

4) Türk fərariləri barədə Avoyev yoldaş məruzə edir…

Eşidildi:

5) Hərbi komissar Y.Z.Talıbzadə yoldaş təklif edir: Naxçıvan ölkəsinin daxili və xarici düşmənlərdən mühafizə edilməsi məqsədilə ən çətin vaxtlarda Naxçıvan ölkəsi proletariatının köməyinə gəlməsinin III ildönümü münasibətilə 180-ci polkun komandanlığına təbrik teleqramı göndərilsin.

Qərar: Göndəriləcək teleqramın mətni hazırlansın. Teleqram vaxtında vurulsun. Naxçıvan şəhərində olan digər hərbi hissələrin də təbrik olunması üçün tədbirlər görülsün.

İclas bağlı elan edilir.

| | |
|---|---|
| Sədr: | Talıbzadə |
| Təchizat şöbəsi rəisi: | A.Sokolovski |
| Səfərbərlik şöbəsi rəisi: | Avoev |
| Dəftərxana müdiri: | Rəhimov |

Naxçıvan ölkəsi İnqilab Komitəsinə, məlumat üçün

16/IV –1921-ci il, № 596 (65).

Təqdim etdiyimiz sənədlərdə eyni nəsildən olduğunu ehtimal etdiyimiz eyni soyadlı bir neçə şəxsin adı çəkilir. Eyni zamanda burada Sokolovski soyadına rast gəlirik. Onların şəxsiyyətini tədqiq etmiş İ.Həbibbəylinin məlumatından aydın olur ki, onlardan biri təchizat şöbəsinin rəisidir və Y.Z.Talıbzadə ilə birlikdə işləmişdir. İkincisi isə hərbi komissar olub. Naxçıvanda banditlərə qarşı mübarizədə Xancan Hüseynovla birlikdə əfsanəvi qəhrəmanlıq göstərmiş və mərdliklə həlak olmuşdur. İ.Həbibbəyli bu haqda K.Talıbzadəyə yazır ki, "onun (Sokolovski nəzəldə tutulur – M.Ə.) və döyüş yoldaşlarının məzarları Naxçıvanda "Böyük bağ" deyilən yerdədir. Bura "17-lər bağı" da deyirlər. Hər il əlamətdar günlərdə onların məzarlarının üstünə gül-çiçək dəstələri qoyulur. Əminiz Y.Talıbzadənin onun ailəsinə maddi kömək göstərmək və portretini yaymaq təşəbbüsləri tarixi hadisədir" (62).

Azərbaycan Dövlət Arxivində saxlanılan və Y.Z.Talıbzadənin Naxçıvandakı fəaliyyətinə aydınlıq gətirən 22 fevral 1921-ci il tarixli məktubda onun siyasi və hərbi təcrübəsi daha

qabarıqlığı ilə özünü büruzə verir. "Naxçıvan Əsgəriyyə komissarı və xarici işlər naziri Yusif Ziya Axund Mustafa oğlu Talıbzadənin Azərbaycan dövlət xadimləri Mirzə Davud Hüseynova və Əliheydər Qarayevə məktubu" adlı bu tarixi sənəd həmin dövrün bir sıra siyasi problemlərini əks etdirir.

Qarsdan yazılmış və transliterasiya edilmiş, bir nüsxəsi A.Şaiqin Mənzil Muzeyində saxlanılan bu məktubda təkcə müəllifin haşiyə xarakterli məlumatı bizə çox şeylər deyir: "Burada – Qarsda XI qırmızı ordunun bir hissəsi vardır ki, onun vasitəsi ilə Tiflisə və sizə Naxçıvandan teleqraf göndərəcəyəm. Siz də Tiflisdə yoldaş İlyayeva və yaxud Tiflis siyasi məmurumuz yoldaş Rəsulzadə vasitəsi ilə teleqraf və pul göndərə bilərsiniz.

Adres belədir: Карс, представителю XI армии тов. Рюганову для Нахичеванского Военкома Юсифа Зияя Талыбзаде" (61).

Azərbaycanın Xarici İşlər Komissarı Mirzə Davud Hüseynova və İnqilab Komitəsinin sədri Əliheydər Qarayevə ünvanlanmış bu məktubun mahiyyəti tarixi ictimai-siyasi vəziyyət nəzərə alınmadan obyektiv şərh edilə bilməz. Belə ki, hələ Azərbaycanda Sovet hakimiyyəti qurulan məqamda Ermənistanla üç mübahisəli ərazinin üçündə də (Naxçıvan, Zəngəzur, Qarabağ) müharibə gedirdi. Bolşevik işğalından dərhal sonra – aprelin 30-da Azərbaycan Sovet hökuməti nota göndərərək Ermənistan hökumətindən üç gün ərzində Qarabağı və Zəngəzuru Ermənistan qoşunlarından təmizləmək, öz sərhədlərinə çəkilmək və millətlərarası qırğını dayandırmaq tələb olundu. Əks təqdirdə Azərbaycan özünü Ermənistanla müharibə vəziyyətində hesab edəcəkdi. Eyni məzmunlu nota Ermənistan hökumətinə XI Qızıl Ordu rəhbərliyi adından da



göndərilmişdi. Bu addım uğurlu oldu. N.Nərimanovun bu uğurlu siyasi gedişi hər halda böhranın həlli üçün Azərbaycana vaxt qazandırdı. XI Qızıl Ordu Naxçıvana doğru getdi və ümumi halda Naxçıvanda hadisələrin inkişafına müsbət təsir göstərdi. Prof. Ş.Qurbanov bu hadisəyə tarixi qiymət verərək yazır: "N.Nərimanovun tapşırığı ilə Moskvada fövqəladə nümayəndə və M.H.Hacınski, Moskvada ezamiyyətdə olan Türkiyə nümayəndə heyətinin başçısı Bəkir Şami ilə görüşdülər və mübahisəli ərazilər problemini müzakirə etdilər. N.Nərimanovun nümayəndələri, türklərin problemə siyasi müdaxiləsinə razılıqlarını aldılar və bunun nəticəsi artıq bir neçə gündən sonra Bəkir Şaminin Leninlə görüşündə özünü büruzə verdi. Naxçıvana aid sonrakı Qars müqaviləsinin əsası belə qoyulmuşdur" (19, s. 32-33).

N.Nərimanovun Naxçıvan haqqında 1920-ci il 1 dekabr tarixli bəyanatından 27 gün sonra Ermənistan İnqilab Komitəsinin cavab bəyanatı verildi ki, Naxçıvanın taleyi əhalinin öhdəsinə buraxılmışdır. Bu, bir tarixi gerçəklikdir ki, Naxçıvanın bu dövrdə vəziyyəti Bolşevik Rusiyası ilə Türkiyə arasındakı münasibətlərin tam asılılığında olmuşdur. "Dünya savaşı və milli mücadilə dönəmində Ahışka-Ahılkelek (1914-1921)" əsərində Ali Arslan yazır: "İtilaf Devletleri qarşısında siyasi ve askeri müttefiklere ihtiyacı olan Ankara Hükümeti, Bolşeviklerle anlaşma yollarını aradı. Bolşeviklerin de buna ihtiyacı vardı. Türkiyenin Yusuf Kemal Tengirşenk, Ali Fuat Paşa və Riza Nur tarafından temsil edildiği Moskova Anlaşması 1921-de imzalandı" (40, s. 113).

Bu müqavilə ilə nəinki Türkiyənin bugünkü Qafqaz sərhədləri cızıldı, həmçinin bu tarixi anlaşma Naxçıvanın sonrakı taleyinə də həlledici təsir göstərdi. Belə ki, 1921-ci il

martın 16-da Moskvada, həmin il oktyabrın 13-də isə Qarsda imzalanan müqavilələrdə Naxçıvanın Azərbaycan ərazisi olduğu beynəlxalq sazişlə təsdiqləndi. Naxçıvanın taleyinin həlli (N.Nərimanovun həyata keçirdiyi milli maraqlara söykənmiş, düşünülmüş dövlət siyasəti; ardıcıl, strateji və taktiki addımlar silsiləsi; Azərbaycanın Türkiyə ilə gizli danışıqlara razılaşdırılmış addımları; Mustafa Kamal Paşanın və N.Nərimanovun qiyabi və həmrəy danışıqları; Naxçıvan əhalisinin qətiyyəti nəticəsində) belə uğurlu nəticə ilə başa çatdı (13, s. 48).

Arxiv materiallarından, iclas protokollarından və digər tarixi mənbələrdən aldığımız bilgilər bizə kifayət qədər əsas verir ki, Naxçıvanın tarixi müqəddəratında Y.Z.Talıbzadənin də oynadığı rola obyektiv tarixi qiymət verək. Siyasi əqidəsində bolşevizmə düşmən kəsilsə də, gənc yaşlarından dostluq telləri ilə sıx bağlı olduğu N.Nərimanovla məslək ayrılıqları və Atatürkün rəhbərliyi altında Anadolu milli azadlıq hərəkatına münasibətində təzadlı baxışları olsa da, ümumilikdə Y.Z.Talıbzadə mövcud siyasi durumu obyektiv dəyərləndirə bilmiş, Naxçıvanla bağlı məsələlərin həllində reallıqdan çıxış edərək hərbi komissar vəzifəsində çalışdığı müddətdə xalqın rəğbətini qazanmışdır.

Y.Z.Talıbzadənin Naxçıvandakı fəaliyyəti N.Nərimanovun siyasi iradəsi ilə sıx bağlı olmuşdur. Yalnız siyasi rəhbər, dostluq münasibətləri deyil, həm də A.Y.Talıbzadənin bilavasitə N.Nərimanovun zəmanəti ilə təyin olunmuş kadr olması faktı da nəzərdən qaçırılmamalıdır.

N.Nərimanov Ümumazərbaycan sovetlər qurultayında Naxçıvanla bağlı məsələni xüsusi vurğulamışdır ki, sovet Rusiyası ilə Türkiyə arasındakı müqaviləyə əsasən Naxçıvan Azərbaycanın himayəsi altında bir respublika kimi tanınacaq



və Azərbaycan nümayəndə heyəti bu işdə var qüvvəsi ilə çalışacaqdır. Rəsmi mənbələrə, arxiv materiallarına istinad edən Həsən Həsənov "Nəriman Nərimanov – milli təmayüllü kommunist" əsərində bu məsələyə tam aydınlıq gətirməyə çalışmışdır (13). Bu ərəfədə həmin məqsədlə Moskvaya göndərilmiş B.Şahtaxtinski yazırdı ki, Türkiyə-Rusiya danışıqlarında məhz Azərbaycanın təkidi ilə Naxçıvan məsələsinin müzakirə edilməsinə və Türkiyənin təkidi ilə Azərbaycanın xeyrinə həll olunmasına nail olunmuşdur. Azərbaycan tərəfi hələ Qars müqaviləsi qəbul olunmamış, 1921-ci il avqustun 14-də Naxçıvan və Ermənistan rəhbərliyinə teleqram vuraraq tələb etdi ki, "Ermənistan XKS tərəfindən göndərilən bütün şəxslər təcili olaraq Naxçıvandan çıxarsınlar (13, s. 48-49).

Y.Z.Talıbzadənin Naxçıvanın, eləcə də ətraf ərazilərin müqəddəratı ilə bağlı sözü gedən məktubda əvvəllər müşahidə edə bilmədiyimiz "bolşeviklərə qarşı bir yumşalma" da hiss olunur. Görünür, bu həm vəzifə borcundan, həm də Azərbaycan və Türkiyənin böhranlı vəziyyətindən irəli gələn çarəsizliklə izah olunmalıdır. 11 maddəlik məktubun 1-ci maddəsində türk ordusunun Axıska və Axal-Kələki, Qars və Batumdakı mövcud və nəzərdə tutulan mövqelərinə toxunan müəllif belə bir xəbərdarlıq da edir ki, buraya (Qarsa – M.Ə.) gəlmiş olan mühacirlər bu mühiti bolşeviklərə qarşı zəhərləməkdədirlər. Yalan-yalan şayiələr nəşr etməkdədirlər. Onun üçün buna bir tədbir lazımdır.

Məktubda təsvir edilən tarixi hadisələrin təhlili belə düşünməyə əsas verir ki, hansı bir səbəbdənsə məktubun üzərindəki "22 fevral 1921-ci il" tarixində yanlışlıq vardır. Fevral sözünün üzərindəki pozuntu isə kiminsə səhvən və ya bilərəkdən ayın dəyişdirilməsini təsdiqləyir. Çünki məktubun

məzmunundan görünür ki, bu vaxt artıq Moskva – Türkiyə razılaşmaları baş vermişdi.

Y.Z.Talıbzadə bu haqda aydın məlumat verir: "Mən bu xüsusda gərək Güləridə Rüşdü Paşa və gərək Qarsda Kazım paşa ilə konuşdum. Onlar dəxi Tiflisdəki həzrətləri Hüsaməddin bəyə bu xüsusda əmr buyurdular. Bu günlərdə Moskvada Türkiyə ilə Şura Rusiyası arasındakı etilaf əqdi (əməkdaşlıq aktı) Türkiyə üzərinə böyük bir təsir yapdı. Londona getmiş olan vəkillərin dönməkdə olduğunu xəbər aldım. Kazım Paşa ilə görüşdükdə bu etilafın həm Şura hökumətləri və həm də Şərq dövlətləri üçün xeyirli olması üçün aramızdakı səmimiyyətin daha ziyd olmasını təmənna eylərəm söylədi".

Məktubun 2-ci, 3-cü və 4-cü maddələrində bilavasitə Azərbaycan-Türkiyə münasibətlərinə dair tövsiyələr verilir. Bu məqsədlə Qarsa elə adamların göndərilməsini müsbət sayır ki, onlar Türkiyənin əhval-ruhiyyəsinə bələd və ciddi şəxslər olsunlar. Qeyd edir ki, Mustafa Sübhi yoldaşın buraya gəlməsi Türkiyə üzərində fəna təsir buraxmışdır. Burada doktor Fuad Yaqub və Hilmi kimi digər ciddi arkadaşlar çalışmaqdadır. Y.Z.Talıbzadə Türkiyəyə, bu ölkəni bilən, tanıyan və türklərlə ünsiyyət qura biləcək siyasi bir mütəxəssis göndərilməsinin zəruri və təcili olmasını yazır: "Sabiq Batum konsulu Mahmud bəy Əfəndiyev buradadır. Kəndisinə türklərin etimadı vardır. Mümkünsə, ona etimadnamə göndəriniz, o müvəqqəti konsul olsun".

A.Z.Talıbzadənin, 1906-cı ildən etibarən Azərbaycan-Türkiyə münasibətlərinin möhkəmləndirilməsindəki roluna dair əvvəldə məlumat vermişdik. Sonrakı illərdə, istər şəxsi qaydada, istərsə də Bakı Xeyriyyə Cəmiyyətləri vasitəsilə o, Türkiyəyə göstərilən qardaş yardımlarında fəal iştirak etmişdir.



Əlimizdə olan məktubun 3-cü maddəsi də onun qardaş yardımına nə qədər qayğılı münasibəti olduğunu üzə çıxarır. Bu həmin vaxt idi ki, Y.Z.Talıbzadənin də dəfələrlə görüşdüyü Kazım Qarabəkir Paşaya Mustafa Kamal belə yazırdı: "Əldə bir qəpik paranın olmadığını siz bilirsiniz. Hələ də içəridə pul üçün bir mənbə də tapılmır. Başqa tərəfdən belə bir mənbə tapılana qədər Azərbaycan hökumətindən bir qədər geniş ölçüdə borc almağınız haqda düşünmənizi və əldə etmənizi rica edirəm" (42, s. 109).

Y.Z.Talıbzadənin Kazım Qarabəkir Paşa ilə danışıqlarının əsas mövzularından biri də elə maddi yardım məsələsi olmuşdur. O, bu haqda yazır: "Türkiyəyə olan səmimiyyət və əhali üzərində bir təsir hüsula gətirmək üçün buraya maddi və maliyyə müavinət eyləmək lazımdır. Təbiidir ki, yetimlər üçün göndərilmiş olan beş yüz lirə Türkiyəyə bir müavinət hesab edilməz. Mümkünsə qızıl ziynət əşya və mümkün olduqca neft göndərilməsi lazımdır. Zira Türkiyənin bu müsalihədən (sülhdən, barışdan) sonra gərək ingilislər və Antantaya qarşı müharibəsində və gərək Şərqin Antantadan qurtarması üçün çalışmasında paraya ehtiyacı fövqəladə olacaqdır. Onun üçün Bakıda Təbliğat və Təşkilat Şurası komitəsinə də buradan adamlar göndərilməsi üçün Kazım paşaya söylədim. Şərqin yolunu açmaq zamanı gəlmişdir, hümmət lazımdır".

Bu hazırlıq fəaliyyətlərinin nəticəsi idi ki, Mustafa Kamal Paşa özü N.Nərimanova məktub yazmış və borc pul verməsini xahiş etmişdir. Türkiyənin Azərbaycanda ilk səfiri Mahmud Şövkət bəy 1921-ci il martın 17-də həmin məktubu Nərimanova çatdırdı. Nərimanov dərhal 500 kiloluq qızıl göndərdi. Bunun 200 kilosu büdcə üçün saxlanır, qalanı isə ayrı xərclərə sərf olunur. Professor Ş.Qurbanov "Atatürk və Nərimanov"

kitabında bu məsələyə geniş yer ayıraraq yazır ki, "Daha sonra Rusiyadan 10 milyon qızıl yenə göndərilir. Türkiyənin vəziyyəti bir qədər yüngülləşir. N.Nərimanov Mustafa Kamal Paşaya yazırdı: "Paşam, qardaş qardaşa borc verməz, əl tutar"... Bundan bir neçə gün sonra – 1921-ci il martın 23-də Azərbaycan hökuməti yenidən Türkiyəyə lazımi işlər üçün 30 sistern neft, 2 sistern benzin, 8 sistern yağ ərməğan olaraq Qarsa göndərdi" (20, s. 43).

İstər Y.Z.Talıbzadənin, istərsə də Mustafa Kamalın məktublarının yazılma tarixlərindən də göründüyü kimi bu dövrdəki bütün yazışma və müraciətlər çox mühüm hadisələr fonunda cərəyan edirdi. Məsələn, martın 16-da Moskvada bağlanmış Sovet-Türkiyə müqaviləsinə əsasən Naxçıvan ölkəsinin Azərbaycan SSR tərkibində saxlanılması qərara alınır, elə həmin günün səhəri – martın 17-də Mustafa Kamalın maddi yardımla bağlı məktubu N.Nərimanova təqdim olunur.

Sözügedən məktubun 9-cu maddəsi ilə Ş.M.Xiyabani hərəkatı arasında uzlaşma tarixi hadisələrə münasibətləri də aydınlaşdırır. Y.Z.Talıbzadənin məktubu Qarsdan yazması aydındır. Eyni zamanda əvvəldə də qeyd etmişdik ki, Dünya müharibəsinin sonlarına doğru – 1918-ci ildə Osmanlı qoşununun (Yusif Ziyanın da təmsil olunduğu) Güney Azərbaycana daxil olduğu vaxt Ş.M.Xiyabani həbs edilib Urmiyaya, sonra isə Qarsa göndərilmişdi. O vaxt Y.Z.Talıbzadə İranda "İttihad-islam" cəmiyyətinin liderlərindən biri kimi fəaliyyət göstərirdisə, bu məktubda o, İran demokratlarını dəstəkləyən bir sovetləşmə tərəfdarı təsiri bağışlayır.

Qars sürgünündən sonra Ş.M.Xiyabani 1920-ci il aprelin 7-də Təbrizdə baş vermiş silahlı üsyana rəhbərlik edən xüsusi Rəyasət Heyətinə sədr seçilmişdi. İyunun 24-də isə onun



başçılığı ilə milli hökumət təşkil edilmişdi (7, s. 86). Məhz Təbriz üsyanı ərəfəsində Y.Z.Talıbzadə yazırdı: "Türklərlə müahidə əqd olunduqdan sonra Şərq yolu açıldığı üçün İran inqilabına başlamaq və İran ilə irtibata girişmək lazımdır. Onun üçün Təbrizə İran əhval-ruhiyyəsinə vaqif və əmin olan bir yoldaş göndərməyiniz lazımdır ki, oradakı xəfi (gizli) surətdə çalışan arkadaşları himayə etsin və gizlin halda təşkilat ilə iştiğal eləsin. Burada türklər dəxi İran demokratları ilə anlaşmaq istəyirlər" (61).

Məktubda həm Türkiyə, həm də Azərbaycan, xüsusilə də Naxçıvanla bağlı çox mühüm mətləblərə toxunan Y.Z.Talıbzadə sabah (ayın 23-də) Naxçıvana hərəkət edəcəyi haqda məlumat verir. Aydın olur ki, Naxçıvan əhalisi türklərin himayəsinə ümid bəslədikləri üçün oradakı qızıl əsgərə kömək etməyirlərmiş. Ona görə də bildirir ki, "Mən buradan teleqraf çəkib həm türk əsgərlərinə və həm Naxçıvan əhalisinə Naxçıvanın Azərbaycana ilhaq edildiyini məlumat verdim. Oraya yetişincə əsgər alayına, qızıl əsgərə müavinət edəcəyəm. Yalnız belə bir mühüm zamanda mən Naxçıvana əliboş gedirəm. Bu da mənim qəbahətim deyildir.

Moskvada türklərlə olan müahidənin (bağlaşmanın) Naxçıvana aid qismini Kazım Qarabəkrdən aldım, Naxçıvanda elan edəcəyəm" (61).

Çətin vəziyyətdə olan Naxçıvanın erməni daşnaklarından mühafizəsi üçün görülən tədbirlərə də məktubda yer ayrılır. Y.Z.Talıbzadə Kazım Paşa ilə görüşündə ondan Qarsdakı mükəmməl təlim və tərbiyə görmüş "Tatarski polk"u istəyir. Kazım Paşa Azərbaycan Şura hökumətinin zəmanəti müqabilində polkun verilməsinə etiraz etmir. Y.Z.Talıbzadə M.D. Hüseynov və Ə.Qarayevə polkun Naxçıvan komissarlığına

alınması haqqında əmr verilməsini xahiş etməklə yanaşı, həm də Naxçıvan əhalisindən başqa orada Azərbaycan qüvvələrinin də olması zəruriliyini vurğulayır. O, qeyri-rəsmi olaraq yerli əhalidən təşkilat üçün qırx və ya əlli onbaşı və çavuş verilməsi barədə Paşanın razılığını aldığını və Naxçıvana yetincə əgər ehtiyac olarsa, Qarsda olan "Tatarski polk"un Naxçıvana gətiriləcəyini yazır. Lakin 600 nəfərlik bu polkun Naxçıvandakı təminat məsələsinin müşkül olduğunu da nəzərə çatdırır. Bununla belə Bakıdan yardım alıncaya qədər Naxçıvan ətrafının mühafizəsinə var qüvvəsi ilə çalışacağına əminlik yaradır. Burada Zəngəzurun düşməndən təmizlənməsi üçün təcili tədbirlər görülməsindən, həmçinin ərzaq probleminin həllinə dair məsələlərdən də bəhs edilir.

Məlumdur ki, hadisələrin sonrakı gedişatı nəticəsində, oktyabrın 13-də Qars müqaviləsi bağlanır. Azərbaycan tərəfindən B.Şahtaxtinskinin başçılığı ilə bağlanan Qars müqaviləsi əvvəldə qeyd etdiyimiz və 16 martda imzalanmış Moskva müqaviləsinin demək olar ki, eyni idi. Qars müqaviləsi bir neçə maddə əlavə edilməklə Moskva müqaviləsinin əsas müddəalarını Zaqafqaziya Sovet Respublikalarına da aid edirdi (6). Y.Z.Talıbzadə bu problemə də toxunaraq tələb edir ki, Naxçıvanın ərazi hüdudlarının Moskva müqaviləsinə görə üç hökumət tərəfindən təyin olunacağına nəzərən, ona mandat göndərilsin. Özünün bu ərazilərə yaxşı bələd olduğunu və mərkəzdən cavab və yardım gözlədiyini yazan Y.Z.Talıbzadə Naxçıvandan yazacağı ikinci məktubu gözləmədən yardım əməliyyatına başlanma zərurətini də bildirir.

Mövcud problemlərin həlli ilə bağlı Bakıdan Naxçıvana təcili bir fövqəladə komissiya göndərilməsini lazım bilən Y.Z.Talıbzadə mərkəz qarşısında belə bir kəskin tələb də



qoyur: "Fəqət rica edirəm, elə bir adam göndəriniz ki, orada intriqa düzəltməsin və mənfəətpərəst olmasın. Əgər belə olarsa, mütləqa mən Naxçıvanı tərk edib, Bakıya dönəcəyəm" (61). Həqiqətən də Naxçıvan torpaqlarına iddia ilə yanaşan, sərhədləri tez-tez pozan erməni millətçilərinə, daşnaklara qarşı sovet rəhbərliyinin liberal siyasəti ilə razılaşmayan Yusif Ziya Bakıya qayıdır, N.Nərimanovla görüşür, bu quruluşla uyğunlaşa bilmədiyini, sovetlərə qulluq etmək istəmədiyini bildirir. N.Nərimanov Sovet İttifaqı sərhədlərini tərk etmək üçün ona rəsmi sənəd verir. Yusif Ziya Azərbaycandakı fəaliyyətinə son qoyaraq, şəhidliklə başa çatan həyatına üstünlük verir. Yaxşı tanıdığı Ənvər Paşanın komandanlıq etdiyi, işğalçı Qızıl ordu ilə vuruşan, Orta Asiya xalqlarının müstəqilliyi uğrunda mübarizə aparanlara qoşulmaqla bir daha milli simasını, ictimai-siyasi mövqeyini, əqidəsini ortaya qoyur (5, s. 13).

Burada Y.Z.Talıbzadənin əqidə və xarakter bütövlüyü bir daha özünü göstərir və aydın olur ki, o, məhz siyasi-ideoloji narazılıqlar zəminində Naxçıvandan, sonda isə Azərbaycandan ayrılır. Akademik K.Talıbzadə bu haqda yazır: "Naxçıvan torpağına iddia ilə yanaşan, tez-tez sərhədləri pozan erməni millətçilərinə, daşnak hərbi hissələrinə qarşı sovet rəhbərliyinin liberal siyasəti ilə razılaşmayan Yusif Ziya Bakıya qayıdır, Nəriman Nərimanovla görüşür, Sovetlərə qulluq etmək istəmədiyini, bu quruluşla uyğunlaşa bilmədiyini söyləyir. N.Nərimanov Sovet İttifaqı sərhədlərini tərk etmək üçün ona rəsmi sənəd verir" (39, s. 45). Beləliklə də A.Y.Ziya Azərbaycandakı fəaliyyətinə son qoyaraq, şəhidliklə sonuclanan yeni mühacirət həyatına üstünlük verir.

Y.Z.Talıbzadənin Azərbaycanı tərk etmə səbəbləri içərisində ən mühümü, heç şübhəsiz, mövcud siyasi quruluşla, bol-

şeviklərin ideoloji təbliğatı arxasında gizlənmiş bəd niyyətləri, xalqımıza qarşı qərəzli münasibətləri ilə barışmazlıq idi. Onun məhz Türküstana, basmaçılar hərəkatına doğru üz tutmasının mahiyyətində isə, Balkan müharibəsində, I Cahan hərbində, Osmanlı Ordusunun Azərbaycan yürüşündə daima yan-yana olduğu ittihadçı arkadaşları və onların öndəri Ənvər Paşa ilə isti münasibətləri, onlarla əqidə, məfkurə birliyi, işğalçı bolşevik qüvvələrinə qarşı birgə mübarizə istəyi dururdu.

Vaxtilə, Balkan hərbində və I Cahan savaşında Osmanlı zabiti, Qafqaz İslam Ordusunda könüllülərdən ibarət alay komandiri, bolşevizm təbliğatının göz qamaşdırdığı ilk illərdə Naxçıvanın hərbi komissarı olmuş Y.Z.Talıbzadə Bakıdan Türküstana, yaxşı tanıdığı Ənvər Paşanın komandanlıq etdiyi, işğalçı Qızıl Ordu ilə vuruşan, Orta Asiya xalqlarının müstəqilliyi, azadlığı uğrunda mübarizə aparan basmaçılara qoşulmaqla bir daha ruhi-mənəvi, milli-dini simasını, ictimai-siyasi mövqeyini ortaya qoyur. Bolşevizm ideallarını belə hərbi komissarı olduğu xalqın milli mənafelərinə tabe etdirməyə çalışan, hansı quruluşun əsgəri olmasının fərqinə varmadan qandan, gendən, ilahidən gələn məslək və amal uğrunda çarpışan Y.Z.Talıbzadənin Türküstanda basmaçılar hərəkatının fəallarından biri kimi qırmızı rus ordusuna qarşı vuruşması onun şəxsi mübarizlik keyfiyyətlərinin təcəssümüdür. Türk-islam birliyi uğrunda, ictimai idealı, əqidəsi, məfkurəsi naminə vuruşanlar üçün qəhrəmanlıq nümunəsi, mübarizə məktəbidir.



## II Fəsil. Türküstan milli hərakatının dini və milli-mədəni amilləri

Müştərək siyasi-ideoloji amallar, dini və milli ideallara bağlılıq baxımından Y.Z.Talıbzadəni Türküstana cəlb edən ən mühüm amil, hesab edirik ki, Ənvər Paşa şəxsiyyəti və onunla illərdən bəri etibar qazanmış şəxsi münasibətləri idi. Dünyagörüşü və baxışlardakı eynilik də bu fikri söyləməyə əsas verir ki, Y.Z.Talıbzadənin o dövr fəaliyyətini Ənvər Paşanın Orta Asiyadakı mübarizəsindən ayrı dərk etmək olmaz. Deməli, Y.Z.Talıbzadənin Orta Asiyadakı mübarizəsinin və ümumilikdə onun da daxil olduğu Türküstan mücadiləsinin hansı tarixi, milli, dini və ideoloji məna kəsb etdiyini dərk etmək üçün mütləq Ənvər Paşanın uğrunda vuruşduğu ideallara və basmaçılar hərəkatının mahiyyətinə açıqlıq gətirmək lazımdır.

Öncə deyək ki, Fevral inqilabından (1917) və Romanovlar mütləqiyyətinin devrilməsindən sonra Rusiya ərazisindəki türk xalqlarının milli azadlıq hərəkatının güclənməsi Ənvər Paşada turançılıq ideyalarının reallaşmasına ümidi artırdı. O, Rusiyanın türk-müsəlman xalqlarının, o cümlədən, Azərbaycan xalqının həyatında baş verən ictimai-siyasi prosesləri yaxından izləyirdi. 1917-ci ilin sonlarında Qafqaz cəbhəsində və Cənubi Qafqazdakı hadisələr haqqında aldığı məlumatlardan sonra Ənvər Paşada Rusiyanın müsəlman xalqlarına, o cümlədən, Azərbaycan türklərinə konkret hərbi-siyasi kömək göstərmək meyli gücləndi. Ənvər Paşa ilk vaxtlar qardaşı Nuru Paşanın rəhbərliyi ilə Tehranda xüsusi bir qurum yaratmaq və həmin qurum vasitəsilə Azərbaycan, Dağıstan, Türküstan və hətta Əfqanıstanda cərəyan edən proseslərə fəal təsir göstərmək niyyətində idi (3, s. 364). Bu planı bütünlüklə reallaşdıra

bilməsə də, Qafqaz İslam Ordusunun yaradılması ilə Azərbaycan və Dağıstandakı milli azadlıq hərəkatını dəstəkləməyə müvəffəq oldu. Ənvər Paşa Qafqaz İslam Ordusu adı altında türk zabitlərinin rəhbərliyi və iştirakı ilə Azərbaycanda üç piyada diviziyadan ibarət hərbi korpus yaradılmasını planlaşdırırdı. 1918-ci ilin əvvəllərində Nağı Şeyxzamanlının başçılığı altında Azərbaycandan gəlmiş nümayəndə heyəti ilə görüşdükdən sonra Ənvər Paşa, qəti olaraq, Azərbaycan türklərinə hərbi yardım göstərmək qərarına gəldi. Həmin qərarın uğurla həyata keçirilməsinə, Azərbaycan türklərinin böyük ümid bəslədiyi hərbi yardımın vaxtında və yetərincə çatdırılmasına qətiyyətlə girişən Ənvər Paşa bu mühüm və çətin vəzifəni yerinə yetirəcək zabitlərin seçilməsinə də xüsusi diqqət yetirirdi. Qəbul olunmuş qərara əsasən, Azərbaycana göndəriləcək zabitlərin rütbəsi bir pillə artırılmalı və onlara ikiqat əmək haqqı verilməli idi.

Lakin müttəfiqlər tərəfindən məğlub edilmiş Osmanlı dövləti üçün təslim aktı olan Mudros barışığı (1918) imzalanandan sonra Ənvər Paşanın həyatına təhlükə yarandı. Belə olduqda o, 1918-ci il noyabrın 8-də hökumətin bir neçə üzvü ilə birlikdə Azərbaycana gəlmək üçün gizlicə Türkiyəni tərk etmək məcburiyyətində qaldı. Alman gəmisi ilə Krıma gələn Ənvər Paşa Şimali Qafqazda hərbi şəraitin kəskinləşməsi üzündən Azərbaycana gələ bilmədi və Moskvaya getdi. Ənvər Paşa burada "İslam İhtilal Cəmiyyətləri İttihadı"nı yaratdı. Bu cəmiyyətin nümayəndəsi kimi Azərbaycana gəldi və 1920-ci il sentyabrın 1-7-də Bakıda keçirilən Şərq xalqlarının qurultayında iştirak etdi. Qurultayda iştirak edən türk kommunistlərinin tələbi ilə onun çıxışına imkan verilmədikdə və bolşevik hökuməti ilə əməkdaşlığın onun əqidəsinə zidd olduğunu



anlayan Ənvər Paşa 1922-ci ildə yenidən Bakıya gəldi və buradan Türküstana keçdi (3, s. 366). Bu mənada, deməliyik ki, əfsanələrdə Turan uğrunda savaşlardan çox bəhs edilsə də, ancaq gerçək tarixdə ilk dəfə olaraq Turan üçün silahlı savaşa girən Ənvər Paşa olmuşdur. G.Gəncalp bu barədə yazır ki, "Ənvər Paşa öldürüldükdən sonra Türküstan direniş hərəkəti yenilgəyə uğradı. Ənvər Paşa bir Osmanlı-türk kimliyi daşısa da onun şəxsiyyəti və dünyagörüşü o zaman türk millətləri tərəfindən qəbul edilirdi. Bugünkü Azərbaycan dövləti Ənvər Paşanın hesabına var edildi. Ənvər Paşa Bakının erməni silahlılarından təmizlənib başkənd edilməsi üçün özəl tapşırıqlar vermişdi. Güney Azərbaycanda da Ənvər Paşanın xalası oğlu Xəlil Paşa olmasaydı o yurdlarda bir tək türk insanı diri qalmaya bilərdi" (12, s. 213).

1918-ci ildə türk zabitlərinin pantürkçü təbliğatla necə məşğul olduqlarını anladan F.M.Baileyə görə eyni sıralarda almanlar da Azərbaycan türklərindən topladıqları və Berlində yetişdirdikləri bir çox pantürkçü nümayəndələrlə bu fəaliyyət üçün yer alırdılar. Yusif Akçura, Əli Hüseynzadə və digər rusiyalı mühacir pantürkçülər də eyni məqsədlərlə (ehtimalla iqtidarın təklifi ilə) 1915-ci ildə Budapeştə, Vyanaya, Berlinə və Sofiyaya, 1916-cı ildə Lozanna və Sürixə getdilər (52, s. 81-82). J.M.Landau "Pantürkizm" əsərində yazır ki, Osmanlı İmperatorluğunun məğlubiyyəti və parçalanması eyni zamanda imperatorluğun son illərində müşahidə edilən əsas siyasi ideallarının da inandırıcılığını itirməsinə yol açdı. Osmanlıçılıq da öz mövcud olma zərurətini itirmişdi. Nə pantürkçülük, nə də panislamçılıq imperatorluğu qurtarmağa yetməmişdi. Pantürkçülük artıq yeni alman rəhbərliyinin maraqlarına uyğun gəlməməsi ilə yanaşı xarici marağını da itirmiş oldu (52, s. 111-112).

Atatürkün pantürkçü prinsipləri rədd etməsinin Sovetlər Birliyi ilə əlaqələrin normallaşdırılmasına yardım etməsi kimi xarici əlaqələrə də yararları görüləcəkdi. Pantürkçülükdən geri çəkilmə təsadüf deyil, bəlkə də Leninin panslavyançılığı tərk etməsilə uyğu düşmüşdü, tarazlaşmışdı (52, s. 113).

Orta Asiyada Sovet hakimiyyətinə qarşı millətçi hərəkat olan "Basmaçılıq" isə əsasən 1917-1926-cı illərdə mövcud olmuşdur. Basmaçılığın ideoloji əsasını panislamizm, pantürkizm və sovet ədəbiyyatına xas ifadə ilə desək, burjua millətçiliyi təşkil edirdi. Qızıl Ordu 1922-1926-cı illərdə Fərqanədə, Xarəzmdə, Buxarada basmaçı hərəkatının əsaslarını sarsıtdı. Lakin 1929-1930-cu illərin əvvəllərində də basmaçıların ayrı-ayrı dəstələri sərhədi keçir, Orta Asiyada kollektivləşməyə qarşı ciddi mübarizə aparırdılar. Yalnız 1933-cü ilin mayında Qaraqum səhrasında basmaçıların sonuncu böyük dəstəsi məğlubiyyətə uğradıqdan sonra bu hərəkat əsasən sona yetir. Mahiyyət etibarı ilə açıq, radikal, silahlı formada olmasa belə "basmaçılıq" milli-mədəni baxımdan uzun illər davam etdi. "Basmaçılar. Türküstan Milli Mücadilə Tarixi (1917-1934)" əsərində (49) Baymırza Hayıt bu hərəkatın obyektiv mənzərəsini şərh etməyə müvəffəq olmuşdur. Hərəkatı sistemli və monoqrafik şəkildə araşdıran müəllif bizim də tədqiqatla bilavasitə bağlılığı olan bir sıra mətləblərə aydınlıq gətirir.

Ruslar, 1918-1935-ci illər arasında (bu rəqəmlər müxtəlif səbəblərə görə bəzən müəyyən fərqliliklərlə göstərilir) işğal etdikləri Türküstanda din və vətən uğurunda işğalçı qüvvələrə qarşı savaşan və 1922-1923-cü illərdə A.Y.Talıbzadənin də bu sırada olduğu mücahidlərə "basmaçı" və bu istiqlal mübarizəsinin adına da "basmaçılıq" deyirdilər. Beləliklə də, tezliklə başa vuracaqlarına ümid etdikləri, ümumilikdə rus şovinizminə və



imperializmə qarşı yürüdülən bu milli mübarizə hərəkatını ictimai rəydə kiçiltmək, gözdən salmaq niyyəti ilə bolşeviklər, həmin milli azadlıq hərəkatını "quldur hərəkatı" kimi qələmə verirdilər.

Heç şübhəsiz, sovet dövrü tədqiqatlarında istər könüllü və ya məcburi olsun, basmaçılar hərəkatı qərəzli mövqedən araşdırılmışdır. Bu silahlı milli mübarizə sovetlər və hərəkatın bəzi xainləri tərəfindən məğlub edildi. Bununla belə basmaçı ruhu Sovet hakimiyyəti üçün qorxunc bir kabusa çevrilmiş və bu ruh çağdaş Türküstanın milli mübarizəsi üçün bir fikir, düşüncə mirası olmuşdur.

Türküstan milli mübarizə tarixi haqqında ümumi və sistemli bir əsər yazmış Baymırza Hayıt Türküstan davasının zülm və əzabını çəkmiş bir ziyalı olaraq bu hərəkatın tarixini, inanc və ideallarını bütün təfərrüatı ilə ortaya qoyur. Onun Ənvər Paşa və ətrafındakılarla, o cümlədən Y.Z.Talıbzadə ilə şəxsi münasibətlərin, hadisələrin canlı şahidi kimi elmi təhlilinə çalışdığı xatirələrinin, mövzumuza aydınlıq gətirilməsi baxımından tarixi dəyəri vardır.

Orta Asiyadakı milli hərəkat, əsasən Ənvər Paşanın 8 noyabr 1921-ci ildə Türküstana gəlib hərəkatın başına keçməsi ilə daha şiddətli şəkil almışdır. Hətta onun buradakı milli mübarizənin baş komandanı olmasından sonra ruslar çox itkilər vermiş və 19 aprel 1922-ci ildə barış istəmək zorunda qalmışlar (Ənvər Paşanın Buxaraya hansı yolla və hansı tarixdə gəlməsi ilə bağlı tədqiqatlarda fərqliliklər var. Z.V.Toğana görə göstərilən tarixdə gəlmişdir. Baymırza Hayıta görə isə "Ənvər Paşa və bərabərindəkilər Batum və Tiflis üzərindən Bakıya, oradan da gəmiylə Qızıl Suya (Krasnovodsk) keçirlər. Buradan sovet hökumətinin ayırdığı bir qatar ilə 2 oktyabr 1921-ci ildə

Buxaraya gəlirlər" (49, s. 196). O, ehtimal edir ki, 8 noyabr tarixində bir yanlışlıq var, çünki Ənvər Paşa noyabrın əvvəlində Buxaranı tərk etmişdir. Bəzi qaynaqlarda onun Bakı qurultayı üçün Batuma gəldiyi və oradan Buxaraya keçdiyi bildirilir. Lakin Ənvər Paşa Bakıya Moskva və Berlin üzərindən gəlmişdir və daha sonra Batuma keçmişdir).

Y.Z.Talıbzadənin, Ənvər Paşa çevrəsində olan bir şəxs kimi Orta Asiyaya keçməsi səbəblərini təhlil edərkən onu da qeyd edək ki, bu səfər Azərbaycandan çox, Osmanlı dövlətinin taleyi ilə bağlı olmuşdur. Bunu təkcə Y.Z.Talıbzadəyə deyil, bütün ittihadçılara xarakterik bir hal kimi dəyərləndirmək olar. Bu mənada onunla bağlı bir çox təhlilləri Ənvər Paşa ilə müqayisədə aparmaq maraqlıdır. 28 iyul 1921 tarixdə – Türk ordularının Sakarya çayına geri çəkilməsinin üçüncü günündə Xarici İşlər Xalq komissarı G.Çiçerin Moskvada Ənvəri qəbul etmişdir. Onlar Mustafa Kamalla Müttəfiq Dövlətlər arasında arzu olunmayan vəziyyət yarandığı təqdirdə Ənvər Paşanın bu müharibədə iştirakı məsələsini müzakirə etmişlər. Yaponiyalı araşdırıcı Masayuki Yamauchi bu haqda yazır: "Ənvər ən sonunda qəti qərarını vermiş, 30 iyul 1921-ci ildə Batuma getmək üzrə Moskvanı tərk etmişdir. Batuma böyük bir ehtimalla Novorossiysk və Soçi yolu ilə yetişmişdir" (53, s. 64). Həmin mənbədə verilmiş və səfər ərəfəsində Ənvər Paşanın kiçik qardaşı Kamilə yazdığı məktubdan bir parçada oxuyuruq: "Öz yurdumuzdakı durumu yaxından izləmək üçün Batumda qalmağı düşünürük. Əgər Türkiyə, özünü müdafiə etməyi bacara bilsə, yararlı olmayacaq yurda girmə planlarımızdan vaz keçə bilərik. Digər yandan əgər yurdumuz, gələn xəbərlərdən təxmin edildiyi kimi əsgəri məğlubiyyəti önləmək üçün bizim yardımımızı tələb edərsə, gərəkəni edərik" (53, s. 64).



Y.Z.Talıbzadə ilə Ənvər Paşa şəxsiyyətləri ətrafında müqayisəli bir dəyərləndirmə aparırkən, vəzifə, rütbə, hakimiyyət, təmsil etdiyi dövlətin gücü, qüdrəti və s. amillərin miqyası baxımından bu müqayisədə ölçüyəgəlməz dərəcədə fərqliliklərin də olduğunu nəzərdən qaçırmırıq. Lakin hər iki şəxsi bir-birinə bağlayan bir sıra ümumi cəhətlər (xüsusilə də idealizm və romantizm kontekstində yanaşıldıqda) o qədər çoxdur ki, bəzi hallarda Ənvər Paşa haqqında söylənilənlərin Y.Z.Talıbzadəyə nə qədər yaxın olduğunun fərqində olursan.

İslam ittihadçılığı, Türk-islam ölkələrinin Osmanlı bayrağı altında birləşdirmə arzuları, bununla bərabər qabarıq Azərbaycan təəssübkeşliyi və s. kimi ideallar bu iki şəxsin taleyindəki digər oxşarlıqları şərtləndirmişdir. Osmanlı dövlətinə, Ənvər Paşa ailəsinə rəğbəti, Balkan savaşından Türküstan mücadiləsinə qədər Ənvər Paşa komandanlığında təmsilçiliyi də ilk növbədə bu amillərdə əlaqələndirilməlidir. Y.Z.Talıbzadənin Qafqaz İslam Ordusu tərkibində könüllülərdən ibarət alay komandiri olduğu vaxtlarda Ənvər Paşanın Azərbaycan siyasətini şərh edən Şövkət Sürəyya Aydəmir yazır ki, Rusiya yıxılmış, Şərq elləri qurtarılmışdı. Əlavə olaraq, Qarsı, Ərdəhanı, Batumu da almışdı. Əmisi Xəlil Paşanı bütün Şərq Orduları Qrupu Komandanlığına gətirmişdi. Qardaşı Nuri Paşa, Padşahın böyük bir fərmanı ilə Cənubi və Şimali Qafqaza komandan təyin edilmiş və Padşahın təmsilçisi olmuşdu. Ənvər Paşa artıq həmişəkindən daha ziyadə tək söz sahibi idi. Azərbaycanla bağlı gözləntiləri də bunlar idi: "Azərbaycanda müstəqil bir hökumət qurulmalı. Amma bunun başına keçəcək olan rəis, daha doğrusu, bu idarə, keçici olmalı. Oraya təyin ediləcək hökmdar, Həlil Paşa ilə onun arasında sirr halında

qalmalı. Bu, bəlkə bir şahzadə ola bilir. Yaxud bəlkə də, Ənvər Paşa xanədanından biri. Məsələn, Nuri Paşa…" (43, s. 367).

Digər yandan, Ənvər Paşa hakimiyyətinin iflasa uğradığı vaxtlarda, o İstanbuldan ayrıldığı zaman yeni sədr-əzəm Əhməd İzzət Paşaya yazdığı bir məktubda, Qafqaza gediş amacını Azərbaycana xidmət etmək olaraq açıqlamışdı. İzzət Paşa kimi Türkiyədə qalan Mustafa Kamal Paşa, Ənvər Paşanın müstəqil bir türk dövləti quracağını, ehtimal ki, Azərbaycanda olacağını təxmin etməkdəydi (53, s. 19).

Bu arada bir məqamı qeyd edək ki, Y.Z.Talıbzadənin türk ordusunda xidməti, işğal altında olan Azərbaycanın qurtuluşu, ittihadi-islamın bərqərar olma arzuları onu ittihadçılara o qədər bağlamışdı ki, Osmanlı dövlətinin cahan hərbindəki məğlubiyyətindən sonra belə Ənvər Paşanın Azərbaycanda iqtidarı tərəfdarlarından idi. Həmin ərəfədə Ənvər Paşanın Nuri və Xəlil Paşalara məktub və teleqramları və digər arxiv materiallarından da göründüyü kimi o, uzun zaman ümidlərini Azərbaycana bağlamışdır (istinad edəcəyimiz mənbələrin böyük əksəriyyəti M.Yamauchinin (53) və Ş.S.Aydəmirin (43) tədqiqatlarında mükəmməl şəkildə təqdim edilmişdir.) Məğlubiyyətin qaçılmaz olduğunu etiraf etdiyi məqamda belə qardaşı Nuriyə "Bizim vəziyyətdə Azərbaycanın istiqlalını təmin qayət mühümdür" – deyə müraciət edir (43, s. 443). Daha sonra Azərbaycanla bağlı düşüncələrini o, Xəlil və Nuri Paşalara açıq bildirir.

Mövzumuzla əlaqəli bəzi qənaətlər üçün faydalı hesab etdiyimizdən Ənvər Paşanın bir neçə teleqramının surətini burada təqdim etməyi məqsədəuyğun sayırıq.



* * *

"Şərq Orduları Qrupu Komandanı Xəlil Paşaya,
və
İslam Ordusu Komandanı Nuri Paşaya,
Zatə məxsusdur.

Bəlkə zahirən (yəni, elə görünərək) Azərbaycandan və Şimali Qafqazdan çəkiləcəyik. Qüvvələrimizi çəkmiş görünməyə məcbur olacayıq. Və belə bir halda, Azərbaycan və Şimali Qafqazın öz qüvvələrinə istinad etməsi lazım gələcəkdir. Bundan ötrü, indidən, Qafqazda qalacaq qüvvələr, Azərbaycan və Şimali Qafqaz qüvvələri olaraq qalmaq üçün, indidən bu qüvvələri əsas sayaraq həm bunları genişlətmək, həm də yeni təşkilat yaparaq bu surətlə orada qüvvətlənməyə baxılmalıdır. Ermənilərlə qavğa etməyərək, artıq iyi keçinməyə baxılmalıdır.

Sülh müzakirəsində, onlarla bərabər istiqlalları üçün çalışmaq mühümdür. Orada çalışacaq zabitan və sairə, Azərbaycan təbəəsi olaraq qalsın. Və hökumət, çəkilmək əmri verirsə belə, orada qalmaq üzərə tərtibat alınsın.

Rus silahı və cəbbəxanəsindən olmaq üzərə Azərbaycana mümkün olduğu qədər çox silah və cəbbəxanə göndərilsin. Nurinin oradakı hüquqi, maarif və sairə təşkilatı üçün, silah altındakı bu cins məmurlardan, Şərq Ordular Qrupu, kafi miqdarda oraya göndərilməlidir".

Şifrəyə çevrildi
N 480 Ənvər

* * *

"Xəlil Paşaya
Zatidir 8.10.334 (23.10.1918)

Ümumi vəziyyətin sülhə getməmizi icab ettirdiyini yazmışdım. Bu vəziyyətdə, Azərbaycanın təşəkkülünü təmin etməyi mühüm bir vəzifə bilirəm. Əvvəla, oranın təşkilatının təchizatı üçün adam, silah, cəbbəxanə ilə həmən yardım edilsin.

Buradan oraya 700000 lirə göndərirəm. Tələt Paşa kabinəsi, yəni başladığımız hərbi iyi bitirəmədiyimiz üçün, çəkilmək üzrəyiz. Mən işsiz indilik çox sıxılıcağımdan, bəlkə Azərbaycana indilik səyahət üçün, sonra da orada bir həyat əsəri görürsəm, büsbütün qalmaq üçün hərəkəti düşünürəm. Bu xüsusda düşüncələrimiz nədir?"

* * *

13.10.334 (26.10.1918)

"Qafqaz İslam Ordusu Komandanı Nuri Paşaya,

Qayət məhrəm və zatə məxsusdur.

Burada çalışacağım mühüm bir iş olmazsa, sıxılmamaq üçün Azərbaycana gələrək həm orada, həm şimali Qafqazda çalışmaq xatirimə gəlir. Sənin hər iki məmləkətin gələcəyi və bir həyat əsəri göstərib göstərməyəcəkləri haqqında indiyə qədər hasil etdiyin qənaət nədir? Və mənim oraya gəlib-gəlməməyim haqqında nə düşünürsən? Bir iş görülə bilirmi?"

Şifrə edildi

N.501 Ənvər

* * *

Teleqramların mətnlərindən də bəlli olduğu qədər, Ənvər Paşanın ümidi İstanbuldan ayrılmaq və Azərbaycan torpaqlarına köçməkdir. Əlbəttə ki, bundan əlavə də bəzi təsəvvür və xəyalları da olmuşdur ki, ona verilən cavablar bu ümidləri sarsıtmışdır... "Şəxsinizə aid bir məcburiyyət görmədikcə, öz arzunuzla, Azərbaycan mühitində çalışmaq üzrə gəlməyinizi



münasib görmürəm. Osmanlı ordu və təbəəliyindən ayrılmaq surətiylə, burada Nurinin çalışmasını kafi gördüyümü ərz edirəm" – deyə 23 oktyabr 1918-ci il tarixində (43, s. 444-445) Ənvər Paşaya cavabında Xəlil Paşa onun Azərbaycana gəlməməsini, orada bir şey etmə imkanının olmadığını bildirir. Və bu görüşlərinin səbəbini sayır. Bu cavab, Ənvər Paşada, əlbəttə ki, dərin ümidsizlik yaradır. Əksər tədqiqatçılar (58; 49; 43; 44) kimi Masayuki Yamauçhi də bu qənaətdədir ki, Ənvər Paşa Azərbaycanda müstəqil türk dövləti qurmaq məqsədi ilə müttəfiq dövlətlərlə anlaşmaya zidd olaraq, mücadiləni idarə etmək üçün Bakını ziyarət etmək istəyində idi. Qafqazda 1918-ci il təslim öncəsindəki gücünə çatmış əsgəri birliyi mövcud idi. Bu hazırlıqlar hücumu dəf etmək üçün görülmüş tədbirlər idi. Ənvər Paşa, daha sonra Moskvada ilk milliyyətçi elçi Əli Fuad Paşaya bunu belə açıqlamışdır: "Qafqazdakı ordularımızın gücünə güvənərək, mərkəzi Bakıda olmaqla müvəqqəti bir hökumət qura bilərdim. Göstərilən təzyiqlərə və mövcud barış şərtlərinə bağlı olaraq güclərimlə ana yurdun yenidən yapılanması (quruluşu) üçün qeyrət sərf edə bilərdim" (53 s, 20).

Həqiqətdə də həmin güclər Ənvər ailəsinin idarəsi altında idi. Ənvər Paşanın əmisi Xəlil Paşa və gənc qardaşı Nuri Paşa, milli qəhrəmanlar olaraq qəbul edilən Azərbaycan və Dağıstanda şan-şöhrətlərindən yararlanmağa davam etməkdə idilər. Xəlil və Nuri, özlərini "Türküstan Cümhuriyyəti" və "Batum-Qars-Ərdanandan ibarət Cümhuriyyət"in yeni liderləri olaraq xəyal etməkdəyidilər (53, s. 20). Həmin illərdə milli qurtuluş yolunda mübarizə aparan Y.Z.Talıbzadə də həyat gerçəklərinə cavab verən fəaliyyətləri ilə yanaşı, istər Bakı və Naxçıvanda, istərsə də Güney Azərbaycan və Şərqi Anadoluda (Qars) idealist islam ittihadı, romantik Turan idealları ümidi ilə

çarpışırdı. Bütün bunlar səbəbsiz deyildi. Milli və dini mənafelərin mühafizəsi və təminatını yalnız bu ideallarda aramaq qənaəti, bir yandan təlim-tərbiyədən, təhsildən, həqiqi islam dini xadimi olmasından irəli gəlirdisə, digər yandan da qısa zaman kəsiyində Azərbaycan, Rusiya, İran və Türkiyə hüdudlarında bir neçə ictimai-siyasi quruluşun bir-birini əvəzlənməsi ilə müşahidə olunan dəyişikliklərdə haqsızlıq və ədalətsizliklərin heç vaxt əksik olmaması səbəbindən doğurdu. Məsələn, Azərbaycanın Paris sülh konfransında təmsil olunduğu ərəfədə, milli mənafelərin təminatına dair aparıcı dövlətlərin vədlərinə ümid bəsləmiş, bununla Azərbaycanın bəlalardan xilasına inanmış, az sonra isə daxili və xarici siyasətdəki riyakarlıqlar, bolşevik istilası kimi amillər nicatın yenidən ideallarda aranması zərurətini diktə etmişdir.

Hətta Azərbaycanda milli zülmün sona çatacağına, dünya gedişatının millətlər üçün yandırdığı yaşıl işığa inandığı vaxtlar da olmuşdur ki, bu fikirləri mətbuat səhifələrində də ifadə etmişdir. "Azərbaycan qəzetinin 1919-cu il 348-ci sayında dərc edilmiş "Cəmiyyəti əqvam" məqaləsində V.Vilsonun "14 maddəsinə" və Versal sülh konfransının nəticələrinə inanan Y.Z.Talıbzadə əminliklə yazırdı: "Hər kəs bu sülhün nəticəsində həqqini istər və ümum millətləri məsud görmək arzu edər. Bilxassə bu xüsusda vəzifədar olub böylə bir mühüm vəzifə və məsuliyyəti dəröhdə etməkdə olan Cəmiyyəti əqvam bunu hər kəsdən daha ziyadə düşünməyə məcburdur. Cəbr və ilhaq, istila və nifaq dövrü keçmişdir, əski dünyaya təzə ruh vermək və təzə dünyanın ehtiyacına riayət etmək üçün ruh milliləri tətmin və milliyyətlərin məsud yaşamalırını təmin etmək lazımdır" (35).



Y.Z.Talıbzadənin fəal siyasi arenaya atıldığı dövrdən etibarən, onun ideoloji görüşlərini qısaca xülasə edəndə belə bir nəticəyə gəlmək olur ki, idealları arxasınca Türküstana üz tutmasında illərdən bəri bağlı olduğu Ənvər Paşa iqtidarının qeyd-şərtsiz təsiri olmuşdur. Bəs ittihadçıların bolşeviklərlə iş birliyi cəhdində olmaları haradan qaynaqlanırdı? A.Y.Talıbzadənin Naxçıvandakı fəaliyyətinə razılıq verməsinin görünməyən tərəfləri vardımı? Digər ittihadçılar Rusiyada və Moskvada nə məqsəd güdürdülər, yaxud rus kommunist liderləri ittihadçılardan nə gözləyirdilər. "Şərq xalqlarının Bakı qurultayı"nda Ənvər Paşanın liderliyində ittihadçıların sovetlərlə işbirliyindən bəhs etmək olarmı? Bütün bu sualları, tarixi mənbələrin araşdırılmasından sonra belə cavablandırmaq mümkündür: Kommunistlərlə ittihadçılar arasında nə sosial təmayül, nə siyasi hədəflər, nə ideoloji formalar baxımından heç bir bağlantı yoxdur. İş birliyi kimi görünə bilən fəaliyyətdəki görüntülər məcburi gedişlər, çıxış yolları arama kimi səbəblərdən, müəyyən mənada da dünyada və regionda baş verən siyasi hadisələrin dəyərincə qiymətləndirilməməsindən irəli gəlirdi.

Ş.S.Aydəmir bu haqda yazır: Moskva, milliyyətçilik və milli dövlət nizamıyla mücadilə edərək bir dünya sosializmi uğrunda çalışır. "İttihad və tərəqqi" isə, monarxist bir məşrutiyyət rejimini Türkiyədə təsis üçün ortaya atılmış nasyonalist, hətta şovinist bir qrupdur" (44, s. 272).

1920-ci il sentyabrın 1-7-də keçirilmiş "Şərq xalqlarının Bakı qurultayı" kommunistlərlə ittihadçıların mövqeyini bir daha aşkar ortaya qoydu. "Qurultaya 1891 nümayəndə – Qafqaz, Orta Asiya, Əfqanıstan, Misir və digər ölkələrdən 37 millətin nümayəndəsi gəlmişdi" (8, s. 68). Bu ərəfədə, yəni Ənvər Paşa hələ Moskvada ikən, sovetlərin Şərq siyasəti üçün

önəmli bir yardımla eyni vaxtda – ehtimal ki, bir ittifaq olaraq nəzərdə tutulmuş və Bakıda toplanan Şərq Xalqları Qurultayına müsafir olaraq qatılmasına izin verilmişdi. Yapon diplomatının Ənvər Paşanın da qatıldığı Bakı Qurultayını, bir "Panislam konfransı" olaraq düşünməsi, müəyyən qədər doğrudur (53, s. 37).

Bakı qurultayında özünü Sovet siyasətinin dostu olaraq göstərməsi, əvvəlcədən düşünüldüyünün əksinə olaraq Ənvərə faydalı olmadı. Ənvər Paşa müsafir lojasında oturur və özünü Şimali Afrika, Ərəbistan və Hindistan müsəlmanlarının təmsilçisi olaraq tanıdır. Ancaq idarə heyətindəki sovet ruslar, onun Moskvadakı "İslam İttihad və İhtilal Cəmiyyəti"nin başqanı olduğunu bilirdilər. Ənvər Paşanın qurultayda olması, kommunist fikirli Türk heyətini və bəzi Azərbaycan kommunistlərini rahatsız edirdi. Bünyadzadə onun qurultaya nə məqsədlə gəldiyini anlaya bilmədiyini və Ənvərin Alman hökuməti ilə birlikdə çalışaraq Alman imperializminə yardımçı olduğunu bildirir. Ənvər Paşanın çıxış etməsinə icazə verilmir. Türk heyəti hətta protest edərək "Ənvər qurultayın önünə deyil, xalq məhkəməsi qarşısına çıxarılmalı" – deyə səslənir. III Kommunist İnternasionalının başqanı Zinovyev və Ənvər Paşanın ruslarla birlikdə çalışmasının tərəfdarı olan təşkilatın ümumi katibi Radek də onu müdafiə etmirlər. Ənvər kürsüyə gəlir və çıxış mətnini qurultay sədri Zinovyevə verir. O isə: "Ənvər bəy söz haqqı istəyir, Fəqət, savaş dəllallığı yaparaq yüz minlərcə insanın qanına girən bu imperialistə söz haqqı verməkdən imtina edirəm. Çıxışın yazısı başqası tərəfindən oxunacaqdır" – deyə qərar verir (49, s. 192). Ənvər Paşa Moskvanın Şərq xalqlarına istiqlal verməyi düşünmədiyini, sadəcə onlara görə imperialist olan Avropaya qarşı savaşda ittifaqa ehtiyacı olduğunu yaxşı bilirdi.



Nəticə etibarı ilə Bakı Qurultayı Ənvər Paşa üçün ümidsizlik dolu bir sürpriz bəxş etdi. Ona qarşı gözlənilməz münasibətlər Ənvər tilsimini və bütünü qırdı, onu sarsıtdı.

Yapon alimi M.Yamauchinin fikrincə, heç kimsə Ənvərin orijinal sosializm, mülkiyyətçilik və islam kommunizmi fikirlərinin formalaşması günlərində, Mustafa Sübhi və Sultanqaliyevin himayəsindəki Müsəlman Kommunist Qrupu tərəfindən yenidən düzənlənmiş olan Türk Kommunist Partiyasının təsirində qaldığını inkar edə bilməz (53, s. 38). Ənvərin Sultanqaliyevlə qarşılaşdığı qətidir. Camal Paşanın isə Sultanqaliyevə bağlı olan Volqa Tatarları tərəfindən Kazana dəvət edildiyi bilinməkdədir.

Türk-islam dünyasına orijinal münasibəti baxımından türk kommunistlər içərisində Sultanqaliyevin adı son illərə qədər çəkilməmişdir. Lenin, Trotski, Zinovyev, Stalin və digər kommunist liderlərinin Şərq ölkələrinin taleyinə, xüsusilə də türk əsilli müsəlmanlara münasibətlərinə tam aydınlıq gətirmək üçün Sultanqaliyev şəxsiyyətinə ciddi diqqət yetirilməsi zərurəti yaranır. "Milli təmayüllü kommunist" (13), "Kommunizm ilə islamiyyətin barışdırıcısı" (19) kimi adlandırılan Nəriman Nərimanovla "Milli kommunizm" (50) nəzəriyyəsinin digər bir nəhəng ideoloqu Sultanqaliyevin ictimai-siyasi baxışları arasında müqayisəli təhlil isə həmin dövrün siyasi mənzərəsini ortaya qoyur. Bu şəxsiyyətlərin fəaliyyətləri Rusiya türkləri, habelə Qafqaz və Orta Asiya milli hərəkatları ilə bilavasitə və ya dolayısı ilə bağlı olmuşdur. Y.Z.Talıbzadənin N.Nərimanovla dostluq münasibətləri, Ənvər Paşanın Buxarada olarkən N.Nərimanovla (49, s. 216), Z.V.Toğan vasitəsilə olmuş olsa

belə Sultanqaliyevlə (50, s. 301-302) əlaqələri, onların siyasi baxışlarındakı fərqlərə baxmayaraq, türk islam xalqlarının müqəddəratı üçün mübarizə apardığına heç bir şübhə yeri qoymayır. Bu şəxsiyyətlərin "Şərq xalqlarının Bakı qurultayı"nda bir araya gələ bilməməsinin səbəbləri də onlara qarşı qərəzli mövqelərdən xəbər verirdi.

Məsələn, Sultanqaliyevin Bakı qurultayına gəlməsinin əngəllənməsi, əleyhinə aparılan kompaniyanın ilk görüntülərindən biri idi. Lakin o zaman Sultanqaliyev, Stalinin ona qarşı əks mövqe tutduğunun hələ ki, tam mənasıyla fərqində deyildi. Türkiyəli tədqiqatçı Halit Kakınç "Sultanqaliyev və milli kommunizm" əsərində bu haqda geniş bilgi verir: "Bu güvənsizliyin sonucları Sultanqaliyev üçün çox ağır olmuşdur. Zinovyev (Bakı qurultayına sədrlik edirdi – M.Ə.) ilə birlikdə Bakıya Şərq Xalqları Qurultayına gedəcəyi yerdə, Stalin müdaxilə etmiş və Sultanqaliyev, MK Politbürosunun qərarı doğrultusunda Moskvada qalmışdır. Halbuki Şərqdə çalışmaq, bütün inqilab dönəmi boyunca, anlaşıldığı qədər Sultanqaliyevin ən məhrəm arzusu olmuşdur" (50, s. 72).

Milli mənafelərin müxtəlif siyasi mövqedən mühafizəsi uğrundakı çarpışmalar ittihadçılarla türk kommunistləri arasındakı münasibətlərdə daha qabarıq görünməkdədir. Ənvər Paşa, Mustafa Kamal və Mustafa Sübhinin Türkiyə ilə bağlı baxışlarındakı fərqliliklər bunun bariz nümunəsidir. Y.Z.Talıbzadənin də qatıldığı Türkiyə, İran, Azərbaycan və Orta Asiya mücadilələrinə Ənvər Paşa, N.Nərimanov, Sultanqaliyev, Mustafa Sübhi yanaşmalarının da bu üzdən mövzumuza aidiyyatı olduğunu hesab edirik.

H.Kakınca görə Mustafa Sübhi türk dilli coğrafiyadakı fəaliyyətlərində Sultanqaliyevi örnək olaraq qəbul etmişdir. O.



bir müddət Əfqanıstan və İran üzərindən çalışmalarını müəyyən bir nəticəyə çatdırmaq məqsədilə Türkiyəyə keçmək üçün Türküstana getmiş və Samarada Türküstan cəbhəsi siyasi şöbəsi üçün fəaliyyət göstərmişdir. 1920-ci ilin yazına qədər orada çalışmış və sonra Azərbaycanda sovet hakimiyyətinin qurulduğu xəbərini alan kimi Bakıya gəlmişdir.

Sultanqaliyev Bakı qurultayında Mustafa Sübhinin ittihadçıları ikinci plana sıxışdırmasını belə anladır: "Bakıya gəldikdən sonra, özünü tamamən türklük işinə həsr edir; fəqət digər Şərq ölkələri kommunist təşkilatları ilə əlaqələrini də kəsmirdi. Burada ittihadçıların (Türk burjua millətçi partiyası "İttihad və tərəqqi"nin öncül qrupu) rəhbərliyi və yaxından iştirakıyla qurulmuş olan qondarma Türkiyə Kommunist Partiyası ilə qarşılaşır. Yoldaş Sübhi ittihadçılara "Əllərinizi proletariat işindən geri çəkin" deyə xəbərdarlıq edir və bu saxta kommunist təşkilat ləğv edilir" (50, s. 220). Sultanqaliyev Türkiyədə fəaliyyət göstərən bütün kommunist təşkilatlarını vahid Türk Kommunist Partiyası ətrafında cəmləşdirmiş və bu partiyanın MK-nın başqanı olmuş Mustafa Sübhinin ölümündən sonra yazırdı: "Mustafa Sübhi çapında bir kadrın itirilməsi, Türkiyə Kommunist hərəkatı üçün ağır itki oldu. Sovet Rusiyasında 4 il sosialist inqilabı təcrübəsi görmüş, onun inkişaf mərhələlərini və Tatarıstandan Cənubi Qafqaza qədər uzanan şərq bölgələrindəki sonucları araşdırmış olan Mustafa Sübhinin şəxsində Türkiyə Kommunist Partiyası öz liderini və rəhbərini itirdi" (50, s. 221).

Sultanqaliyevin özünə gəlincə isə, o, idealist bir inqilabçı olaraq beynəlxalq sosial inqilabın mənafeləri baxımından bu hərəkətlərin dəstəklənməsi tərəfdarı olmuşdur. Həm də tələbi yalnız dəstəkləməklə bitməmiş, daha da irəli gedərək bu cür

inqilabçı hərəkatların istiqamətləndirilməsini istəmişdir. Bu baxımdan onun Türkiyə istiqlal hərəkatına münasibəti maraqlıdır. O, Leninin türk oktyabristləri adlandırdığı kamalistləri vaxtında nəzarətə götürmədikləri üçün sovetləri qınayır. Bu hərəkatın önəmini, mahiyyətini anladıqları zaman isə, kimin – Mustafa Kamalınmı, Ənvərinmi, yoxsa Ənvərçi solçularınmı tərəfini saxlamaq lazım gəldiyində tərəddüd olunduğunu bildirir.

Millətlər məsələsindəki xətaları rus şovinizmi ilə yetişmiş kadrların yanlış siyasətlərinə bağlayan Sultanqaliyev türk kommunistlərinin vaxtında dəstəklənməməsini səhv addım kimi qiymətləndirir. Onun fikrincə, halbuki Türkiyədə elə bir mühit yaranmışdı ki, Sovet Rusiyasının və Sovet hakimiyyətinin avtoriteti hədsiz dərəcədə yüksəkdi; hər halda Mustafa Kamal kommunist partiyasını boşuna qurmamışdı. Onun, sosialist inqilabının Orta Şərqə doğru yayılmasını əngəlləyən səbəblərlə bağlı da çox orijinal yanaşmaları olmuşdur. O, Türkiyədə Ankara hərəkatı, İranda Kiçik Xan hərəkatı, Əfqanıstanda ingilislərə qarşı inqilab, Şimali Afrika xalqlarının milli qurtuluş hərəkatlarının yaratdığı güclü bir təmələ dayanılaraq dünya burjuaziyasına qarşı mütəşəkkil bir mücadilə veriləbiləcəyinin mümkün olduğu halda, bu fürsətin qaçırıldığını düşünürdü.

İttihadçılar da Orta Şərq ölkələri ilə bağlı daima narahatlıq duymuşlar və təbii ki, bu problemə kommunistlərdən fərqli mövqedən qiymət vermişlər. Baxmayaraq ki, Y.Z.Talıbzadə "Müsavat" partiyasının ilk üzvlərindən olmuş və Azərbaycan Xalq Cumhuriyyətinin təmsilçilərindən biri kimi fəal ictimai-siyasi fəaliyyət göstərmişdir, bununla belə sonda o, özünün daha çox ittihadçılara bağlılığını bir daha təsdiq etmişdir. Şərq məsələsində də o ittihadçı mövqeyini büruzə verirdi. İstiqlaliyyətini yenicə qazanmış Əfqanıstana münasibətində də bunu görmək olur. O, "Azərbaycan" qəzetinin 1919-cu il, 350-ci sayında dərc edilmiş "Əfqanıstan" məqaləsində bu ölkənin qədim dövrlərdən başlayaraq tarixinə nəzər salır, digər qövmləri də hesaba almaqla türklərin burada mühüm və aparıcı ünsür olduğunu önə çəkir. Əfqanıstanın istiqlaliyyəti üçün yaranmış tarixi şəraiti təhlil edir və bu barədə oxuculara yığcam məlumat verir.

I Dünya müharibəsinin nəticələri ilə dünyanın siyasi mənzərəsinin dəyişməsi, milli hərəkatların beynəlxalq aləmdəki təsirləri Əfqanıstanın dövlət müstəqilliyi üçün əlverişli şərait yaratmışdı. Ölkədə milli qüvvələr möhkəmlənir, vətənpərvər çıxışlar güclənir və 1919-cu ilin fevralında Əmənulla xan Əfqanıstanın əmiri olur. Onun başçılıq etdiyi hökumət "Gənc əfqanlar"ın ideyalarını rəhbər tuturdu. 1919-cu il fevralın 28-də Əmənulla xan Əfqanıstanın müstəqilliyini elan edir. Əfqanıstan hökumətinin 3 mart 1919-cu ildə bərabərhüquqlu münasibətlər yaradılması haqqında təklifini rədd edən İngiltərə may-iyun aylarında işğalçılıq müharibəsinə başlayır və Şərqdə milli hərəkatların miqyasından qorxuya düşərək 1919-cu il 8 avqust Ravalpindi müqaviləsinə görə Əfqanıstanın müstəqilliyini tanıyır. Y.Z.Talıbzadə yuxarıda sözügedən məqaləsində Əfqanıstan tarixinin ən mühüm və həlledici məqamında türklərin və xüsusilə də, Osmanlı dövlətinin yardım və iştirakından da bəhs edir. Biz onun Türküstandakı fəaliyyətini şərh etməyə çalışırkən də görəcəyik ki, ittihadçıların Orta Asiya mübarizəsində və basmaçılar hərəkatında Əfqanıstan nə qədər maraq və hətta son güvənc yeri olmuşdur. Bu tarixi, dini-milli bağların mövcudluğudur ki, "Əfqanıstan" məqaləsində Y.ZTalıbzadə öz təəs-

sübkeşliyini büruzə verir. Müəllif yazır ki, Əfqanıstanın tarixi keçmişinə ümumi nəzər yetirilsə, bu məmləkətin coğrafi vəziyyəti etibarilə mühüm bir mövqeyə malik olduğu cəhətlə istər hindular, istər İran hökuməti və istər Türküstan xanlıqları tərəfindən hər zaman istilaya məruz qalmaqdan xali olmadığı anlaşılır.

Məqalədə obyektiv gerçəkliyə istinad edən müəllif, türklərin bu ölkənin müqəddəratındakı müsbət təsirlərlə yanaşı, işğalçılıq niyyətlərinə də toxunur. Y.Z.Talıbzadə Əfqanıstanın bir çox müxtəlif hallara məruz qalması faktını şərh edərək yazır: "Bəzən türklərdən Alp təginlər və Soltan Mahmud Qəznəvilər cəngavər əfqanlıları Əfqanıstandan xaric edərək Hindistanın içlərinə qədər soxmuş və İranın hər tərəfini işğal etmişlər. Bəzən də yenə türklərdən Xarəzmşahların, Çingizlər və Teymurların və bilaxır Nadirşah Əfşarların istilasına məruz qalaraq, istiqlaliyyətini itirmişlər" (34). Bununla bərabər, əfqanlılar fürsət tapdıqca, Şəhabələddin Guri və Əhmədxan Qəndəhari kimilər də daxil, mübarizələri sayəsində istiqlaliyyətlərini mühafizə etmişlər.

Y.Z.Talıbzadəyə görə Əfqanıstan həyatından ən çox diqqəti cəlb edən məsələ mənəvi-kültürəl təzyiq və istilaya məruz qalmadır. İstər Əfqanıstanın İranı və yaxud əksinə, İranın Əfqanıstanı istilaya məruz qoymasından asılı olmayaraq, hər iki halda mənəvi işğal və təsirə məruz qalan Əfqanıstan olmuşdur. Ona görə ki, əfqanlılar düşmən əhatəsində olduqlarında, dağlarda sığınacaq tapıb oralara pənah aparmağa məcbur olanda hər zaman səfərbərlik həyatı yaşamış və özləri üçün ədəbiyyat vücuda gətirəməmişlər. Bunun üçün də hər cür təmasda fars ədəbiyyatı onları məcburi istila etmişdir. "Hələ



əfqanlılardan Qəznəvi Sultana kimi fars ədəbiyyatına şayani şükran və təqdir olan xəlqlər dəxi yetişmişdir" (34).

Məqalədə əfqanlıların etnik tərkibindən və müxtəlif milli mənsubiyyətlərə mənsub olan əhalinin türk, fars, Hindistan irqlərinin kültürləri ilə qarşılıqlı təsir və nüfuz dairəsindən də bəhs edilir. Tam istiqlaliyyətindən öncə Hindistan tərəfi İngiltərənin, Türküstan tərəfi Rusiyanın əlinə keçməsi ilə, habelə İran tərəfdən bəzi ərazilərinin əldən çıxması müqabilində yenə də istiqlaliyyətini mühafizə etməkdə davam edirdi. Qonşu dövlətlərin bir-birinə olan rəqabəti də müstəqil Əfqanıstanın yaşamasına şərait yaradırdı. Amma bu və bir çox məhrumiyyətlər Əfqanıstanı dünya mədəniyyəti və ictimai fikrindən təcrid edirdi.

Nəhayət, yuxarıda artıq məlumat verdiyimiz kimi, əfqanlılar istiqlaliyyətləri uğrunda ölüm-dirim mücadiləsinə başlayır. Ölkə daxilində silah fabrikalarının yaradılmasına, hətta top emalına başlanır. Bu ümummilli mübarizədə, Y.Z.Talıbzadə Osmanlı dövlətinin mövqeyini açaraq yazır ki, "Təlim və tərbiyəvi əsgəriyyə üçün ən əmin vasitə osmanlı türkləri olduğu cəhtlə Osmanlı dövlətinə müraciət olundu. Bu surətlə Osmanlı məmur və zabitinin vasitəsilə səhiyyə dairələri təsis və hərbiyə işləri tənzim edildi" (34). Belə ki, Əfqanıstan hökuməti hərbi əməliyyatlarda hüdudlarını mühafizə etmək üçün otuz min nəfərlik müntəzəm əsgərə malik idi. Dünya Hərbi başa çatınca, ətrafdakı qara qüvvələr zəiflədikcə, daxildə bəzi müxalif və nifaq yaradan əllər ortadan qalxınca ümumi səfərbərlik elan edilir. Rusiya kimi mənhus bir kabus istibdadın yıxılması ilə də Türküstana doğru bir yardım və həmrəylik qapıları açılır. Hüdudlarının bərpası üçün sağına və soluna irəliləyir və sonda özünü bütün dünyaya tanıdır, hər kəs haqqın qarşısında

məcburi olaraq istiqlaliyyətini təsdiq edir. "İştə Əfqanıstanın təkrarən türkdən və türk qüvvələrindən almış olduğu güc və qüvvə vasitəsilə meydana çıxması cahan meydanında tarixin təkrarlanmasınadan ibarət olduğunu bir daha göstərməkdən başqa bir şey deyildir" (34).

Y.Z.Talıbzadənin kommunistlərlə yazışmalarından (61) da aydın olduğu kimi istər Naxçıvanda, istərsə də Qarsdakı görüşləri, Xiyabani hərəkatına münasibəti onun solçuluq təmayülü üçün kifayət qədər şübhə yeri qoyur. Necə ki, Ənvər Paşa "Mustafa Kamalın şübhəsini oyandırmamağa və kamalist davanın sadiq bir dəstəkçisi kimi görünməyə və eyni zamanda Anadoluya Sovet ordusu dəstəyində olunacağı ehtimal edilən bir səfər haqqında bolşevik aydınlarının fikrini almağa çalışmışdır. Bu qayə üçün Ənvər özünü, Mustafa Kamaldan daha etibarlı bir solçu olaraq tanıtmaqda idi" (53, s. 45).

Əslində isə ittihadçı liderlərin bolşeviklərlə işbirliyi görüntüləri siyasi gedişlərdən başqa bir şey deyildi. Türküstan fəaliyyətlərindəki mövqelərindən də göründüyü kimi onların turançılığı da islam ittihadı ilə müqayisədə çox sönük və ikinci planda idi. Ş.S.Aydəmir Ənvər Paşa haqqında belə qənaətə gəlir ki, o, heç bir zaman açıq bir turançı olmadı. İslamsıq, islam birliyi, müqəddəs cihad, dünya müsəlmanları ilə əlaqələr onun düşüncə ölçülərində daima ön plandaydı. Cənubi Qafqazda belə, yalnız Azərbaycan türkləri üçün deyil, Şimali Qafqaz müsəlmanları üçün də çalışırdı. Bütün Birinci Dünya Hərbi boyunca, Afrikada bir müsəlman cəbhəsi yaşatdı. Hətta Türküstan mücadiləsinə atıldığı zaman da, "Müsəlmanların xəlifəsinin kürəkəni" titrini möhürünə və imzasının başına qoyacaqdır. Amma o vaxta qədər ona həm müsəlmanlıq, həm də türklük üçün müraciət edilirdi. Bu hisslərlədir ki, bir az sonra bütün



ümidləri sarsıldığı zaman Türküstan yolunu seçəcəkdir (25, s. 28).

Y.Z.Talıbzadənin də yüksək ruhani təhsil və vəzifələrə sahib nəsil şəcərəsinin davamçısı olduğunu, uşaqlıq illərini ailə və ictimai çevrə baxımından belə bir mühitdə keçirməsini, Xorasanda ali dini təhsil almasını, sonrakı elmi və pedaqoji fəaliyyətini bu işə sərf etməsini, Azərbaycan və Osmanlı səlahiyyətliləri səviyyəsində dini məsələlərin ona etibar olunmasını (Sultana Quran aparılması hadisəsini yada salmaq kifayətdir), İranda "İttihadi-islam" cəmiyyətinə rəhbərlik etməsini və s. hadisələrdən ibarət həyat xronikasını nəzərdən keçirdikdə onun nəinki solçu təmayüllü olmadığı, hətta turançılıq tərəfdarı olmasından çox islamçılıq ideallarının daşıyıcısı olduğu anlaşılır. Siyasi məsələlərə münasibətdə reallıqdan çox idealist və romantik kimi çıxış etməsi də onun islam dininin perspektivlərinə ruhi və mənəvi bağlantıları ilə izah olunmalıdır. Bunu ittihadçıların Türküstan mücadiləsinə qatılma səbəblərinin qeyri-müəyyən, anlaşılmaz və bəlkə də ziddiyyətli xarakterindən də müşahidə etmək olur. Y.Z.Talıbzadə də Türküstana ittihadçı liderinin arxasınca getdiyindən, burada ilk növbədə Ənvər Paşa məqsədlərinin təhlilinə ehtiyac duyulur. Bəlkə Ənvər Paşanı hələ də orta əsrlərin sxolastik təfəkkür tərzinin hökm sürdüyü Orta Asiyaya aparan bolşevizm şüarları idi. O bolşevizm ki, son bir ildən bəri Ənvər Paşa onun bir növ müttəfiqi və ya vəkili kimi yaşayırdı.

Belə olan halda indi o, Türküstanda nə etməliydi? Bolşevizmi və sovetlərimi müdafiə edəcəkdi? Əgər edəcəkdisə kimlərə, hansı zümrələrə arxalalanacaqdı? Yox, əgər bir islamçılıq bayrağı qaldıracaqsa, bu bayraq kimlərə, hansı şüurlu və mücadiləçi kadr ilə, kimlərə qarşı və hansı silahlarla aparılacaqdı?

yanın Sultanqaliyev şəxsində konkretləşən ən açıq ifadəsi isə budur: "İlk türkçülər solçu, ilk solçular da türkçü təmayüllüdürlər" (50, s. 115).

Tədqiqatçılara görə ötən əsrin ən böyük hadisələrindən biri olan milli hərəkatlar və bu hərəkatların hər yerdə aparıcı ünsürü olan ziyalı zümrə haqqında ittihadçı öndərlərin anlayışsızlığı və ilgisizliyi, görünür ki, həqiqətən böyük bir xəta idi. O münəvvər zümrə ki, Orta Asiyada qədim Buxara və Xivə əmirlərinin adamları, mütəəssüb və mürtəcelər tərəfindən cədid (yenilikçi) tərəfdarı olaraq öldürülmüşlər. Feodal ünsürlər, qəbilə bəyləri və torpaq ağaları onları eyni ittihamla, hər ələ keçirdikləri yerdə amansızcasına məhv etmişlər.

Nadanlar mühitinin səviyyəsi o dərəcədə idi ki, Şərqi Buxarada Ənvər Paşanı əsir tutub, ona hər cür sıxıntını rəva görən mühafizəkar bəylər və mollalar təkrar-təkrar ona: "Bizim əsil düşmənimiz ruslar deyil, cədidçilərdir (mütərəqqilər, tərəqqipərvərlər). İndi bas Qurana əlini, bu cəditlərlə savaşmaq üçün" (43, s. 606) – deyə dirəşirdilər.

Ruslar tərəfindən isə bu zümrə inqilab əleyhdarları kimi aradan götürülmüşdür. Amma bir həqiqət vardır ki, hədəfi milli istiqlal olan bir hərəkatın tale öncüsü daima ziyalıdır. Ş.S.Aydəmirin qənaətinə görə "Bu zümrənin məhv edilməsi, Ənvər Paşa hərəkatının Orta Asiyadan milli bir hərəkat xarakteri almasına və geniş xalq təbəqələrinin ümidini öz ətrafında toplamasına əngəl oldu…" (44, s. 266).

Çarlığın illərdən bəri Orta Asiya, Krım və Qafqaz, İdil (Volqa) və Uraldakı müsəlman xalqlarına qarşı ən zərərli hakimiyyəti, bu xalqların tərəqqisinə mane olmaq, onların kültürəl inkişaflarını əngəlləmək olmuşdur. Onları din adına keçinən cahil bir zümrənin əlində buraxaraq dövrün mədəni



inkişafı ilə ayaqlaşmaqdan saxlamış və bu xalqlar üzərində feodal-klerikal nizamı getdikcə daha da gücləndirərək davam etdirmişdir. Məktəb açmaq, qəzet çıxarmaq, kitab nəşr etmək, mədəniyyət təşkilatları, kültürəl və elmi dərnəklər, xeyriyyə cəmiyyətləri, demək olar ki, qadağan olunacaq qədər şərtlərə tabe idi. Bu xalqlar üçün yeganə açıq təhsil müəssisələri, vur-tut yeddi illik bir tədrisata imkan verə bilən gimnaziyalar idi. Lakin bunun da bir başqa əmması vardı. Fağır xalqın uşaqlarının oralara getmələrinə klerikal zümrə, yəni imamlar, mollalar, axundlar mane olurdu. Ali ixtisas məktəbləri, universitetlərdən isə heç söz gedə bilməzdi. Bir müsəlman-türk uşağının hər hansı Rusiya Universitetinə girə bilməsi də imkansızlıq dərəcəsində şərtlərə tabe idi.

Buralarda yalnız köhnə üsullu məhəllə məktəbləri ilə, artıq əsrlər öncə daşıdığı funksiyanı itirmiş və öləzimiş mədrəsələr açıq idi. Din adamı hesab olunan hər kəs üçün isə heç bir şərt yox idi.

Bunun sayəsində idi ki, təkcə Buxarada 40.000 molla və imam istədikləri güzəranla keçinirdilər. Feodal düşüncəyə, qayda-qanuna gəlincə isə çarlıq bu nizamı qətiyyən əngəlləmirdi. Buxara, Xivə xanlıqları kimi vilayətlərdə hər şey, daha da soysuzlaşmış orta əsrlər qanunları çərçivəsində eynən davam edirdi.

Türküstan hadisələrini detallarına qədər təhlilə çalışan Ş.S.Aydəmirə görə digər səbəblər də daxil, Ənvər Paşa öndərliyindəki milli-dini mücadilənin və basmaçılar hərəkatının bağışlanılmaz və sonda məğlubiyyətə düçar edən xətası ətraflarında ziyalı zümrəsinin yoxluğu idi (43, s. 594-595). Və bu fikri, irəlidə görəcəyimiz kimi, Z.V.Toğan da dönə-dönə vurğulamaqdadır (58).

Ziyalı zümrə ilə təmaslarının olmamasına baxmayaraq türküstanlılar Ənvər Paşanı özlərinin xilaskarı kimi qarşılayırlar. Bu mübarizəsində Ənvər Paşa illərlə bələd olduğu və həmin günlərdə də onu tək buraxmadıqları qafqazlı dostlarına da çox arxayın idi. "Bu anda özümü, öz vətənimdə hiss edirəm. Başlayacağım mücadilə, müqəddəs bir mücadilədir. Görəcəksiniz ki, xalq məni yalnız buraxmayacaqdır. Əsasən Qafqazda da, yardımçı arkadaşlarımız az deyildir. Bundan zərrə qədər şübhəm yoxdur..." (43, s. 601). Ənvər Paşanın Y.Z.Talıbzadə, Əziz bəy (43, s. 648) və digərlərinin şəxsində azərbaycanlı dostları ilə güvəncli davranışlarda olmasını Z.V.Toğan, Ş.S.Aydəmir, A.R.Baycun kimi tədqiqatçılarla yanaşı, B.Hayıt da təsdiqləyir. Ənvər Paşanın qafqazlılarla bağlı münasibətini B.Hayıt da Ş.S.Aydəmirlə eyni anlamda təqdim edir: "Bu andan etibarən özümü ana Vətənimdə hiss edirəm. Başladacağım savaş qutsal bir savaşdır. Xalqın məni yalqız buraxmayacağını görəcəksiniz. Bizim Qafqazlarda da yetərincə dostlarımız var" (49, s. 199).

Ənvər Paşa Buxara səfəri ərəfəsində o qədər ziddiyyətli düşüncə və qərarlarda, sıxıntı və tərəddüdlərdə olmuşdur ki, son ana qədər hansı qərar verəcəyi özünə belə müəmmalı olmuşdur. Bu məqamla bağlı M.Yamauchi bu fikirdədir ki, Ənvər, Buxaradan əsən xəfif ruzigarla ruhunu canlandırmış ola bilərdi, amma acı taleyi onu Türk atalarının gəldiyi yerlərə doğru dartmaqda idi. Beləcə, Ənvər Paşa, kədərli ruh halı içində gəmi ilə Bakıdan Türkmənistana, oradan da Buxaraya yola çıxmışdır. O, Batumdan 28 sentyabr 1921-ci ildə ayrılarkən, Kamil Bəyə (Ənvərin kiçik qardaşıdır. O vaxt Ənvərin həyat yoldaşı Naciyə xanımla Berlində idilər – M.Ə.) Orta Asiya yolçuluğu haqqında bilgi vermiş və belə yazmışdı: "Bu gün, Camal Paşa ilə konuşmaq üzərə Hacı Sami (Ənvər Paşanı Türküstana doğru təhrik edən, ona sona qədər silahdaşlıq edən və Ənvər Paşanın ölümündən sonra hərəkata başçılıq edən şəxs – M.Ə.) ilə Çarçuy üçün ayrılıram. Anadolu orqanizasiyonu təmin edildi (Anadolu milli hərəkatının müttəfiqlər üzərindəki qələbələri nəzərdə tutulur – M.Ə.). Orada başqa bir qərar almazsaq, bir ay içində Berlinə gedəcəyik. Fəqət, bu son qərar deyildir" (53, s. 68).

Bu o vaxtlar idi ki, Ənvər Paşa artıq öz əvvəlki şan-şöhrətini itirmişdi. İstanbul, Ankara, Bakı və habelə Moskvada olsun, əvvəlki nüfuzundan çox az şeylər qalmışdı. Hətta köhnə ittihadçılardan Mühiddin bəyin "Tanin" qəzetindəki xatirələrinə istinadən Ş.S.Aydəmir yazır ki, Bakının qurtuluşu dönəmlərində Azərbaycanda dəbdə olan və Ənvər Paşa üçün bəstələnmiş bir mahnı indi dəyişdirilərək "Yaşa, çox yaşa, Mustafa Kamal Paşa..." şəklində oxunurdu (43, s. 585).

Bəs o zaman Ənvər Paşanın son qərarı nə idi? Bu suala cavab axtaran M.Yamauchiyə görə, "Bəlkə də sovetlərlə olan işbirliyinin sona yetməyə başladığını hiss etmişdir. 9 noyabr 1921-ci ildə, yenidən öz güvən qazanan Mustafa Kamal, Ənvər tərəfdarlarını yaxalamış və Nuri Paşanın Anadolunu tərk etməsinə müvəffəq olmuşdur. Bütün bunlardan sonra Ənvərin nüfuzunu kaybettiyi açıqdır" (53, s. 68).

Qeyd etmək lazımdır ki, Hacı Samidən başqa ittihadçıların böyük qismi Ənvər Paşanın Buxara ziyarətini təhlükəli saymış və bu fikri dəstəkləməmişlər. Həmçinin 15 noyabr 1921-ci il tarixində Camal Paşa, Ənvər Paşanın Buxarada qalmasının, ümumi məqsədlərinə təhlükə təşkil etdiyi və bu hərəkətin səylərini bir il yarım əngəlləyəcəyi doğrultusunda xəbərdarlıq etmişdir. O, Ənvər Paşanın Moskva yolu ilə

Berlinə gəlməsini və qurultay toplayaraq bir işbirliyi planı üzərində ayrıca bir şəkildə çalışmasını istəmişdir: "Əgər, son cəhdlərimizi boşa çıxarsaq, bizə həyata əlvida deməkdən başqa seçim qalmamaqdadır". Bunun həmən ardından Camal Paşa, Mustafa Kamal Paşanın təbirincə Ənvər Paşanı "məcnun" olaraq adlandırmışdır (53, s. 71-72).

Ənvər Paşanın gələcəyindən narahatlıq duyan əmisi, həm də ittihad liderlərindən Xəlil Paşa 5 noyabr 1921-ci il tarixində Tələt Paşaya bunları yazmışdır: "Siyasi olaraq mühafizəkar bölgə sayılan Buxara və Fərqanədəki üzün müddət qalması, Moskva və Batumdakı yoldaşlarımızı təhlükəyə soxmaqda və Kommunist İnternasionalındakı qürur və heysiyyətini zədələməkdədir. Naciyənin doğum sonrası xəstəliyi səbəbiylə Ənvər Paşanın Berlinə dönməsi tələb edilməkdədir" (53, s. 72).

Türküstan mücahidlərinin, Anadolu və Azərbaycan kimi üzaq ellərindən gələrək basmaçılar hərəkatını yönləndirən bu qəhrəmanların tərəddüdlərinə, onlarla bağlı siyasi əqidə tərəfdaşlarının, həm də ailə üzvlərinin narahatçılıqlarına səbəb olan suallara Ənvər Paşanın, sevgili xanımı Naciyə Sultana yazdığı son məktubdakı birmənalı və qətiyyətli qərarı cavab verir: "...Hər nə qədər qadınlar üzərində qılıncla cihad etmək borc olunmursa da, onlar özlərini bu ilahi borcdan qurtaramazlar. Sənin cihad etməyin isə bütün dünyəvi şeylərdən üz çevirib Allaha yönəlməyin, onu sevməyindir. Bir də mənim cihad əzmimin daha da qüvvətlənməsinə yardımçı olmağındır.

Və bir kərə daha söyləyirəm! Sakın, sən ərinə bu hərb meydanlarında sağ-salamat qurtulub gəlməsi üçün dua etməyəsən. Bu bir növ özünü düşünmək olur ki, Allah da bundan razı olmaz. Sən Allaha, öncə ərinin etdiyi xidmətləri qəbul buyurması üçün dua et ki, müzəffər bir komandan olaraq dönsün və ya şəhidlik mərtəbəsinə layiq olsun.

...Həyat qısa, ölüm isə taleyimiz. Elə isə ölümdən qorxmaq niyə, bir kimsə yatağında ölməkdənsə şəhid olaraq ölməyə niyə qeyrət etməsin? Halbuki şəhidlik mütləq ölüm deyildir. O, yeni bir həyata, həm də əbədi bir həyata qovuşmaqdır.

Bu arada mənim səndən ilk istəyim, çocuqlarımın da mənim əsgərlik məsləkimdə yetişdirilməsi və onların da vaxtı, zamanı gəlincə İslama xidmət üçün hərb meydanlarına göndərilməsidir.

İkinci bir arzum da vardır. O da Mustafa Paşa ilə əlaqədardır. Onun uğura çatması üçün mümkün olan heç bir yardımı əsirgəmə. Böyük Allah onu bu məmləkəti düşmənlərdən qurtarmaq və qorumaq üçün seçib göndərmişdir" (11).

Türküstandakı ilk vaxtlarda ittihadçılar müəyyən bir seçim və tərəddüd mövqeyində idilərsə, məktubun məzmunundan da aydın olduğu kimi, bir müddət sonra məqsədləri aydın və mücadilələri qərarlı idi.

Əgər İsa Həbibovun K.Talıbzadəyə ünvanladığı və arxiv materiallarına istinadən yazılmış – "A.Y.Talıbzadə Naxçıvanda 1921-ci ilin təxminən fevral-mart aylarından 1922-ci ilin axırlarınadək Hərbi Komissar vəzifəsində çalışmışdır" – məntiq və faktına əsaslansaq, onda deməli, Y.Z.Talıbzadə Orta Asiyaya mübarizənin fəal və qızğın vaxtında getmişdir.

Akademik K.Talıbzadənin bu tarixlərlə bağlı münasibəti də fikrimizi təsdiqləyir. O, yazır ki, Naxçıvan torpağına iddia ilə yanaşan, tez-tez sərhədləri pozan erməni millətçilərinə, daşnak hərbi hissələrinə qarşı sovet rəhbərliyinin liberal siyasəti ilə razılaşmayan Yusif Ziya 1922-ci ilin axırlarında

Bakıya qayıdır, Nəriman Nərimanovla görüşür, Sovetlərə qulluq etmək istəmədiyini, bu quruluşla uyğunlaşa bilmədiyini söyləyir. N.Nərimanov Sovet İttifaqı sərhədlərini tərk etmək üçün ona rəsmi sənəd verir. Elə bu vaxtlarda biz Yusif Ziyanın Türküstanda, Orta Asiyada basmaçılara qoşularaq qırmızı rus ordusuna qarşı vuruşlarda iştirak etdiyini görürük (37; 38). Burada bir az da dəqiqləşdirmə aparsaq, onda məlum olar ki, Y.Z.Talıbzadənin N.Nərimanovla görüşü 1922-ci ilin dekabrından tez baş vermişdir. Hərçənd ki, onun N.Nərimanovla hansı ay və gündə, hansı şəraitdə görüşməsi ilə bağlı əlimizdə dəqiq fakt yoxdur, bununla belə nəzərdən qaçırmamalıyıq ki, N.Nərimanov 1922-ci ilin dekabrında artıq SSRI-nin I Sovetlər qurultayında yaradılmış MIK-in ilk sessiyasında ZSFSR-dən SSRI MIK sədri seçilmişdi və şübhə yox ki, bu zaman Moskvada olmalı idi.

Onu da qeyd edək ki, əgər ittihadçıların (Ənvər Paşa başda olmaqla) ilk addımlarında kəşfiyyat xarakterli manevrlər müşahidə edilirdisə (M.Çokaya istinadən B.Hayıt bu barədə yazır: "Ənvər Paşanın milli mücadilə saflarına (sıralarına – M.Ə.) keçməsi Moskvada şaşqınlıq yaratmışdı. Ayrıca Ənvər Paşanın saf dəyişdirməsi Sovetlərin Şərq politikasının (İranda, Əfqanıstanda, Ərəb ölkələrində, Hindistanda və Şərqi Türküstanda) güvənirliyini zədələmişdi. Hətta Ənvər Paşaya və Moskvaya yaxınlığı ilə bilinən Camal Paşa, Ənvər Paşanın Türküstan Milli mücadilə saflarına keçməsinə qarşı çıxırdı" (49, s. 214)), artıq Y.Z.Talıbzadənin gedişində bunu söyləməyə heç bir məntiqi əsasımız ola bilməz. Çünki o Türküstana getmək qərarı verərkən hara getdiyini, hansı məqsəd uğrunda, kimlərlə və kimlərə qarşı mücadilə edəcəyini bilirdi. Camal və Xəlil Paşaların məktublarından da aydın görünlüyü kimi, əgər



Ənvər Paşa bir müddət bolşeviklərə qarşı mövqeyində müəyyən tərəddüdlərə yol vermişdisə, A.Y.Talıbzadə Naxçıvanda yüksək hərbi vəzifədə ikən sovetlərlə işbirliyindən imtina edib basmaçılar hərəkatının ən qızğın vaxtında Türküstana gedərkən bolşevizmlə mücadiləsində qətiyyətli idi. Üstəlik Y.Z.Talıbzadənin yüksək ruhani təhsilə sahib olması, islam tarixinə, türk dünyasının ictimai-siyasi və elmi-mədəni problemlərinə dair çoxsaylı əsərlər müəllifi kimi özünü təsdiq etməsi, onun Türküstan və buradakı mövcud hadisələr haqqında da mükəmməl bilgiyə malik olduğunu söyləməyə əsas verir. Hərçənd ki, Ənvər Paşa haqqında bunları söyləməkdə çətinlik çəkirik. Z.V.Toğan bu haqda yazır: "Bu zatın çox böyük bir idealist olduğunu, hətta həyatla və hadisələrlə çox hesablaşmadığını və Türküstanın coğrafiya və statistikasına dair Avropa və Rus nəşriyyatını oxumamış olduğunu o günlərdə gördüm. Şübhə yox ki, bu zat Türküstanda yapacaq işlərini ancaq burada, Buxarada bulunduğu günlərdə planlaşdırmışdı, bunda da ən çox ona Camal Paşa ilə görüşmə imkanının verilməmiş olması və konsul Jurinevin qızışdırıcı təhdidləri şübhəsiz təsir etmişdir" (58, s. 392). Amma son qərar veriləndə mücadiləsində qətiyyətli idi. O günlərin hər üzünü yaşamış Z.V.Toğan "Hatıralar"da belə təsvir edir ki, Buxaradan ayrılandan on gün sonra Ənvər Paşadan, Buxaradan qatarla göndərilən adama əzbərlətdirilən bir şifahi xəbər gəldi: "Şərqi Buxaraya keçməyə qərar verdim. Qazanırsaq qazi, qazanmazsaq şəhid olacağız". Paşanın bu hadisələrdən sağ qalıb İstanbula dönüb gələn Yavəri Mühiddin bəy isə, İstanbulda "Vakit" qəzetində xatirələrini nəşr etdi. Qəzetin 25.11.1923 tarixli sayında başlıca olaraq bunları yazmışdır: "Paşa Buxaradan ayrılırkən bu sözləri söylədi: Türküstan üçün mücadilə lazım. Zatən haqq olan

ölümdən qorxarsan, köpək kimi yaşamağı seçərsən. Həm keçmişimizin, həm də gələcəyimizin lənətlərinə layiq oluruq. Halbuki qurtuluş üçün ölməyi gözə alırsaq, bizdən sonrakıların hür və bəxtiyar olmasını təmin etmiş olarıq" (58, s. 395).

Türküstan mücadiləsi, Basmaçılar hərəkatı və Ənvər Paşa haqqında araşdırma aparan tədqiqatçılar, o cümlədən bu hadisələrin iştirakçıları olan alim və yazarlar içərisində (təəssüflənirik ki, hələlik bunlar içərisində azərbaycanlı imzasına rast gəlməmişik) Yusif Ziya şəxsiyyətini, onun elmi-dini fəaliyyətini və xüsusilə də Orta Asiyada cərəyan edən milli hərəkatdakı fədakarlığı və nəhayət şəhidliyi haqqında ən geniş və mükəmməl bilgi verən şəxs Türk Dünyasının böyük mütəfəkkirlərindən Zəki Vəlidi Toğandır. O ilk dəfə 1969-cu ildə yayımlanmış "Xatirələr (Türküstan və digər müslüman doğu türklərinin milli varlıq və kültür mücadilələri" (58) əsərində Y.Z.Talıbzadə şəxsiyyətinin o vaxta qədər (bir qisim tədqiqatçı alimlər istisna olmaqla elə bu vaxta qədər də) məlum olmayan fəaliyyətləri barədə kifayət qədər dəqiq və müfəssəl məlumat verir. Böyük bir tarixi mərhələ haqqında ensiklopedik bilgilərlə zəngin olan bu fundamental elmi, tarixi və kültürəl aspektli əsərin bir çox yerlərində Y.Z.Talıbzadə haqqında söz gedir. Lakin əsərin Y.Z.Talıbzadə ilə bağlı ən mühüm məziyyətləri ondan ibarətdir ki, kitabdakı ən dəyərli bölmələrdən birinin başlığı "Azərbaycanlı panislamist Axund Yusif" (58, s. 407-442) adlanır. Müəllif on beş yarımbaşlıqdan ibarət olan bu bölmədə Axund Yusifin ətrafındakı hadisə və şəxsiyyətlərə münasibətinə aydınlıq gətirir. "Azərbaycanlı panislamist Axund Yusif" xatirəsi, siyasi enerjisi coşub-daşan A.Y.Talıbzadənin ömrünün son ayları barədə zəngin material verir. Basmaçılarla bir sırada Yusif Ziya ilə bərabər istilaçı rus ordusuna qarşı döyüşmüş və sonralar görkəmli alim kimi məşhurlaşmış professor Zəki Vəlidi Toğan tərəfindən yazılmış xatirə bu baxımdan çox əhəmiyyətlidir. Xatirələr Orta Asiya türklərinin azadlıq mübarizəsinin tarixi faktlara əsaslanan geniş mənzərəsini yaradır (37; 243).



Dəqiq vaxtı və yeri göstərilməsə də, hadisələrin ümumi gedişatından anlaşılır ki, Z.V.Toğanla Axund Yusifin ilk görüşü Səmərqənddə olmuşdur. Çünki müəllif Axund Yusiflə bağlı bölməyə keçməmişdən əvvəl qeyd edir ki, Uxum adlı yerdə Türküstan istiqlalı üçün mücadilə etməkdə olduğumuzu bildirərək divarlara bəzi yazılar yazdıq və 9 mayda Səmərqəndə döndük.

Bundan sonra Z.V.Toğan Axund Yusiflə bağlı yazır: "Ənvər Paşadan bir kaç kişi məktubla gəldilər. Bunlar Paşanın məiyətindən Osman Çavuş ilə Azərbaycanlı din alimi və mütəfəkkir Axund Yusif Talıbzadə və Şərqi Buxara kazaklarının böyüklərindən Bürküt Eşikağabaşı idi... Üç kişilik heyətin başqanı Axund Yusif Talıbzadə idi. Ona da Ənvər Paşanın imzasını və möhürünü daşıyan bir menşurla, Səmərqənd, Buxara, Hiyva və Qazaxıstan tərəflərində üsyan hərəkatlarını tənzim eyləmək işləri verilmişdi. Axund kəndisini Ənvər Paşanın Şimal və Qərb vilayətlərində geniş səlahiyyətlərlə iş görəcək bir "fövqəladə komissarı" olaraq tanıdırdı" (58, s. 407).

Z.V.Toğanın Türküstan mücadiləsi liderlərinə hərdən subyektiv, tənqidi və istehzalı yanaşmalarının, vaxtilə bolşeviklərlə işbirliyində olmasındanmı, qısqanclıqdanmı, yoxsa ki, hərəkatın aqibətini öncədən duyduğundanmı irəli gəldiyini söyləmək çətindir. Amma onun Ənvər Paşa və Axund Yusif haqqında bəzi mülahizələrində mübahisə doğuran cəhətlərin

olması aydındır. Məsələn, Z.V.Toğan şəxsiyyətini və onun adı keçən əsərini layiqincə dəyərləndirən akademik K.Talıbzadə bu fikrə gəlir ki, bütün bunlarla yanaşı, xatirələrdə subyektiv hökm və mülahizələr də az deyildir. Bu cəhət Axund Yusifə münasibətdə də hiss olunur. Xatirələrdə, Ənvər Paşanın arxasında baş verən bəzi söhbət, bağlaşma və yazılı sənədlər barədə Axund Yusifin Paşaya xəbər verməsi, zənnimizcə, obyektiv mövqedən, düzgün qiymətləndirilməmişdir. O zaman basmaçıların sırasında döyüşlərdə fəal iştirak edən, xatirələrin müəllifi professor Zəki Vəlidi Toğan bir tərəfdən Axund Yusifi cəbhənin müxtəlif bölgələrində geniş səlahiyyətlərlə iş görəcək "fövqəladə komissar", bacarıqla hərbi xadim, "Azərbaycanın fikir həyatında mühüm yer alan mütəfəkkir və yazar" kimi tanıdır, bir tərəfdən də onun Paşa ilə sıx əlaqə yaradaraq xəbər tutduğu bütün cəbhə hadisələri barədə dərhal ona – öz Paşasına məlumat verməsini "xəbərçilik", kimi qələmə verir. Zənnimizcə, bu xəbərçilik kimi yox, əsgərin, zabitin, döyüşçünün öz ali rütbəli sərkərdəsinə sədaqəti kimi şərh olunmalıdır (37; 38).

Z.V.Toğanın Ənvər Paşaya münasibətində də, bəzi məqamlarda oxucuda çaşqınlıq yarada biləcək hallara rast gəlinir. Fikrimizə aydınlıq gəlsin deyə qeyd edək ki, Ənvər Paşa Buxaraya gəlişinin ilk vaxtlarındaca Buxara Xalq Cümhuriyyətinə mənsub bir çox hökumət üzvü, Buxaradakı Sovet Rusiyası hökumət nümayəndələri, Sovet Rusiyasının daxili işləri üzrə məsul komissarı Karaxan və gizli bir təşkilat olan "Türküstan Milli Birliyi"nin başqanı Zəki Vəlidi ilə gürüşmələrdə olur. Milliyyətçi hökumət üzvlərindən Osman Xoca, Əli Riza (müdafiə nazirinin köməkçisi), Əbdülhəmid Arif (müdafiə naziri) və digərləri Ənvər Paşanın milli mücadilənin başına keçməsini istəyirdilər. Zəki Vəlidi isə Ənvər Paşanın milli mücadiləyə girməsinə qarşı çıxırdı.

Artıq rusların Ənvər Paşaya inamlarını itirdikləri bir vaxtda Zəki Vəlidi, ona Türküstanda durmamasını və Əfqanıstana getməsini tövsiyə edir və məktubla fikrini bildirir: "Bu ana qədər Türküstan hərəkatı, basmaçı hərəkatı və qanundankənar olan siyasi təşkilat, Rusiyanın daxili problemlərinə qarşı mücadilə etmək üçün bir yol bulmuşlar. Şərtlər bizi zorlarsa, bolşevizmə zidd, sosial inqilabçı partiya kimi partiyalarla çalışma qrupu təşkil etməyə hazırıq. Beləliklə, bolşevikləri zor bir duruma soxa bilsək, bizim tələblərimizi qəbul edəcəklər. Əgər onlar milli Qızıl Ordusuna dayanan Milli Türküstan Sovet Hökumətinin qurulmasına razı olurlarsa, o zaman bolşeviklərlə işbirliyi yapa biləcəyik. Siz bu savaşa qarışsanız o zaman Türküstan hərəkatı Panislamist bir hüriyyət qazanacaqdır. Sizin üçün ən iyisi Əfqanıstana getməniz və oradan Tükrüstan hərəkatını dəstəkləmənizdir" (49, s. 198).

B.Hayıtın gəldiyi nəticəyə görə isə Zəki Vəlidi bu təklifi etməklə böyük bir xəta işləyirdi. Sovetlər və Zəki Vəlidi Ənvər Paşanın bolşeviklərlə birlikdə çalışmaya başlamadan öncə Birinci Dünya Savaşında Rusiyanın ən böyük düşməni olduğunu bilmirdilərmi? Zəki Vəlidi, Türküstan milli mücadiləsinin Ənvər Paşa kimi məşhur komutan və dünyaya açıq bir görüşü olan insana təcili ehtiyac duyduğunu bilmirdimi? Vəlidinin təklifinin bolşeviklərə olan inancının bir qalıntısını əks etdirdiyini açıqca söyləyə bilərik. Çünki Paşa, artıq qəti qərarını vermişdi. Ənvər Paşa 7 noyabr 1921-ci ildə xanımı Naciyə sultanın xatirəsinə gündəliyinə bunları yazırdı: "Dünən Buxara və Xivə mərkəzlərinə məktub yazdım. Məktubları Ulu Turan İxtilal Orduları Komandanı; Mərkəzi Rəisi olaraq imzaladım.

Qılınc qınından çıxdı. Artıq tam bir başarıqdan sonra geri dönəcəyəm. Allah bu böyük mücadiləmdə məni yalnız buraxmasın. Zavallı türklük və islam dünyası üçün dua et Naciyəm". Daha sonra isə Buxaradan ayrılma ərəfəsində – "Türküstanın müstəqilliyi üçün savaşmaq qaçılmaz bir zorunluluqdur. Kim bu insanlıqdan kənar həyata davam etmək, bu yaşantıya qatlanmaq istəyirsə və necə olsa, bizi bir gün yaxalayacaq olan ölümdən qorxursa, iştə o kişi gələcək nəsillərcə lənətlənməyi haqq etmişdir. Amma bizlər hürriyyət üçün savaşmaq və gələcək nəsilləri köləlikdən və boyunduruqdan uzaq bir həyatla təmin etmək üzrə ölümə hər an hazır olmaq istəyirik" (49, s. 199; 43, s. 468).

Bundan savayı, Zəki Vəlidi, Riskulun Moskvadan qayıtmasından sonra Ənvər Paşanın gözünü qorxutmaq istəyir. Belə ki, ona "Sovet hökuməti təqribən 100.000 əsgəri Kamenevin (Qızıl Ordu başkomandanı) və Budyonnunun (Qızıl Ordu süvari müfəttişlər şefi) komandanlığında Buxaraya göndəriləcəkdir" – deyə xəbərdarlıq edir. Ancaq Ənvər Paşa hər cür ifadələrdən qorxmadan davasına sadiq qalır. Sonradan yenə, özgürlük mücadiləçiləri Ənvər Paşanın komandanlığı altında Şərqi Buxaranı uğurlu şəkildə qurtarmalarına və Qərbi Buxaranı qurtarmaq üçün hücum hazırlıqları yapmalarına rəğmən, Zəki Vəlidi "Türküstan Birliyi Cəmiyyəti" adından Ənvər Paşaya bir məktub göndərərək, onun özgürlük mücadiləsindən vazkeçməsini və Əfqanıstana getməsini tövsiyə edir. Ənvər Paşa, Zəki Vəlidinin bu doğrultudakı ricasını oktyabr 1921-ci ildə rədd etmişdi. Buna baxmayaraq Zəki Vəlidinin yenidən Ənvər Paşanı mücadilədən vazkeçirməyə çalışmasına bir məna vermək mümkün deyil. Gərçi Ənvər Paşa, Zəki Vəlidinin



təklifini yenidən rədd edirdi, çünki onun öncədən bəri tək istəyi və güvəni Türküstanı tamamən qurtarmaqdı (49, s. 199, 205).

Deməli, Ənvər Paşa və ətrafındakılara, o cümlədən Yusif Ziyaya, bütövlükdə isə basmaçılar hərəkatına münasibətdə Zəki Vəlidinin mövqeyi birmənalı olmamışdır. O ki qaldı Ənvər Paşa ilə Yusif Ziya arasındakı səmimi və güvənli münasibətə, bununla bağlı, ümumiyyətlə, xatirələrdə bir qısqanclıq hiss olunur, bəzi məlum hadisələrin təhrifi də görünür belə münasibətlə bağlıdır. Bəzən müəllifin öz-özünü təkzib edən məntiqsizliyinə də rast gəlinir. Məsələn, o, bir tərəfdən Osman Çavuşun da daxil olduğu üç kişilik heyətin başqanının Axund Yusif Talıbzadə olduğunu təsdiqləyir, o biri tərəfdən isə onun Ənvər Paşanın səlahiyyətli nümayəndəsi olmasına şübhə ilə yanaşır: "Fəqət, Türkiyənin böyük dövlət adamı olması baxımından Ənvər Paşanın həqiqi mümməsili əslən Ərzurumlu və yaxud Trabzonlu olan iri cüssəli bir igid tipindəki Osman Çavuş idi" (58, s. 407).

Bu məqamda K.Talıbzadənin yazısında bəlkə də texniki yanlışlıqdan irəli gələn bir qüsura diqqət çəkmək istərdik. Belə ki, "Ənvər Paşanın imzasını və möhürünü daşıyan bir mənşurla" ifadəsi "Paşanın imzasının və möhürünün daşıyıcısı" (37) şəklində getmişdir. Əvvəla imzanın başqası tərəfindən daşınması ifadəsi məntiqi baxımdan düzgün deyil. İkincisi də "mənşur" (ərəbcə – yayılmış, nəşr edilmiş, birinə yüksək rütbə verilməsi haqqında şahın fərmanı) sözü, burada fərman anlamında işlədilmişdir. Deməli, ifadənin – Axund Yusifin "Paşanın imzasının və möhürünün daşıyıcısı" kimi təqdim edilməsi yanlışdır. Əslində isə buradakı məna belə başa düşülməlidir: Axund Yusifə "üzərində Ənvər Paşanın imzası və möhürü olan

bir fərmanla (qərar və ya sənədlə)" adıçəkilən vilayətlərdə üsyan hərəkatlarını tənzimləmək üçün səlahiyyət verilmişdir.

Həqiqətdə tam aydınlaşdırılması mümkün olmayan, yuxarıda sözügedən bəzi anlaşılmazlıqlara, tarixi hadisə və şəxsiyyətlərə kölgə salmayacaq dərəcədə təbii bir hal kimi baxılması lazım gəlir. Çünki həyatını eyni əqidə uğrunda mübarizəyə həsr etmiş, Türküstan mücadiləsinin qanlı-qadalı hadisələrinin iştirakçısı olmuş, çox nadir qələm sahibləri vardır ki, yaxın tariximizi öyrənmək üçün onların əsərlərindən ilkin və mötəbər mənbə kimi yararlanaq. Həmin alim və yazarlar içərisində elmi və məntiqi analiz qabiliyyətinə malik, sonrakı peşəkar fəaliyyətini də bu nəcib işə sərf etmiş şəxslərdən biri, bəlkə də birincisi Zəki Vəlidi Toğandır. Mövzumuza birbaşa və ilk olaraq aidiyyatı olduğu üçün birinci növbədə onu deyək ki, əgər Z.V.Toğanın "Xatirələr"i olmasaydı, azından bu vaxta qədər Y.Z.Talıbzadənin Türküstan mücadiləsi haqqında bu qədər bilgimiz olmazdı. Bundan sonra tədqiqatçılar arxiv sənədləri, tarixi bəlgələr vasitəsilə yeni-yeni məlumatlar üzə çıxarsalar belə, heç bir mənbədə bu qədər çoxyönlü, müfəssəl, müqayisəli təhlillərlə zəngin olan məlumatlara və ən əsası da onun silahdası olmuş bir alimin qələmindən çıxmış təsvirlərə rast gəlinməz.

Zəki Vəlidi Toğanın Ənvər Paşa və Yusif Ziya şəxsiyyətinə və onlar arasındakı münasibətlərə dair əvvəldə "qısqanclıq" adı qoyduğumuz bəzi fikirlər, bəlkə də bu qədər şişirdilməsinə lüzum olmayan gündəlik əhval və ünsiyyət münasibətlərindən və yaxud heç fərqinə varılmayan çox adi tənqidi yanaşmadan, xırda təfərrüatlarla bağlı bilgisizlikdən, üslubi, məntiqi və s. texniki xətalardan da yarana bilərdi. Çünki əslində Z.V.Toğan bu şəxsiyyətlərə sevgi və rəğbət bəsləmiş,



onlarla birlikdə eyni mahiyyət kəsb edən mücadiləyə canla-başla qatılmışdır. Təbii ki, əqidələri yolunda bu qədər inam, barışmazlıq və mübarizlik nümayiş etdirən, bir az da romantik, idealist təsir bağışlayan, real həyat hadisələrinin ümumi gedişi fonunda o qədər də inandırıcı və ümidverici görünməyən mücadilə qəhrəmanları ilə müqayisədə daha demokratik, elmi və analitik təfəkkürə sahib Z.V.Toğanın mövqeyində obyektiv və bəlkə də həmin situasiya üçün daha doğru sayıla biləcək arqumentlərə də diqqət yetirmək zərurəti vardır.

Z.V.Toğanın Türküstan hadisələrindəki başlıca mövqeyinə aydınlıq gətirən, Ənvər Paşanın yavəri olmuş Mühiddin bəy, hərəkat liderlərinin şəhadəti nəticəsində mücadilədəki səngimədən sonra İstanbulda nəşr olunan "Vakit" qəzetində (27.11.1923 tarixli) yazırdı ki, Şərqdə Türk intibahının böyük qüvvətlə ortaya çıxdığı simalardan biri Zəki Vəlididir. Türk-tatar tarixini yazan bu zatın elmi nə qədər geniş bir üfüqə dayanırsa, əməli də o nisbətdə elminə uyğun bir könül təmizliyi və səmimiyyət ərz edər. Zəki Vəlidi rus inqilabından çox ümidlənmişdi, bunun Türk aləmi üçün bir feyz və qurtuluş müqəddiməsi olacağına qane olmuş, fəqət, umduğunu bulamamışdı. Zəki Vəlidi, Ənvər Paşa ilə təmasdan və bolşevik manevrlərinə vaqif olduqdan sonra bir daha savaşmayı karıakıl buldu və elə də etdi. Biz ilk dəfə olaraq onunla bu savaşmanın ilk mərhələlərində və Xəlil Paşa ilə gəldiyimiz zaman Moskvada buluşmuşduq. İkinci dəfə də 23 günlük qalmağımız əsnasında Buxarada görüşdük. Zəki Vəlidi müxtəlif cür qiyafət altında Şərq hərəkatını yuxudan oyandırmaq üçün köşə bucaq buraxmır, bir vəli sifət və imanıyla dolaşırdı. Zəki Vəlidi burada Ənvər Paşa ilə görüşdü və fəaliyyətinin bütün səmərələrindən və vəziyyətdən Paşanı xəbərdar etdi və təkrar Türkmən

cəhətlərinə doğru uzandı getdi (58, s. 395). Mühiddin bəy Ənvər Paşanın macərasına aid hökumətə yazdığı hesabatında da Z.V.Toğandan bəhs edərək, onun Ənvər Paşaya verdiyi məsləhətlərində haqlı olduğuna inam ifadə etmişdir: "Keşkə Paşa Zəki Vəlidi bəyin dediyinə uyaraq Əfqanıstana keçmiş olsa imiş, nə gözəl işlər görə biləcəymiş, dinləmədi, Hacı Samiyə uydu". Ənvər Paşanın 11 noyabr tarixində Osman Xocaya yazdığı məktubunda basmaçılarla görüşdükdən sonra Əfqanıstana keçmək fikrində olduğunu bildirməsi, onun Zəki Vəlidinin məsləhətindən tam vaz keçmədiyini təsdiqləyir (58, s. 296).

Bir halda ki, biz Y.Z.alıbzadənin Türküstandakı fəaliyyəti haqqında heç bir ikinci mənbədə bu qədər zəngin və etibarlı bilgi əldə etmək imkanı qazanmamışıq, onda müəllifin Axund Yusiflə bağlı rəğbət doğuran, təqdir olunan və oxucularda qürur hissi yaradan münasibətlərilə yanaşı, K.Talıbzadə tərəfindən subeyktivlik və bir az da qısqanclıq kimi dəyərləndirilən təhlillərinə də "qərəzli mövqe" kimi yanaşmamağı daha elmi və obyektiv hesab edirik. Çünki Zəki Vəlidinin Ənvər Paşaya münasibətinin bəzi məqamlarını müxtəlif mövqelərdən şərh edən tədqiqatçıların yanaşmaları da, tarixi gedişatın doğurduğu nəticələrlə heç də həmişə özünü doğrultmadı, hətta bir sıra tarixçiləri Zəki Vəlidinin siyasi uzaqgörənliyi qənaətinə gətirdi.

Digər tərəfdən Z.V.Toğan kimi dünya çapında tanınmış bir alimin, Türküstan hadisələrindən yarım əsrə yaxın bir vaxt keçməsinə ("Xatirələr"in ilk dəfə 1969-cu ildə nəşr edildiyini nəzərə alsaq) baxmayaraq bu hadisələrin fəallarından və nəhayət şəhidlərindən olan Axund Yusifə əsərdə bu qədər geniş və əhəmiyyətli yer verməsi, onun şəxsiyyətini xüsusi təhlil



obyektinə çevirməsi faktının özü, bir tərəfdən Y.Z.Talıbzadənin ictimai-siyasi və elmi-kültürəl mövqeyinin, digər tərəfdən də müəllifin ona münasibətinin göstəricisidir. Burada Axund Yusifin fəaliyyətindəki ən mühüm məqamlara aydınlıq gətirilir.

Axund Yusif ilə ilk görüşlərini şərh edən Zəki Vəlidi yazır ki, Axund Talıbzadə buraları faktik olaraq idarə etməkdə olan Türküstan Milli Birliyi Cəmiyyətinin hər xüsusda ona yardım etməsi gərəkliyini bildirmişdi. Bunun üçün isə görüləsi işlər vardı. Belə ki, əvvəla, bunların şimal vilayətlərinə səyahətlərini təmin edərək yanlarına Cəmiyyətdən yardımçı təmsilçilər qoşmaq və bu səyahətdən sonra Talıbzadənin iştirakıyla Səmrqənd və Buxara tərəflərindəki basmaçıların bir toplantısını və rəsmi keçidini təşkil etmək, bunlara Ənvər Paşanın mesajını oxumaqdı. Axund Talıbzadə bu işləri çox asan hesab edirdi. Mən ona Qazaxıstan səyahətinin çox müşkül olduğunu, orada Qıpçaq qəbiləsi rəislərindən Kiyki Batır və Amancur Bahadıra Paşanın məktublarını və hədiyyələrini verə bilmək və oradan "Arqa" məntəqəsindəki qüvvətləri tapıb təşkilatlandırmaq üçün ən azı iki-üç ay sürəcək çox təhlükəli bir təşəbbüsü üzərinə alması lazım olacağını söylədim. Ehtimal ki, eyni atlarla və yanlarındakı hədiyyələrlə həyata keçirəcəklərini təsəvvür etdikləri bu səyahəti müxtəlif qiyafətlərə girərək gizli bir şəkildə etmək lazım gələcəkdi. Mən, Axunda: "Sırdəryanın şimalındakı dəmiryolu məntəqəsi büsbütün Sovet ordusu nəzarəti altındadır" – dediyimdə, mənim bu səyahətə çox da tərəfdar olmadığımı zənn etdi. Halbuki, onun bu işə girişə bilməsi üçün daha bir çox manеələr vardı. Metal və kauçuk dişləri qırılmış olduğundan, yemək yeyə bilmirdi. Bunun üçün gizlicə Səmərqənddə qalaraq Ağ Rus diş həkimlərinə dişlərini

düzəltdirməsi lazım idi. Axund orada yaxalanmaqdan qorxur, sadəcə bir diş həkimini alətləri ilə birlikdə alıb götürüb köydə düzəltdirməmizi əmr edirdi. Biz hansısa bir yolla köyə bir həkim gətirərək baxdırdıq. Fəqət, şəhərə getmədən diş körpülərini düzəltdirməyin mümkünsüzlüyünü görüncə – "Artıq Qazaxıstana dişsiz gedəcəyəm" dedi. Çünki burada da Qızıl Rus əsgərləriylə savaş nəticəsində həmişə bir yerdən digərinə daşınmaq lazım gəlirdi. Onun istədiyi rahatlıq heç olmurdu (58, s. 407-408).

Əsər müəllifi özünün hansı siyasi və elmi fəaliyyətlə məşğul olmasını sadalayır və Axund Yusifin boş vaxt tapan kimi onun işləri ilə maraqlandığını bildirir. Bu mənada o, Axund Yusifin elmi-bədii səviyyəsini xüsusilə dəyərləndirirdi: "Axund Yusif Talıbzadə Azərbaycanın fikir həyatında mühüm yer alan mütəfəkkir və yazardı. Onun türkcə əsərləri və liberal fikirləri ehtiva edən qısa Quran təfsiri vardı. Rusca lap az bilirdi. Fəqət, ərəbcə və farscası mükəmməldi. O kəlimənin tam mənasilə bir panislamist və pantürkist idi (Burada, "Xatirələr"in nəşrindən 10 il əvvəl Əbdülvahab Yurdsevərin söylədiyi – "Axund Yusifin türkçülüyündə və turançılığında isə kimsənin şübhəsi olmasa gərəkdir" (59) – ifadəsi yada düşür – M.Ə.). Bu baxımdan Ənvər Paşaya fazla bağlı, hətta onun müridi kimi idi" (58, s. 408-409).

Z.V.Toğan Axund Yusifin tənqidə qarşı çox dözümsüz olmasından bəhs edir. Biz əvvəldə də qeyd etmişdik ki, Axund Z.Vəlidinin mütaliəsi ilə maraqlanırmış. Z.Vəlidinin yaşadığı yer məşhur islam alimi İsmail Buharinin məzarının yanında imiş. Gündəlik informasiyaların bir çoxunu rus mətbuat və nəşrlərindən alan Z.Vəlidiyə irad tutaraq Axund Yusifin – "Cəlaləddin Rumi gözəl, fəqət İmam Buharinin məzarı yanında



rusca kitablarla uğraşman yerindəmidir?" – sorğusunu Z.Vəlidi: "Rusiya ilə və kommunizmlə mücadilə halında olduğumuz üçün, bunların siyasətlərini və nəzəriyyələrini istər mən, istərsə də Moskvada, Daşkənddə və Səmərqənddə oturan arkadaşlarımız tam ciddiyyətlə öyrənirik. Başqa çarəmiz yoxdur" – halında cavablandırır. Şübhə yoxdur ki, Axund Yusifin bu mövqeyi elmi deyil, siyasi mənada yozulmalıdır, çünki bir elm adamı kimi o, elmin hansı dildən mənimsənilməsi fərqində ola bilməzdi. Burada eyham yalnız rus-bolşevik siyasətinə vurulur. Axund Yusifin bolşevizmin tezliklə yıxılacağına inamı o qədər güclü idi ki, hətta onların nəşriyyatına uymağı da mənasız hesab edirdi.

Demək lazımdır ki, əsərdə Axund Yusifin şəxsiyyətinin, haqlı və ya haqsız olaraq, mənfi planda verildiyi məqamların, nə müəllifin ali məqsədinə, nə də ümumiyyətlə hərəkatın mahiyyətinə elə bir ciddi bağlantısı yoxdur. Müəllif şiə teoloqu kimi təqdim etdiyi Axund Yusifin Səmərqənd və Buxara vilayətlərində apardığı dini söhbətlərə, ora əhalisinin bu xüsusdakı ənənələrinə uyğun gəlmədiyi üçün tənqidi yanaşır. "Türklərin və digər müslüman millətlərin İslamiyyət əsasında siyasətən birləşmələrini ümdə edinən Axund Yusif Talıbzadə"ni yerli qanunlara uymayan dini təbliğata və reallığa uyğun gəlməyən idealist təmayüllərə görə məzəmmət edir. Çox məhdud çevrə daxilində olan bir söhbət əsnasında Axund Yusiflə həmsöhbətləri arasındakı kımız, mey, şərab mövzusunu qabardır.

Y.Z.Talıbzadənin hərbi-siyasi fəaliyyətinin xronologiyasına ötəri baxış belə onun nə qədər operativ və döyüşkən ruha sahib olduğunu əks etdirir. Türkiyə, İran və Azərbaycanda olduğu kimi Tüpküstanda da onu həmişə ön cəbhədə, ən gərgin

döyüş mövqeyində görürük. Bunu "Xatirələr"in bir çox yerində Z.Vəlidi də təsdiqləyir. O, hər cür gərgin situasiyada milli hərəkata, Ənvər Paşaya, bir sözlə, əqidəsinə sadiq olduğunu əməli ilə sübut edir. Onun hadisələrin gedişi zamanı vəziyyəti qiymətləndirmə, optimal mövqe seçmək məharəti adamı heyran qoyur. Məsələn, əsərin bir yerində Z.Vəlidi yazır: "Ənvər Paşanın mümәssilləri Qazaxıstana hərəkət etmədən öncə Səmərqənd vilayətindəki basmaçı liderlərini bir araya toplayıb bu mümәssillərlə konuşdurmaq istədik. Fəqət, o aralıq ruslarla yapılan bir çarpışmada bərabər bulunan Axund, bu toplantı sonradan da yapıla bilir, gec qalırsaq, ruslar bizim Qazaxıstan səyahətimizə əngəl ola bilərlər, dedi" (58, s. 410). Amma hadisələrin gedişatından məlum olur ki, Axund Yusifin başçılıq etdiyi Qazaxıstan səfəri gözlənilən nəticəni vermir və dönüşdə o, öz uğursuz cəhdini etiraf edir. Müəllif bu barədə yazır ki, Ənvər Paşanın Axund Yusif, Osman Çavuş və Bürküt Ağadan ibarət nümayəndə heyəti Qazaxıstanda aşağı Sırdəryaya qədər getmiş, fəqət hər tərəfdə rus əsgəri olduğundan, bir iş görmədən, hətta Kiyki Batır və bənzərləri Qazax Basmaçılarına Paşa tərəfindən göndərilən qılınc və fərmanları da onlara vermədən geri dönüb gəldilər. Hətta Axund Yusif Z.Vəlidiyə etiraf edərək bildirir ki, "Siz əlbəttə bu məmləkəti bizə nisbətən daha yaxşı tanıyırsınız, budur döndük, orada görüləcək bir iş yox" (58, s. 415).

Tarixi-müqayisəli təhlillər, çox vaxt Z.Vəlidinin verdiyi proqnozlarda haqlı olduğunu göstərir. Mişal üçün, Axund Yusifin yuxarıda sözügedən səfərindən dərhal sonra Lehistan cəbhəsində vəziyyət rusların xeyrinə dönür. Z.Vəlidinin özü məlumat verir ki, Ənvər Paşaya da Əfqanıstana keçməkdən başqa çarə qalmadığı təqdirdə nə edəcəyimizi, burada mövcud



Başqırd əsgərlərinin Çarşamba adlı bir kənd yanındakı savaşlarından sonra danışdıq. Əhvadi İşmurzin başda olmaqla başqırdların, Mamur və Türab bəylərin Maça tərəfinə gəlmələri, oradan Ənvər Paşaya doğru keçmələri, mənim üçün də cənubi Türkmənistanda qərargah qurmam, zərurət olarsa, İrana keçməm və hamımızın Əfqanıstanda birləşməmiz, fəqət, hər şeydən əvvəl Daşkənddə toplanacaq konqredə iştirak etməm qərarlaşdırıldı (58, s. 415).

Y.Z.Talıbzadə ilə bağlı isə belə yazır ki, Kari Kamil və Açıl bəylərlə danışaraq Axund Yusif və Osman Çavuşun, Ənvər Paşanın yanına dönmələrdən əvvəl avqustun əvvəlində Sengzarda Səmərqənd vilayəti basmaçılarını, hətta Uratəpədəki Habluta bəyi çağırıb dağ aralarındakı yaylalarda nəfəs almağı da razılaşdıq.

İyul ayının sonlarında qərarlaşdırıldığı kimi, Bağdan adlı yerdə toplaşan mücahidlər sonra Sengzar çayı sahilindəki Yaryaylaq adlı yerə gəlir və bir neçə vaxt orada qalırlar. Axund Yusiflə keçirilən günlərin xatirəsindən aydın olur ki, xüsusilə bu vaxt ərzində silahdaşlar – Z.Vəlidi ilə onun arasında çox anlaşıqlı və səmimi münasibətlər qurulmuşdur. O, milli xörəklərin hazırlanması, təbiət qoynuna səyahətdən tutmuş poeziya məclisilərinə qədər birlikdə keçirdikləri günləri xoş yaşantılar kimi yada salır: "Bu təndir kabablarını yediyimiz gün mən və Axund Yusif və Əvhədi üçümüz bir-iki özbəklə bərabər atlarımıza minərək qarşımızda yaxın görünən qarlı təpələrdən gələn suların təşkil etdiyi bir şəlaləni ziyarət etdik. Axşamüstü günəş bu şəlaləyə cürbəcür rənglər verirdi. Təbiətin bu gözəlliyi məndə şamani əcdadımızın dağlara və çaylara ibadət etmələrinin və qurban kəsmələrinin mənasının nə olduğunu anladırdı. Başımı heyranlıqla yerə qoydum. Axund Yusif: "Şayət

ibadət ediyorsan müşrik oldun" (əgər ibadət edirsənsə, tanrıya ortaq qoşdun – M.Ə.) – dedi. İslam dinində Allaha ibadətdən başqa (heç bir təbiət qüvvəsinə belə) digər sitayişlərin qəbul olunmaması mənasına gələn bu fikir, bir tərəfdən Axundun həqiqi din adamı olmasına dəlalət edir, digər tərəfdən də Z.Vəlidinin özünə qarşı münasibətləri təfərrüatı ilə verməsi bizi, onun Axund Yusifə qarşı tənqidi fikirlərində də səmimi olması qənaətinə gətirir.

Səmərqəndli şair Vaslının, daşkəndli mühərririn, Səmərqənd basmaçılarının bütün böyüklərinin, Başqırdıstan mücahidlərinin, Kaşğardan gələn Həkim Törənin və eləcə də Axund Yusifin bir araya gəldikləri həmin günlərin sazlı-sözlü bir axşamını heç unutmadağını söyləyən Z.Vəlidi bu mənzərəyə milli həmrəylik, müştərək kültür birliyi, ortaq əqidə və istiqlal ideyalarının rəmzi kimi dəyər verir: "Xalqımızın istiqlal eşqi, bu anda bir-birimizə qarşı duyduğumuz səmimi bağlantılar, əsgərlərin özlərinə güvənləri, təbiətin zənginliyi və buraların tarixlərdə oxuduğumuz şanlı keçmişi könüllərimizi doldurmuşdu" (58, s. 416).

M.Ə.Rəsulzadə "Türk kültür birliyi" adlı məqaləsində türklərin şanlı keçmişinə dair dəyərli qənaətlərini ortaya qoyaraq yazır ki, türklərin mütəşəkkil olaraq bir arada yaşadıqları Orta Asiya dövründə, şübhəsiz ki, aralarında tam bir kültür birliyi vardı. Bu müştərək kültür, bugünkü ölçülərə görə nə qədər sadə olursa olsun, hər halda yabançı təsirlərdən daha çox azadə idi. Çünki türk ünsürü, Orta Asiyada hakim bir durumda olduğundan, təmas etdiyi yabançı kültürlərin nə maddi, nə də mənəvi hər hansı bir basqısı altında qalmayırdı. Zatən o dövrdə türklüyün təmasa gəldiyi ən yüksək kültür Çin kültürü idi ki, o da öz torpaqları içərisində məhsur qaldığından, yabançı qövmlər üzərində qüvvətli bir təsir eləmə, yayılma və təmsil etmə qabiliyyətindən bir xeyli məhrum olurdu. Yalnız hürriyyət və istiqlallarını itirdikdən sonra, istər-istəməz də soydaşlarından kültür etibarı ilə getdikcə uzaq qalmışlar. Kültür birliyi üzərinə müsbət və ya mənfi ən ziyada təsir edən amillərdən biri də şübhəsiz ki, dindir. Tarixin seyriylə həm buddist və xristian, həm də islam ölkələrinə durmadan yayılmış olan türklər müxtəlif dinlərə bağlanmış olsalardı, aradakı kültür ortaqlığından çox az bir şey qalardı. Fəqət türklüyün demək olar ki, yüzdə doxsan beşinin islam dinini könül rizasıyla qəbul etmiş olmaları bu böyük təhlükəni ortadan qaldırmışdır. Nəticədə, bu gün türklüyün tək bir dili olduğu kimi tək də bir dini vardır. Rus hökmranlığı altındakı türk qövmlərinin milli mənliyini mühafizədə islam dininin də rolu çox mühüm olmuşdur. Bunun üçündür ki, istər çarlıq, istərsə də Sovet idarəsi türk kültürü ilə birlikdə İslam dinini də daima ağır zərbələrə məruz qoymuşdur. Çarlıq rejimi, öz ruslaşdırma siyasətini modern Avropa kültürünü geri qövmlər arasında yayma maskası altında tətbiq edirdi. Ən qüvvətli silahı rus məktəbi, rus mətbuatı və rus senzurası idi. Rus məktəblərinin və rus mətbuatının sərbəst çalışmalarını təmin etmək məqsədilə, türk məktəblərinin açılmasına və türk mətbuatının tutunmasına davam etməsinə təhsil təşkilatı və senzura idarəsi vasitəsilə böyük əngəl törədirdi. Milli məktəb və milli mətbuat rus hakimiyyəti altındakı türk ölkələrində yalnız 1905-ci il inqilabından sonra müəyyən qədər inkişaf etmişdi (55, s. 1-3).

"Türk kültür birliyi hər türkün ən yüksək idealı olmalıdır!" fikrində israrlı olan M.Ə.Rəsulzadə "Milli varlığı qoruma" məqaləsində də bu yoldakı əngəllərdən bəhs edərək yazır ki, çarlıq bu siyasətini milli dili təqib etmə, milli

məktəbləri dağıtma və ya şiddətli təzyiq altında saxlama, milli mətbuatı və nəşrləri qapatma, sıxışdırma və həqiqi yolundan ayırma və çevirmə, millət böyüklərini və şüurlu aydınlarını həbsxanalara atma və Sibirə sürgün etmə, hər köşədə-tində və bucaqda rus məktəbləri açma, rus dilini və mədəniyyətini yayma surətilə gerçəkləşdirməyə səy edirdi. M.Ə.Rəsulzadə türklərin ortaq dəyərlərinə ciddi zərbə vurmuş mədəni-mənəvi işğal məsələsinə toxunaraq etiraf edir ki, çarizm öz məqsədinə büsbütün müvəffəq olmamışdır deyə bilmərik. Çünki: rus mədəniyyətinin və xüsusilə, rus ədəbiyyatının təsiri böyükdür. Hakim idarə dilinin rusca olması da bu müvəffəqiyyət payını artırırdı. Nəticədə milli ailə tərbiyəsi, dolayısı ilə milli şüuru zəif olan bir sıra türk aydınları, get-gedə öz xalqından, ana dilindən və öz milli mədəniyyətindən uzaqlaşaraq rus təmsil siyasətinə hədəf olurdular. Bunlar arasında ruscanı türkcədən üstün tutanlar, rus mədəniyyətinə heyran olanlar və danışıqlarında sıx-sıx rusca təbirlər və ifadələr işlədən soysuzlaşmış aydınlar az deyildi (54, s. 1-3).

Bu mənada Z.V.Toğanın "Xatirələr"inin Axund Yusiflə bağlı bölmələri içərisində kulturoloji baxımdan daha çox diqqəti çəkən "Milli kültür məsələlərinə dair gecə söhbətləri"dir. Türk mədəniyyətinin bir sıra ciddi mövzularına toxunulan və Yaryaylaqdakı gəzintilərin üçüncü gününə təsadüf edən həmin gecə məclisi Ömər Hacı adlı zəngin bir özbəyin çadırında qurulmuşdur. Yerli əhalinin dərin hörmətini qazanmış bu şəxs qazax, qırğız, başqırd və özbək kimi yarı köçəri türklərin ənənəvi irsi zənginlərindən olmuşdur. Heyvan sürülərindən ibarət sərvəti – ehsan kimi əsirgəmədiyi kımızı, yeməyi ilə, habelə ağlı, müdrikliyi, milli sərvətə, mədəniyyətə münasibətilə xalqına yardım etməkdən xoşhal olan Ömər Hacı qışlağındakı



əmlakının çoxunu sovet hökumətinin əlindən qurtaracağı zənniylə dağlara gətiribmiş. Z.V.Toğan yazır ki, "Biz Ömər Hacının evində o axşam həmən-həmən heç uyumadıq. Gecəni Axund Yusif Talıbzadə və şair Vaslı ilə ədəbi mövzular, bilxassə Mövlananın məsnəvisi üzərində mübahisələrlə keçirdik. Bu mübahisələri, bundan bir neçə həftə sonra yoxluq aləminə qovuşacağını hələ heç ağlından keçirməyən ağ saqqallı, nur üzlü, həlim təbiətli Ömər Hacı da diz çöküb oturduğu halda dinləmiş və candan iştirak etmişdi" (58, s. 418-419).

Yusif Ziyanın fəallıq göstərdiyi həmin "ədəbi-bədii gecə"də Ömər Hacı qonaqlara babalarından qalma bir çox qədim əsərləri, xalıları, babalarının mərasim əlbəsələrini, çöx möhtəşəm və tanınmış bir xanım olduğu söylənən nənəsindən qalan qadın əlbəsələri və ziynətlərini, onun sandıqlarında olan rəsmli yazma əsərləri, bəzənmiş Quran və dini dua yazmalarını, Hafiz və Nəvai divanlarını bir-bir göstərir. Onun xalqımız üçün zaman-zaman bəlaya çevrilmiş bir problemə münasibəti düşünürük günümüz üçün də aktualdır. Belə ki, Ömər Hacı: "Milli mövcudiyyətimizi təmsil edən qiyamçılar davamlı bir hökumət qura bilmirlər. Siz gedərsiniz arxanızdan Qızıllar (bolşevik ordusu nəzərdə tutulur – M.Ə.) gələr, məni öldürürlər, fəqət, bütün bu xəzinəmizi yağma edib yox edəcəklər, bunun üçün üzülürəm" – deyərək ağlayırmış. Z.Vəlidinin məlumatından öyrənirik ki, bu kitablar arasında XVI əsrin ilk yarısında yaşayan məşhur özbək hökmdarı Ubeydullah Xanın türkcə, farsca və ərəbcə olmaq üzrə üç dildə yazdığı şeirlər məcmuəsi və oğlu üçün yazdığı "Ey övladım" adlı vəsiyyətnaməsi varmış. Dörd əsrdən bəri mühafizə olunmuş və Ubeyd Xanın zamanında – XVI əsrdə qələmə alınmış bu əsərlərin, 1920-ci ildəki Sovet ordusunun talan və taraclarının təkrar olacağı

təqdirdə itib getməsi təhlükəsi oradakıların hamısını, əlbəttə ki, xüsusilə Ömər Hacının özünü çox düşündürürmüş. Oradakı digər sənət incilərinin – qızıl və gümüşlə bəzənmiş bir kəmərin, üzərində farsca şeirlər yazılmış nadir dəri nümunəsinin rusların əlinə düşməməsi üçün çarə axtarılır. Yusif Ziya, onların ən mühümlərinin ona verilməsini, o da Ənvər Paşa vasitəsilə bəlkə Əfqanıstana aparmağın mümkün olması ehtimalıyla bir təklif verir. Lakin keçiləcək yolda rus işğalında olan məntəqənin çoxluğu bu təklifi təhlükəyə soxur. Zəki Vəlidinin "Bu xəzinəni Səmərqənddəki muzeyə götürüb verməlisiniz" təklifini Axund Yusif "Rusların zorla almaları ehtimalına qarşı, bu malı öz əlimizlə onlara götürüb vermək ağlabatandırmı?" – deyə cavablandırır. Lakin "Böyük şəhərlərdəki rəsmi kitabxana və muzeylər, rejimlərin dəyişməsinə rəğmən, mövcudiyyətlərini mühafizə edərlər. Bu muzeylər əgər bizim qayələrimiz gerçəkləşərsə, yenə bir gün millətimizin malı olacaqdır" – deyimini Açıl Bəy "millətimizin əlindəki evlərdə mövcud xəzinəni muzeyə götürüb vermək, başladığımız mücadilənin gələcəyinə inanmamaq, demək olacaqdır" – halında cavablandırdıqda, Zəki Vəlidi yenidən: "O halda bu xəzinəni Ömər Hacı öz evində tutmayıb başqa bir yerdə saxlamağa çalışsın" – təklifini irəli sürür. Sonda isə Ömər Hacı bildirdi ki, əgər xəzinəni Səmərqənd müzeyinə vermək milli hərəkata zərər verəcəksə, o halda bu hərəkatın təməli yoxdur. Xəzinəni öz evimdən uzaq məchul bir yerə göndərə bilsəm də, bu da ciddi çarə deyil, bir durumda muzeyə təhvil vermənin bəlkə də ən yaxşı çarə olacağını ümid edirəm.

Zəki Vəlidi onu da yazır ki, bu danışıqlardan bir ay sonra Sengzar çayı hövzəsini büsbütün işğal etmiş olan Qızıl Ordunun, Ömər Hacının evlərindən və ailəsindən heç bir əsər-



əlamət buraxmadığını Səmərqənddə eşitdik. Amma qiymətli əsərlərindən heç olmasa bəzilərini muzeyə təhvil verib-vermədiyini öyrənə bilmədik.

Ömər Hacının evindəki həmin ədəbi gecədə Cəlaləddin Rumi mövzusunun Axund Yusif üçün çox həssas bir nöqtə olduğunu bilən Zəki Vəlidi diqqəti bu istiqamətə yönəldir. Mövlana irsini dərk etməyin və mənimsəməyin bir sıra şərtlərə bağlı olduğunu sadalamaqla yanaşı, Axund Yusifin bu sahədə səriştəli olmasını da etiraf edən Zəki Vəlidi bir daha onun elmi-ədəbi səviyyəsini, bədii zövqünü layiqincə dəyərləndirmiş olur. Cəlaləddin Rumini bilmək deyil, hətta dərk etməyin mürəkkəbliyini diqqətə çatdİran Zəki Vəlidi Axund Yusifin dili ilə yazır ki, Mövlana çox məcazlı, sufiyanə və fəlsəfi fikirlər müəllifidir. Bunları anlamaq üçün, dini ədəbiyyata, hətta Yəhudi ənənələrinə, Peyğəmbər qissələrinə (hekayələrinə), Harut-Marut, Balam-Bağur rəvayətlərinə, ərəb ədəbiyyatına dərindən bələd olma şərt olduğundan, mənim kimi bunları bilməyən və Peyğəmbər qissələrini oxumayanlar üçün anlaşmılması asan deyildi. Bəyazid Bəsmami, Mansur Hallac və İbrahim Əthəmin vəsiyyətini, sufilərin hal tərcümələrini, Quran ayətlərini və hədisləri, ərəb və əcəm folklorunu bilmək, hələ iblis şeytanın intiraqalarından xəbərdar olmaq hökmən lazımdı. Mövlana Cəlaləddin Rumi özünün çox yaxşı bilidiyi bu hekayələrin ancaq bir parçasına yeri gəldikcə təmas edir. Zikr edilən sufilər kimlərdir, hadisənin hamısı birlikdə nədən ibarətdir, bir neçə kəliməsini nəql etdiyi ayət və yaxud hədisin baş və ya son tərəfləri nələrdir, bunlar nə münasibətlə söyləinlmişdir, onları biz bilmərik. Beləliklə, Axund Yusifin söhbətlərinə diqqət kəsildiyi bu məclisdə bir hekayənin sonuna gəlmədən, ikinci-

sinə, sonra üçüncüsünə keçilir. Bunların arasındakı bağlılıqlar da çox vaxt təsəvvüf kültürünə bağlıdır (58, s. 419).

"Xatirələr"də müəllifin Axund Yusifə olan "ittihamlarının" səbəbi, Axundun Ənvər Paşaya sadiq olması faktı ilə əsaslandırıla da bilər. Çünki Zəki Vəlidi çox yerdə Axund Yusifi təqdir edir, onu qətiyyətli və etibarlı mütəfəkkir və döyüşçü olaraq tanıdır. Məsələn, Zəki Vəlidi keçmiş Buxara hərbi naziri Əbdülhəmid Arifovdan gələn məktuba cavabı Axund Yusif vasitəsilə göndərməyi qərara aldığını bildirərək yazır: "Bunları oxuduqdan sonra mən də Axund Yusif ilə göndərilmək üzrə Əbdülhəmidə və onun vasitəsiylə Parisə Çokayoğluna məktublar yazmışdım. Gərçi Axund Yusif, özü Əfqan hüduduna ancaq Ənvər Paşa ölüb vəziyyət qarışdıqdan sonra gəlmiş isə də məktubları Kabilə göndərə bilmiş. Mən 1922-ci il 27 iyul tarixində yazılan bu məktubu 1923-cü il aralık ayında Parisə gəldikdən sonra Mustafa Çokayoğlundan alıb oxumuşdum" (58, s. 423). Digər tərəfdən də Axund Yusifin Ənvər Paşaya sədaqəti Zəki Vəlididə niyə görə güvənsizlik doğurduğu müəmmalı qalır. Əsərin bir neçə yerində belə münasibət duyulur. Yenə də Zəki Vəlidi yazır ki, Bidənə kəndində qalarkən, Rusiyanın Sovet idarəsi altında yenidən yüksəlişi qarşısında Türküstanın, türk qövmlərinin və islamların müqəddəratının nə olacağına dair təxminlərimi (mülahizələrimi) uzun-uzadıya yazmışdım. 23 iyul 1922-ci il tarixini daşıyan bu yazını mən Türkiyəyə və şəklini dəyişdirərək İran və Əfqanıstanın dövlət adamlarına göndərəcəkdim. Sonradan İrana gətirdiyim bu yazını Məşhəddəki Türkiyə konsulluğu vasitəsilə Ankaraya göndərdim. "Şərqdə ictimai inqilab və ya irticanın istiqbalı və Şərq inqilabçı aydınının vəzifələri" başlıqlı bu yazını Ənvər Paşaya göndərmək fikrində deyildim. Bu üzdən bu arada yanımda olan Axund Yusif Talıbzadəyə göstərmədim" (58, s. 425-426).

Əvvəldə də qeyd etdiyimiz kimi, Zəki Vəlidinin Axundu "şiə teoloqu", "şiə olması dolayısıylə" adlandırmasının özündə ayrı-seçkilik duyulur. Həqiqətdə də bu Axund Yusif tərəfindən hiss etdirilmişdir, yoxsa Zəki Vəlidinin şəxsi münasibətinə bağlıdır – bunlar haqqında qəti hökm verə bilmərik. Hər halda, Zəki Vəlidinin xatirələrində bu qabarıq görünür: "Axund Yusif və arkadaşları bizdən göndərilən bəzi adamlarla birlikdə Maça və Karatekin yoluyla Ənvər Paşanın yanına getdilər. Fəqət, onlar gəldiyi vaxt Paşa şəhid olmuş bulunuyordu. Axund Yusif şiə olması dolayısıyla eyni məzhəbdən olan Şuğnan taciklər arasında barınmış və Ənvər Paşanın yerinə keçən Hacı Saminin yanında qalmışdır" (58, s. 426).

Axund Yusifin Ənvər Paşanı məlumatlandırmasını xəbərçilik kimi qələmə verən müəllifin münasibətini bu məqamda həqiqətən də, K.Talıbzadənin yazdığı kimi, "qısqanclıq" da hesab etmək olar: "Axund Yusif ilə birlikdə bizə gəlmiş olan Şərqi Buxara Kazakları mümməssili Bürküt Eşikağabaşı Bəyin mənə, Axunda pək fazla inanmaq caiz olmadığını, ona hər şeyi söyləməm doğru olmayacağını, Ənvər Paşaya yanlış xəbərlər yetişdirə biləcəyini məhrəmanə söylədiyini yuxarıda zikr etmişdim. Bürküt Eşikağabaşının dediklərinin çox yerində və səmimi bir xəbərdarlıq olduğu, bir zat ilə Axund Yusifin 6-7 avqustda Şərqi Buxaraya hərəkət etmələrindən sonra anlaşıldı" (58, s. 426). Zəki Vəlidi fikrini belə şərh edir ki, Axund Yusif və arkadaşlarının getməsindən bir-iki gün sonra Ənvər Paşadan və Dostum Mustafa Şahküldən məktublar aldıq. Burada Ənvər Paşa cəbhədəki vəziyyət rusların xeyrinə dəyişdiyi halda, hərəkatın yerli rəhbərlərinə onlarla sülh müzakirələrinə hazır-

laşmağı tövsiyə edir. Eyni mövzulu bir məktubu da Ənvər Paşa bundan əvvəl – Axund Yusifin gəlişi zamanı onunla göndərmişdi. Biz də o vaxt vəziyyətin çox əleyhimizə inkişaf etdiyini görüncə Komitəni Bidənədə toplayıb bəzi qərarlar qəbul etdik. Moskva və Daşkənddə hökumətdə təmsil olunan bəzi aydınlar vastəsilə müzakirəyə girişməyə prinsip olaraq qərar verildi. Bu məclisdə Axund Yusifin özü də vardı. Həmin müzakirəyə başlanması qərarı da qəbul olunmamışdı. "Fəqət, Axund Yusif, Zəki Vəlidinin və Mərkəz Komitəsinin Ənvər Paşanı bir tərəfə buraxaraq müstəqil sülh yapmaq istədiklərini Paşaya məktubla bildirmiş. Bu bir jurnalçılıqdı. Bürküt Eşikağabaşı onun bu kimi işləri yapa biləcəyini anladığından bizi xəbərdar etmişmiş. Paşa məktubunda bu xüsusu qapalı keçmiş, fəqət, Osman Xoca və Mustafa Şahkuli, Paşaya bu anlamda bir jurnal yapılmış olduğunu görmüşdülər. Axund Yusifin bu jurnalçılığının mənfi təsir etdiyini Mustafa Şahkuli, Türkiyəyə gəldikdən sonra təfsilatı ilə anlatdı. Əcəba Paşa bu məşhur teoloqun alelade (adəti üzrə, bayağı, adi – M.Ə.) bir şakşakçı (bir kimsəni və ya onun gördüyü hər şeyi doğru hesab edərək mədh edən və başqalarına da qəbul etdirməyə çalışan adam, alqışçı, məddah – M.Ə.) olduğunu anlamırdımı? Axund Yusifin bizim məmləkətimizin görüşlərinə uymayan daha bir çox hərəkətləri oldu" (58, s. 427-428). Əslində isə bu hadisələrdəki anlaşılmazlıq, bizcə, şəxsi keyfiyyət və fərdi xarakter xüsusiyyətləri ilə deyil, ümumi əqidə, ideal, vəzifə borcu mövqeyindən dəyərləndirilməlidir. Zəki Vəlidinin "jurnalçı", "şakşakçı" adı qoyduğu bu keyfiyyətlər əslində dönməzlik, sədaqət rəmzi kimi də başa düşülə bilərdi. K.Talbızadənin tabirincə desək, "zənnimizcə, bu xəbərçilik kimi yox, əsgərin, zabitin, döyüşçünün öz ali rütbəli sərkərdəsinə sədaqəti kimi şərh olunmalıdır" (38).



İstər Ənvər Paşanın, istərsə də Axund Yusifin şəhidliyi özləri üçün şərəf hesab etdikləri mücadilələrində səmimi olduqlarını Zəki Vəlidi də etiraf etməkdədir. Ənvər Paşanın ona söylədiyi: "Tələt Paşa mərhum kimi Berlin sokaklarında bir erməni gülləsindən ölmək istəməm. Canımın türk millətinin xilası yolunda fəda olması gərəkir. Qazi olmazsaq, şəhidiz" – fikrini xatırladan Zəki Vəlidiyə görə "o, mütləq bir idealistdi və Türküstan torpağında oranın istiqlalı üçün ölmək fikrində əlbəttə ki, səmimi idi. İstədiyini əldə etmişdir və ismi Türküstan tarixində əbədiyyətə qarışmışdır" (58, s. 456). Zəki Vəlidinin qənaətincə, hətta Türküstan hadisələrinə münasibətinə görə xəyalpərəst, macəraçı, idealist adlandırılan Camal Paşa ilə müqayisədə Ənvər Paşa xalis bir idealistdi. "Onun Buxarada ikən mənə: "Müvəffəq olmazsaq, heç olmazsa cəsədimi burada buraxmaqla Türklüyün istiqbalına xidmət etmiş olaram" – deməsi onun səmimi sözü idi" (58, s. 457).

Zəki Vəlidi Ənvər Paşanın Əfqanıstana keçmə təkliflərini qəbul etməməsinə və Axund Yusifin ona bu qədər sadiq olmasına müəmmalı münasibət bəsləsə də, bütün bunların bir əqidə məsələsi olduğuna da şübhəsi yox idi. O, Ənvər Paşanı nəzərdə tutaraq yazırdı ki, Paşa nə etmək istədiyini bilirdi. Əfqanıstana keçməyi sadəcə "macəra" sayır, qətiyyən o yola girmək fikrində olmadığını söyləyirdi. Ən çətin anlarda, Əfqanıstanın o vaxtkı rəhbəri Əmanullah Xan kömək üçün mühafizə dəstəsi göndərmiş və bir neçə dəfə Ənvər Paşanı israrla öz ölkəsinə dəvət etmişdi. Hətta "Sənə millətimizin qucağı, dövlətimizin qapısı açıq" – deyə müraciət edirdi. Cavabında, Ənvər Paşa əfqanlıların oradakı komandiri Əfdal xanı çağırır, "Sizin burada vəzifəniz bitmişdir, məmləkətinizə dönünüz" və həmən Əmanulla xana bir məktub yazaraq "Mən

mütləq burada qalacağam. Ölürsəm irqdaşlarımın məmləkətində üstümü örtəcək torpaq tapılar. Buradan ayrılmaq böyük xəta olur. Əsgərlərinizə də izin verdim" deyir" (58, s. 457).

Türküstan mücadiləsinin, Ənvər Paşa başda olmaqla, uzaq türk ellərindən gəlmiş qəhrəmanlarını yerli əhalinin milli və dini heysiyyəti olan bütün təbəqələri müdafiə edirdilər. Bu hərəkatın digər bir nümayəndəsi Abdullah Rəcəb Baysun məlumat verir ki, 1920-ci ildə Bakıda toplanan Şərq Millətləri Konqresinə qatılan Ənvər Paşa 1921-ci ilin sentyabrında Hacı Sami (Kuşcuzadə Səlim Sami) ilə ehtiyat zabiti Bartınlı Mühiddin bəylərlə bərabər Batumdan Tiflis, Bakı, Kerasnabad, Aşqabad, Mərv, Bayramlı, Çarçoy yoluyla Buxaraya gəlir və içdən gələn bir sevinclə qarşılanır. Rusların siyasi həssaslığına rəğmən Buxaranın milliyyətçi gəncləri və xalq nəhayətsiz sevinc içində... Bolşeviklərin ÇEKA (fövqəladə məhkəmə) qüvvələrindən belə çəkinməyərək – Yaşasın Turan! Yaşasın Dini Məhəmmədiyyə! Yaşasın Ənvər Paşa! – səslərini böyük həyəcanla göylərə çıxarırdılar. İstiqlal eşqi ilə yanan Türküstan türklərinin göstərmiş olduğu bu həyəcan Ənvər Paşanı mütəəssir etdiyi qədər Rusları da həyəcanlandırmağa başladı. Buxarada iyirmi üç günə qədər qalan Ənvər Paşanı xalq böyük bir sevgi və sayğı ilə axan bir sel kimi ziyarətə gəldi (48, s. 61-62).

Heç şübhəsiz, Türküstan qəhrəmanlarına xalq sevgisi ilə yanaşı, istər milli, istərsə də rus təmayüllü qüvvələr içərisində şübhə, nifrət, qısqanclıq bəsləyənlər də olmuşdur. Misal üçün, Buxaradakı aktiv kommunist liderlərindən olan Alimcan Akçurin 1922-ci ilin martında Ənvər Paşaya bir məktub yazaraq, xüsusilə bunları vurğulayır: "Siz türksünüz və ölkəniz duşman işğalı altında. Əsgəri gücünüzü orada sərf etsəniz, sizin



üçün daha yaxşı olur". Hadisələrin canlı şahidi Baymırza Hayıtın əsərlərindən öyrəndiyimizə görə Ənvər Paşa Alimcan Akçurinə belə cavab yazır: "Türkiyəni qurtara biləcək qüdrəti olan bir çox arkadaşım var. Bundan narahat olmayın. Orada arkadaşlarımız bütün gücləri ilə mücadilə edirlər. Bu ölkə də mənim ana vətənimin bir parçasıdır. Buradakı həmşəhrilərimin damarlarında dolaşan qan ilə mənim qanım eyni qandır. Bu ölkə rusların deyil, sadəcə türklərindir. Nasıl buradan insanlar Türkiyəni qurtarmaq üçün getmişlərsə, mən də burada düşmənlərə qarşı savaşmaq üçün bulunmaqdayam. Türklər harada olurlarsa olsunlar hürr və müstəqil olmalıdırlar" (49, s. 204).

Amma bunu da söyləmək lazımdır ki, daxili kommunist qüvvələrinin təzyiqləri ilə yanaşı, Türküstan hərəkatına münasibətləri birmənalı olmayan xarici kommunist gücləri də olmuşdur. Bu münasibətdə dini və milli təəssübkeşlik nə qədər dolayısı ilə, məqsədə çatma yollarının fərqlilikləri ilə, gizlin olsa da, hər halda olmuşdur. Kommunist liderlər içərisində bu hərəkata qayğılı münasibətin ən yaxşı nümunəsini Nəriman Nərimanov və Mirseyid Sultanqaliyevin timsalında sezmək mümkündür. Kommunist olmalarına baxmayaraq onlar sovetlərin türk-müsəlman respublikalarındakı siyasətlərini doğru saymırdılar. Sultanqaliyevə görə islam, təməli və tarixiylə o biri dinlərdən fərqlidir və onunla ideoloji bir amacla savaşa bilmək üçün dəyişik üsullar gərəkir. Amma eyni zamanda bu inanca mənsub olan hər ulus üçün, coğrafi özəlliklərinə, tarixinə, kültürünə, ictimai və iqtisadi şərtlərinə bağlı olaraq ayrıca xüsusiyyətlər daşıyan üsullar işlətmək gərəkir. Tatarlar üçün yaxşı olan qırğızlara yaramaya bilir, Rusiya müsəlmanlarına uyğun gələn Əfqanıstan və Buxarada tətbiqi mühit tapmaya bilir, ya da bunun tamamən tərsi olur, hər ulusun

psixologiyasına və ruhuna uyğun ayrı bir taktikaya ehtiyac duyula bilir. N.Nərimanovun mövzuya baxışı da Sultan-qaliyevin fikirlərinə uyğun gəlir: "Bu, bir tərəfdən hər ikisinin dinə qarşı mücadiləni uğurlu bir şəkildə həyata keçirə bilmə qayğısı içində yerli şərtləri gerçəklərdən qopmadan təhlil etmə səylərindən, digər tərəfdən isə bu mövzuda da, digər bir çox mövzularda olduğu kimi məsləhətləşmə içində olmalarından qaynaqlanmış ola bilir (50, s. 210-211).

Səlahəddin Xəlilov "Milli istiqlal və sosial ədalət ideallarının uzlaşdırılması yolu" adlı yazısında (15, s. 12-17) N.Nərimanovla bağlı qənaətlərini belə ifadə edir ki, N.Nərimanovun bəzən bolşevik kimi dəyərləndirilməsi və bu ideologiyaya xas olan bütün nöqsanların ona da aid edilməsi birtərəfli yanaşma olmaqdan ziyadə, kökündən qüsurlu olan bir münasibətdir. Əvvəla, Nərimanovun dünyagörüşü, əqidəsi ancaq kommunist ideologiyasının, ələlxüsus bolşevizmin təsiri ilə formalaşmamışdır. O, Lenin məktəbinin yetirməsi olmamışdır. Nərimanov hələ Platondan üzü bəri davam edən və böyük Fərabilərin, Nizamilərin tərənnüm etdiyi sosial ədalət və bərabərlik ideallarının təmsilçisi idi. Digər tərəfdən, Nərimanov böyük bir millətçi və vətənpərvər idi. Hansı isə bir qrupun, partiyanın maraqlarından deyil, ilk növbədə milli maraqlardan çıxış edən, milli dövlətçilik idealını təmsil edən böyük bir türkçü idi. O, öz milli maraqlarını sosial-siyasi görüşləri ilə uzlaşdırmağa və ictimai fəaliyyətini də məhz bu kontekstdə qurmağa çalışırdı. Nərimanov müəyyən bir məqamda, tarixin müəyyən bir en kəsiyində, müəyyən bir coğrafi-siyasi şəraitdə zamanın bir gerçəkliyi olan sosial-demokratik hərəkatın və daha sonra kommunist ideologiyasının təsir sferasında və bu hərəkatın sosial-energetik potensialından bəhrələnərək öz şəxsi əqidəsini və milli ideallarını həyata keçirirdi (15, s. 12).



Həsən Həsənov isə "Nəriman Nərimanov: milli ruh və siyasi təfəkkürün vəhdəti" başlıqlı məqaləsində (14, s. 18-40) yazır ki, N.Nərimanovun hələ Moskvada çalışarkən Sovet Rusiyasının Türküstan siyasətinə fərqli baxması və bu siyasətə tənqidi yanaşmasının mahiyyətini, onun dövlətçilik fəaliyyətində türkçü mövqeyini, Türkiyənin, Türküstanın türk xalqları və ictimai-siyasi xadimləri ilə bağlı siyasətinin mahiyyətini və məqsədlərini öyrənmək vacibdir. Ümumiyyətlə, XX əsrdə bir çox türk xalqlarının yaşadığı eyni tarixi taleyin araşdırılması həm tarixilik baxımından, həm də müasir dövrdə müstəqil Azərbaycanın Türkiyə, Özbəkistan, Qazaxıstan, Türkmənistan və Qırğızıstanla qurulub inkişaf etdirilən münasibətlərində bəhrələnmək baxımından əhəmiyyətlidir (14, s. 18). N.Nərimanov o illərin (1917-ci ilə qədərki dövrün) azərbaycanlısı üçün bolşevizmin təzahürü kimi deyil, milli təmayüllü siyasətçi kimi inam qazanmışdır. "Milli təmayüllü kommunist" məfhumunu məhz N.Nərimanovun anlayışında qəbul etmək lazımdır: yəni azərbaycanlılar başqa xalqların maraqlarına toxunmadan Azərbaycanda tam milli inkişaf və ölkələrini idarə etmək hüququna malik olmalıdırlar. N.Nərimanov, buna riayət edilmədiyindən bolşevizmin süquta məruz qalacağı fikrini irəlicədən söyləmişdir. Onun apardığı milli təmayüllü siyasət sonralar "nərimanovçuluq" adlı cərəyana çevrilmişdir. Deməli, N.Nərimanovun milli təmayüllü dünyagörüşünün kökləri həyat və yaradıcılığı ilə, xalqının yaşayışını və problemlərini, Azərbaycana qarşı hazırlanan məkrli planları, dünyada və bölgədə gedən prosesləri dərindən dərk etməsi ilə bağlı olmuşdur (14, s. 20).

Türkiyəli ilk kommunist Mustafa Sübhi də həyatı boyu Sultanqaliyevçi mövqedə olmuşdur. Onun üçün də o günlərin Sovetlər Birliyi, Avropanın işğal və təhqirlərinə məruz qalmış Türk xalqının müdafiəçisi durumundadır (50, s. 211).

Qızıl Ordunun Türküstandan çəkilməsinə dair Ənvər Paşanın Sovet hökumətinə yazmış olduğu məktubun, bilavasitə Şərq siyasəti üzrə məsul şəxs olan N.Nərimanova ünvanlanması, Mərkəzi Komitə liderlərindən Sultanqaliyevin basmaçı hərəkatı rəhbərlərindən olan Zəki Vəlidi ilə münasibətləri, Axund Yusif də daxil olmaqla bir sıra Türküstan qəhrəmanlarının bir müddət sovet hökumətində təmsil olunmaları və ya türk kommunist liderləri ilə təmasda olmaları milli məsələdə bu şəxsiyyətlər arasında müəyyən ümumi və ortaq mövqeyin olmasından xəbər verir. N.Nərimanov və M.Sultanqaliyevin aqibətləri, bolşevizmin şər və böhtanlarına hədəf olmaqdansa Ənvər Paşa və Axund Yusif kimi qəhrəmanların döyüş meydanlarında şəhid olmalarına haqq verir. İstər Ənvər Paşa və Axund Yusif, istərsə də N.Nərimanov və Sultanqaliyevlə yaxın münasibətdə olmuş M.Ə.Rəsulzadənin Moskvada olarkən Sultanqaliyev və Ənvər Paşa ilə olan görüş təəssüratları da bəzi mətləblərə açıqlıq gətirir. O, "Bir türk milliyyətçisinin Stalinlə ixtilal xatirələri" əsərində yazır: "Kremldən ayrıldığımız zaman Stalinin otağının yerləşdiyi koridordan çıxarkən tatar kommunistlərindən Sultan Qaliyevə rast gəldik. Sonradan milli təmayülçü suçu ilə töhmətləndirilərək edama məhkum olan Sultan Qaliyevi lap Bakıdan tanıyırdım. Moskvada onunla bir neçə dəfə görüşmüşdüm. Özünəməxsus orijinal bəzi fikirləri vardı" (27, s. 66; 317, s. 92). Hətta səhəri gün olan görüşlərində Sultanqaliyevin ona, N.Nərimanovun götürülüb, yerinə M.Ə.Rəsulzadənin təyin ediləcəyi haqda Kremldə gəzən



şayiələrdən xəbər verir. M.Ə.Rəsulzadə yazır ki, heç bir əsası olmayan bu söhbəti eşidəndə, bir tərəfdən müəyyən məqsədlə xüsusi uydurulub yayıldığını, digər tərəfdən də "bu sensasiyalı hadisə ilə bir gün əvvəl Stalinlə Kalinin arasında iki Azərbaycanın birləşdirilməsi mövzusundakı "zarafat" arasında hər halda bir münasibət aramağın əbəs olmadığı fikri də ağlıma gəldi (27, s. 66).

M.Ə.Rəsulzadə bu əsərdə Ənvər Paşanın Stalinlə münasibətlərinə və onun siyasi planlarına da toxunur. O, Bakıda toplanmış Şərq millətləri qurultayından bəhs edərək yazır ki, günün ən sensasiyalı hadisəsi Ənvər Paşanın qurultayda iştirak etmək üçün Bakıya gəlməsi idi. Paşanın müsəlman əhali tərəfindən qarşılandığına dair dastan və rəvayətlər saxlandığımız həbsxananın səskeçməz divarlarından nüfuz edərək bizə qədər gəlirdi. Paşanın minmiş olduğu avtomobilin ətrafını bürümüş qələbəlikdən hərəkət etməz bir hala gəldiyi, əlini, ətəyini, maşınını öpənlər olduğunu hər kəsin "Aman, Paşam, nə zaman qurtulacağıq?" – deyə ona xitab edildiyi kameradan-kameraya danışılırdı (27, s. 68).

M.Ə.Rəsulzadə onu da yazır ki, Şərq millətləri qurultayında Paşaya söz verməmiş, əksinə keçmişdəki siyasi fəaliyyətini acı-acı tənqid edən bir nitqlə qarşılamışlarsa da, lojada görünür-görünməz bütün qurultay ayağa qalxmış, onu əzəmətli bir şəkildə, gurultulu alqışlarla qarşılamışlar.

Ənvər Paşanın siyasi planlarının əksinə olaraq Türküstan hərəkatının başına keçməsini, sonda "intihara bənzəyən bir igidlik içində yalın qılıncla pulemyot atəşinə hücum edərək şəhid düşməsini" çaşdırıcı hadisələr kimi xatırlayan M.Ə.Rəsulzadə Batumda, İstanbulda, Moskvada dəfələrlə görüşdüyü bu keçmiş "İttihad və tərəqqi" lideri haqqında yazır: "...müx-

təlif vəsilələrlə onunla tez-tez təmaslarda olmuşdum. Onun idealist bir inqilabçı olduğunu bilir, islami bir romantizm ruhu daşıdığına vaqifdim" (27, s. 69).

M.Ə.Rəsulzadə Türküstan hadisələrinin qızğın günlərində Stalinin "Pravda" qəzetində yazdığı məqalədə Paşa ilə bərabər Türküstan millətçilərini imperializmin bir uşağı olaraq tənqid etməsini bildirməklə bərabər, onu da qeyd edir ki, "Stalinin Ənvər Paşa haqqında cəsur olduğu qədər səbirsiz və ötkəm bir adam olduğu haqqındakı fikrini bilirdim. Bununla bərabər, o, Paşanın idealizmini də etiraf edirdi" (27, s. 71).

Göründüyü kimi, nəinki bolşeviklərin, müsavatçıların və habelə bəzi ittihadçı məsləkdaşlarının idealist hesab etdikləri Ənvər Paşanın özü də özünün romantik idealları uğrunda mübarizə apardığını bilirdi. Lakin o bu yolda nail olduğu şəhidlik zirvəsi ilə özündən sonrakı milli istiqlal yolçuları üçün məşələ döndü.

Türk kommunistlərin, konkret olaraq N.Nərimanov və Sultanqaliyevin bolşevik siyasəti ilə razılaşmadıqları əsas məqam da məhz milli məsələ idi. Belə ki, Sultanqaliyev millətlər məsələsindəki xətaları, Rus şovinizmi ilə yetişmiş kadrların yanlış siyasətlərinə bağlayırdı. Əslində dini və milli məsələlərdə çox təəssübkeş mövqedə olmuş Sultanqaliyev hakimiyyət hərisi Stalinin hiylə və hikkəsinə tuş gəldikdən sonra öz-özünü təkzibə və bəzi hallarda etiraza məcbur edilir. Onun Mərkəzi Nəzarət Komissiyası üzvlərinə dustaq olduğu həbsxanadan yazmış olduğu məktub, bu anlamda olduqca böyük bir önəm daşımaqdadır. Bir surəti də Stalin və Trotskiyə göndərilən bu məktub (50, s. 73), 23 may 1923-cü il tarixində yazılmışdır. M.H.Sultanqaliyevin işinə dair 6 iyun 1923-cü il tarixli gizli hesabatda (50, s. 296-303) isə qeyd olunurdu ki,



Sultanqaliyevin öndərlik etdiyi qrupun gördüyü işlərin gerçəkdən əksinqilabçı yönümü və dövlət əleyhinə meylləri, onun Başqırd kadrlarına yazdığı şifrəli məktubdan görülməkdədir. Sultanqaliyev bu məktubunda Başqırdlara ayıq olmalarını tövsiyə edərək, belə yazır: "Türküstanda, Buxarada basmaçı hərəkat güclənir, yaza doğru daha mütəşəkkil bir çıxış edəcəkləri yönündə söyləntilər var, bu şərtlərdə MK, millətlər məsələsində böyük güzəştlər verməkdədir". Sultanqaliyev uzun zaman dirəndikdən sonra, istintaqa bunları etiraf etmək məcburiyyətində qalmışdır: "Etiraf edirəm ki, Adigomov yoldaşa şifrəli məktub yazaraq (sovet hegemonluğuna qarşı yönəldilmiş) basmaçı hərəkatının liderlərindən birisi olan Zəki Validovla şifrə və ya kuryer vasitəsilə əlaqə qurmasını istəməyim və bunu, Millətlər Xalq Komissarlığı üzvü olaraq, mənsubu olduğum Sovet hökumətindən gizlətməyim qəti surətdə qanundan kənar bir davranışdı. Məktubun yazıldığı dönəmdə mən bunun fərqində deyildim, gərçi bundan az öncə Stalin yoldaşdan aldığım bir məktubda, mənim də Validov təşkilatına bənzər bir təşkilat qurmamdan narahatlıq duyulduğu ifadə edilmişdir" (50, s. 301).

Sultanqaliyev basmaçılar hərəkatının liderləri, xüsusən Zəki Validi ilə əlaqələrini istintaqa verdiyi ifadələrlə belə əsaslandırmağa çalışırdı ki, "Mən, basmaçı hərəkatının müsəlman Şərqi üçün bir fəlakət olduğunu, bu hərəkatın hər hal və şəraitdə bütün Orta Asiyanı, habelə Qırğızıstan, Tatarıstan və Başqırdıstanı ağır və əvəzinin verilməsi imkansız olan bir fəlakətə sürükləyəcəyini ona isbat edə biləcəyimi umurdum". İslamçı görüşlərə yaxın olduğu halda, Sultanqaliyev bu iddiaların tamamən əksinə, basmaçı hərəkatından son dərəcədə narahat olduğunu, bunun inqilab üçün təhlükə təşkil etdiyini

söyləyir: "Ona (Zəki Vəlidiyə – M.Ə.) bunları da isbat edə biləcəyimi umurdum: Basmaçı Hərəkatı (o da təcavüzkar bir hərəkat olaraq) ən böyük zəfəri qazanaraq bütün Şərq bölgələrini Rusiyadan ayırmağı bacarması halında da, qaçınılmaz olaraq bir fəlakətə səbəb olacaqdı (50, s. 87).

Türküstan mücadilələrinin liderləri, həm türk və həm islam olmasından dolayı, həm də Şərq siyasəti üzrə məsul olan Sovet hökuməti rəhbərlərindən N.Nərimanovla da əlaqələr yaratmağa çalışmışlar.

1920-ci ilin sentyabrında Kommunist İnternasionalı İcraiyyə Komitəsi tərəfindən Bakıda çağırılan Şərq xalqlarının I qurultayının hazırlanması və keçirilməsində fəal iştirak etmiş N.Nərimanov V.I.Leninin "Şərq məsələsi" üzrə ən güvəndiyi kommunist liderlərindən olmuşdur. Təsadüfi deyildir ki, Bakı qurultayında yaradılmış "Şərq xalqlarının təbliğatı və fəaliyyəti Şurası"nın sədrliyinə N.Nərimanov seçilmişdir (25, s. 70). Ənvər Paşa da onunla ilk dəfə 1920-ci ildə, burada tanış olmuşdur. Təbii ki, bu tanışlıq (yuxarıda sadaladığımız amillər əsas götürülməklə) və uzun illər N.Nərimanovla yaxın dostluq münasibətlərində olmuş Axund Yusifin də ətrafında olması faktı Ənvər Paşanı kommunist liderləri içərisində daha çox N.Nərimanovla bağlantı qurmağa sövq edirdi.

Moskva, Buxara hökumətinin sovetləşdirmə siyasətini yavaşıttığını hiss edərək Buxaradakı hakimiyyətini gücləndirməyi qərara alır. Bu məqsədlə Buxara KP MK-nın Təşkilatlanma Burosu 1922-ci ilin fevral ayında Buxara KP-nin Rusiya KP-sına bağlandığını elan edir. Moskva üçün bu qərar çöx önəmli idi, çünki ancaq bu şəkildə bütün Buxarada nəzarəti əllərinə keçirə bilərdilər. Ardınca da, 30 mart 1922-ci ildə Buxarada, içində xüsusi hərbi qərargah da olan basmaçılara



qarşı yeni bir cəbhə açılar. Səmərqənddə xüsusi hərbi briqadalar təşkil edərək Buxaraya göndərirlər.

Türküstan davasının əzab-əziyyətini çəkmiş aydınlardın Dr.Baymırza Hayıtın məlumatından da aydın olur ki, bolşeviklərin bu hücumları qarşısında Ənvər Paşa və ətrafındakılar məqsədləri üçün qətiyyətlə çalışırdılar. Ənvər Paşa 19 may 1922-ci il tarixində sovet hökumətinə bir memorandum göndərərək Qızıl Ordunun 14 gün müddətində Türküstan, Buxara və Xarəzmdən (Xivə) geri çəkilməsini tələb edir. Yuxarıda da artıq səbəblərini şərh etməyə çalışdığımız üzrə Ənvər Paşa memorandumu məhz N.Nərimanova ünvanlamışdı. "Sayın Xalq Komissarı Nərimanov" başlıqlı bu məktubdakı tələblərə cavab vermək əvəzinə Sovet hökuməti iki tədbirə əl atır: Ənvər Paşanın ingilis agenti olduğu və Şərq xalqlarının bir düşmanı olması mövzusunda güclü təbliğata başlamaq, ona qarşı mübarizədə hərbi gücü artırmaq və yerli-yabançı bütün vəzifəliləri hərəkətə gətirmək (49, s. 216-217).

Sovetlərin Türküstan siyasətindəki yanlışlıqlar N.Nərimanovu narahat etmişdir. Bununla bağlı bəzi fikirlərini o, "Ucqarlarda inqilabımızın tarixinə dair (İ.V.Stalinə məktub)" əsərində (25) ifadə etmişdir. 1923-cü ilin iyununda təqdim edilmiş bu məruzə məxfi sənəd olub PK(b)P MK-ya – İ.V.Stalinə, surətləri isə L.D.Trotski və K.B.Padekə göndərilmişdir. Bu tarixi sənədin 1992-ci ildə çap olunmuş ilk nəşrinin müqəddiməsində akademik Püstəxanım Əzizbəyova yazır ki, Şərq siyasətinin problemləri yalnız xarici dövlətləri deyil, Şərqi sovet respublikalarını da cəlb edirdi. Sovet Şərqi xalqlarının öz müqəddəratını təyin etməsi problemi daha çox fikir ayrılığı və çətinliklər doğururdu. Bu məsələlərlə əlaqədar olaraq N.Nərmanov dəfələrlə V.İ.Leninə məruzələr yazmış, sonra isə

İ.V.Stalinə də müraciət etmişdir (25, s. 5). Həqiqətən də Türküstandakı, xüsusilə də Buxaradakı vəziyyət N.Nərimanovu çox rahatsız edirdi. O, adıkeçən məruzəsində bu barədə yazırdı: "Türküstanda bizim siyasətimizə və sonra oradan Əfqanıstanla əlaqə yaratmağa nə qədər ciddi əhəmiyyət verdiyimi məruzəmdən görmək olar ki, burada mən yol. Stalinə Genuyaya gedənə qədər yerlərdə bizim özümüzün yaratdığımız (burada söhbət 1922-ci il 10 aprel – 19 mayda keçirilmiş Genuya (İtaliya) konfransına getməmişdən əvvəl, Şərq siyasəti məsələlərinə dair aprelin əvvəlində yazılmış məktubdan gedir – M.Ə.) nöqsanlarla tanış olmaq üçün mənimlə birlikdə Türksüstana yola düşməyi təklif edirdim. Türküstandakı, Buxaradakı sonrakı hadisələr və Ənvərin avantürası – bütün bunlar məhz onun nəticəsidir ki, indiyədək biz Şərq məsələsində istiqamət götürə bilməmişik" (25, s. 15).

N.Nərimanovun mövqe fərqliliyində olmuş olsa belə, Türküstandakı hadisələrə nə qədər diqqət yetirdiyi, onun digər məruzələrindən də görünməkdədir. O, aydın məlumat verir ki, Genuyaya yola düşməzdən qabaq yenə də Şərqdə (N.Nərimanov burada, Şərqdə RSFSR-in xarici siyasətinə dair 1922-ci ilin aprelində yazmış olduğu məktubu nəzərdə tutur) bizim siyasətimiz mövzusunda mən yol. Stalinə məruzə təqdim etmişdim ki, burada təxminən aşağıdakıları qeyd edirəm: "İndiyə qədər yol verdiyimiz böyük səhvlərin nəticəsidir ki, Şərq daha bizə inanmır, o, məzlum kütlə simasında bizdən üz döndərmişdir, mən səhvlərin düzəldilməsi işinə ucqar respublikalarda, xüsusilə Türküstanda və Buxarada başlamağı təklif edirəm" (25, s. 13-14).

Türk-islam amilinin əsas götürüldüyü "Şərq məsələsi"nə bu qədər önəm verilməsi təsadüfi deyildi. Tarixi faktlar təsdiq



edir ki, İstər Osmanlı, İran, Türküstan kimi türk ərazilərində, istərsə də müsəlman şərqinin digər bölgələrində milli və dini faktorlar həmişə önəmli rol oynamış, istiqlal mücadiləsində olan bir ölkəyə, digərlərindən könüllü soydaş və dindaşlar yardıma gəlmişlər. Türküstan mücadiləsində də Yusif Ziya ilə yanaşı bir çox azərbaycanlılar iştirak etmişlər. Tədqiqatlarda ümumi şəkildə qeyd edilməklə bərabər, bəzən konkret azərbaycanlı isimlərinə də rast gəlinir. Məsələn, oradakı Milli Cəmiyyətə tabe olan partizan dəstələrindən bəhs edərək Zəki Vəlidi yazır: "...Bəhramın yanında Səmərqənd aydınlarından Həmrakul Bek, Abdülhalim, Kari Mehmet və Azərbaycanlı Əsəd Bəy bulunuyordu" (58, s. 412). Əfqanıstan sərhədlərinə doğru sıxışdırılmış basmaçıların vəziyyətini təsvir edən Sürəyya Aydəmir isə qeyd edir ki, "Gərçi Pənç nəhrini aşmaq da kolay deyildi. Həmçinin Türküstanda və Doğu Buxarada bulunanlardan Azərbaycanlı Əziz Bəy hər şey bitdikdən sonra Əfqanıstana dönə bilənlərlə bərabər bu nəhri keçməyə çalışarkən, nəhrin sularına kapıldı və boğuldu" (43, s. 648).

Əvvəldə də qeyd etdiyimiz kimi istər Azərbaycandan, Qafqazdan, istərsə də digər yerlərdən olsun, Türküstan hərəkatında iştirak edənlərin böyük bir qismi Ənvər Paşanın basmaçılar hərəkatının başına keçməsi ilə bu mübarizəyə qoşulmuşdular. Eləcə də Ənvər Paşanın şəhadəti ilə bu hərəkatda tədricən səngimə hiss olundu. Axund Yusif də təxminən Ənvər Paşadan nə müddət sonra bu hərəkata qoşulmuşdusa, Paşanın şəhadətindən bir o qədər sonra qəhrəmancasına həlak olmuşdur.

Araşdırmalarda həm Ənvər Paşa, həm də Axund Yusifin ölümü ilə bağlı bir-birindən fərqli məlumatlara da rast gəlinir. Xüsusilə də Y.Z.Talıbzadənin hansı səbəbdən, dəqiq nə zaman,

hansı vəziyyət və şəraitdə həlak olması ilə əlaqədar mənbələrdə müəyyən mübahisəli məqamlar vardır. Bu mənada Ənvər Paşanın şəhid olduğu yer, gün, ay, il dəqiqliyi ilə aydın olsa da, tədqiqatlarda cüzi (bəziləri Paşanın avqustun 5-də həlak olduğu qənaətindədirlər) uyğunsuzluqlar da vardır (49, s. 221).

Son illərdə Azərbaycanda çap olunmuş tədqiqatlarda Ənvər Paşanın Azərbaycandakı siyasəti və Türküstanda onun hansı şəkildə həlak olması ilə bağlı ilkin mənbələrlə təsdiqlənməyən hallara da rast gəlinir. Məsələn, Aybəniz Əliyevanın (Kəngərli) "Azərbaycan romantiklərinin yaradıcılığında türkçülük" adlı kitabında oxuyuruq: "Ənvər Paşa dünyada yaşayan bütün türk xalqlarını vahid dövlət çatısı altında birləşdirməyi, qüdrətli Turan imperiyası yaratmağı qarşısına məqsəd qoymuşdu. Lakin planlarını reallaşdırmağa müvəffəq olmadan aradan götürüldü... Ənvər Paşa 1923-cü ildə Orta Asiyada rus ordusuna qarşı döyüşlərə başçılıq edərkən bir erməni tərəfindən məsciddən çıxdığı zaman arxadan vurularaq öldürüldü" (10, s. 236).

Əvvəla burada "aradan götürüldü" ifadəsi heç yerinə düşmür, çünki dönə-dönə təsdiqləndiyi kimi, Ənvər Paşa Türküstan mücadiləsinə məqsədyönlü şəkildə, situasiyanın ona tam aydın olduğu şəraitdə, "Qazi olamazsaq, şəhidiz" şüarı ilə qatılmışdı. Ənvər Paşa aradan götürülmədi, o, gözü görə-görə, ağlı kəsə-kəsə özünü düşmən cəbhəsinə atdı, türkçülüyün gələcəyi üçün mübarizə aparanlara görk olsun deyə, şəhidlik zirvəsinə yetişdi. Bu fikir əsərin başqa bir yerində də təkrarlanır. Əhməd Qaracanın "Azərbaycanın yaxın tarixinə bir baxış" əsərinə (51, s. 18) "istinad" edən müəllif yazır: "Osmanlı dövlətini məhv edən ingilislərdən heyf almaq məqsədi ilə Sovetlər daxilində mübarizə aparmaq qərarına gəlir. Sovetlərdəki



türk xalqlarını qurtara bilməyən Ənvər Paşa Çindəki türkləri müstəqilliyə qovuşdurmaq üçün mübarizə edir. Orta Asiyada rus ordusuna qarşı döyüşlərə rəhbərlik edən Ənvər Paşa erməni xəyanətinin qurbanı oldu. Ən yaxın silahdaşı, Azərbaycan azadlıq hərəkatının tanınmış nümayəndələrindən Axund Yusif Talıbzadə də bu döyüşlərdə şəhid oldu" (10, s. 237). Öncədən söyləyək ki, burada doğru hesab etdiyimiz fakt yalnız Y.Z.Talıbzadə ilə bağlı sonuncu cümlədir. Amma nə bu, nə də digər fikirlərlə əlaqədar istinad olunan mənbədə (51, s. 18) tək bircə kəlmə belə yoxdur. Həmin mənbədə yalnız Ənvər Paşanın öndərlik etdiyi Türküstan hərəkatında azərbaycanlı könüllülərin iştirakına toxunulur.

"İngilislərdən heyf almaq məqsədilə Sovetlər daxilində mübarizə aparmaq" fikrinə gəldikdə isə bircə onu deməklə kifayətlənirik ki, Ənvər Paşa Türküstan mücadiləsinə qərar verəndə, davası ilk növbədə bolşeviklərlə və umumilikdə Türküstan istiqlalına əngəl olacaq hər kəslə idi. Ənvər Paşa sovetlərdəki türkləri qurtara bilməyəcəyi haqqında düşünməyə imkan tapmamış şəhid oldu və təbii ki, şəhidliyə qovuşmuş adamın Çindəki mübarizəsindən bəhs etmək inandırıcı deyil. Ənvər Paşa Türküstandakı qətiyyətli mübarizəsində uğur qazanmasına şübhə etmişsə belə, heç zaman bu mücadiləni buraxıb getməyi ağlına da gətirməmişdir. Burada onun qətiyyətini bir daha xatırlatmağa ehtiyac duyuruq: "Şərqi Buxaraya keçməyə qərar verdim. Qazanırsaq qazi, qazanmazsaq şəhid olacağız. Müvəffəq olmazsaq, heç olmazsa cəsədimi burada buraxmaqla Türklüyün istiqbalına xidmət etmiş olurum" (58, s. 395, 457).

"Ənvər Paşa erməni xəyanətinin qurbanı oldu" fikri də kökündən yanlışdır. Z.Vəlidi Ənvər Paşanın mövzu ilə bağlı

ona söylədiklərini xatırlayaraq yazır: "Tələt Paşa mərhum kimi Berlin sokaklarında bir erməni kurşunundan ölmək istəməm. Canımın Türk millətinin xilası yolunda fəda olması gərəkdir. Gazi olmazsaq şəhidiz". O, muhakkak bir idealistdi və Türküstan torpağında oranın istiqlalı üçün ölmək fikrində əlbəttə ki, səmimi idi" (58, s. 456). Zəki Vəlidi ona da toxunur ki, Ənvər Paşanın ölümündən sonra, rusların özləri də bu şəhadət hadisəsinin təfərrüatı haqqında bəlli bir məlumata sahib deyillərmiş. Ruslar arasında Ənvər Paşanı mən öldürdüm deyən bir neçə adam çıxdı, bu haqda fikri dartışmalar da oldu. Amma bunlar tam uydurma şeylər idi. Paşa rus əsgərlərinin birinin gülləsi ilə ölmüş, amma kimin gülləsi olduğu o zaman məlum olmamışdır. Pulemyotların şıdırğı atəşləri altında vurulan adamın kimin gülləsindən həlak olduğunu söyləməyin özü ağlabatan deyil.

Əslində bu tipli şayiələrin siyasi mahiyyət daşımasını Z.V.Toğan da təsdiqləyir: "Ənvər Paşa mərhumu küçültmək istəyənlər onun Çekendə ölümü məsələsinə dair bir çox mənasız yazılar yazmışlar və yazıyorlar. Bununla türküstanlıları küçültmək istəyirlər. Guya Paşa hərb taktikasını heç bilməyən bir divanə imiş. Türküstanlılar heç bir surətdə güvənilə biləcək bir qüvvət deyillərmiş. Halbuki bu bir çətə (partizan – M.Ə.) hərbidir. Yuxarıda da dediyim kimi, Paşanın və həpimizin də həyatımız hər vaxt təhlükəyə məruzdu" (58, s. 456).

Zəki Vəlidi Ənvər Paşanın ətrafındakı şəxslərdən Mustafa Şahkuliyə istinadən yazır: "Paşa Qurban Bayramı günü, 4 avqust, cümə günü ruslarla Belcivandan yeddi-səkkiz km məsafədə olan Çeken köyündə yapılan savaşda şəhid düşmüşdür" (58, s. 456). Döyüşqabağı vəziyyəti təsvir edən M.Yamauchiyə görə isə "Qısa bir sürə sonra Ənvər Paşa Belçivanda



müdafiə durumu almış, Qızıl Ordunun avtomat silahlılarına qarşı süvari qılıncı çəkmişdir. Ənvər Paşa 4 avqust 1922-ci il tarixində bir hücum əsnasındakı çarpışmada şəhid olmuşdur. Beləcə, sürgündəki "Gənc Türklər"in pantürk idealları sona çatmışdır" (53, s. 76). B.Hayıt eyni hadisəni bir az fərqli şərhlə təqdim edərək yazır ki, həmin gün "gözcülər rusların gəldiyini Ənvər Paşaya xəbər verdilər. Ənvər Paşa və otuz arkadaşı dərhal atlarına minirlər və təxminən 50 metr uzaqlığındakı rusların üzərinə qılıncları ilə hücum edirlər. Bu çatışmaya davam etməyən ruslar geri çəkilirlər. Daha sonra, makinalı tüfənglərlə atəş açırlar. 4 avqustda qəhrəmanca can verən Ənvər Paşaya beş güllə nişan alınmışdır" (49, s. 221). Bu qəhrəmanlıq hadisəsini ən geniş şəkildə, təfərrüatı ilə qələmə alan yazar isə Sürəyya Aydəmirdir. Həmin günü o, belə təsvir edir ki, indi 4 avqust 1922-ci il tarixindəyik. Qurban bayramının birinci günüdür. Gərçi köydə bayram namazı, bir tarix yanlışlığı ilə bir gün öncə qılınmışdır. Amma Qurban bayramının ikinci günü də həzin, ümidsiz, fəqət duyğulu qutlamalara səhnə olur. Ənvər Paşa tabeliyində olanları toplayır, bayramlarını təbrik edir, imza və möhürü qoyulmuş sənədlərlə onları təltif edir (263, s. 648-649). Vəzyiyəti təsvir etmək üçün, həmin anda Paşanın ətrafında olanlardan A.R.Baysunun xatirəsinə nəzər salmaq da maraqlıdır. O, yazır ki, Ənvər Paşa həsrət, üzüntü, nigaran içindəykən əsgərlərə müraciətlə: "Sizə verəcək bir bayram hədiyyəsi bulamadım. Arkadaşlığımızı bəlirtən bir kaç sətir yazı yazsanız, möhürləsəm. Günün birində sizə məni xatırladacaq olan milli mücadilə arkadaşlığımızın da bir xatirəsi olacağını düşündüm" – dedi (48, s. 123). Bu zaman Çekan təpəsi istiqamətindən gözlənilən silah səsləri gəlir. Ənvər Paşa həmən atına minir. Dörd-beşi Osmanlı türklərindən

olmaq üzrə 25-ə qədər atlı onun ardınca çapır. "Təpədə mövqe tutmuş düşmən pulemyotlarına qarşı aşağıdan, vadidən və ancaq atlar üstündə sıyrılmış qılınclarla azsaylı fədai süvari dəstəsinin hücuma keçişinin sonu bəllidir. Ənvər Paşa ən öndədir. Atını ildırım kimi sürür. Qılıncıyla havanı yararaq çapır. Yanındakılar da ondan geri qalmırlar.

Bir komandanın, bir başkomandanın, bir basqın dəstəsinə qarşı ən öndə və atla, qılıncla hücumu hərbi savaş üsullarına sığmaz. Amma burada artıq əsgərlik deyil, yolun sonu, son həmlə və bəklənən sonu arayış qonuşacaqdır. Bu son isə, ölüm və şəhadətdir... Onun üçündür ki, bu hücumda hesab, məntiq və nəfsini qoruma əndişəsi yoxdur" (43, s. 648-649).

Türk tarixi üçün mühüm dəyər kəsb etdiyini nəzərə alaraq burada "Ənvər Paşanın vəkili, Turan İxtilal Ordusunun Türküstan Cəbhəsi Komandanı, Buxara İslam əsgərlərinin Əmiri Ali Rizanın Ənvər Paşanın şəhadəti haqqında" (49, s. 221) tərtib etdiyi vəsiqəni olduğu kimi verməyi məqsədəuyğun saydıq.

"Şehidi-i muhterem Enver Paşa hazretleri".

Pek mukaddes və ali bir maksat peşinde Buhara-yi Şerefin "Belh-i Cevan" vilayetinin "Çegan" nam mahalde Miladi 4 Ağustos 1922 və Rumi 21 Temmuz 1338 və Kameri 11 Zilhicce 1340 senelerinin Kurban bayramının ikinci Cuma günü gündüz öğle vaktine karip bir zamanda hun-i pakini mahall-i mezkur toprakları üstüne akıta akıta kahramanane ve merdane bir surette rütbe-i şehadete nail olmuştur.

(Mühür ve imza)
Turan İhtilal Ordusu
Türküstan Cephesi Kumandanı
ve Emir-i Leşker-i İslam-i Buhara



Enver Paşanın Naibi Miralay
Ali Rıza (43, s. 651; 23, s. 210).

Ənvər Paşanın ölümündən sonra da ona olan sevgi davam edir və əfsanəyə dönür. İstambulda Fransız Xəbəralma Təşkilatı belə bir bilgi toplamışdı: "Ənvər Paşa (Doğu Buxaranın Balçivanında bulunan) Çağatay bölgəsində gömüldü. Onun məzarlığı asi müslumanların ziyarət yeri olub Qızıl Ordu ilə savaşacaq hər birlik hər şeydən öncə onun məzarını ziyarət edərək onun hüzurunda islamçılığı qorumaq üçün savaşacaqlarına söz verirdi" (53, s. 76). Hətta onun ölümüylə bağlı məlumatlara baxmayaraq, Ənvər Paşanı dəstəkləyənlər, ölümünə heç bir zaman inanmamış və yaşadığına dair xəbərlər yaymışlar.

Tədqiqatlardan alınan ümumi qənaətlər bunu söyləməyə əsas verir ki, Yusif Ziya ilə Ənvər Paşanın Türküstandakı talelərində bağlı cəhətlər və bənzərlik vardır. Sadəcə Yusif Ziya ilə bağlı sistemli və monoqrafik araşdırma olmadığından onun həyat və fəaliyyəti, o cümlədən Türküstandakı mübarizəsi, xüsusilə də ölümü ilə bağlı qaranlıq və bir-birini təkzib edən məlumatlara rast gəlinir. Ənvər Paşanın ölümündən sonra onun haqqında sevgidən yaranmış ənfsanəvi rəvayət və söz-söhbətlərin bənzərləri Yusif Ziya barəsində də söylənilmişdir. Lakin bu, bir yandan həsrət və rəğbətdən yaranırdısa, digər yandan kommunist rejiminin xofundan irəli gəlirdi. İdeoloji təbliğat mənqənəsi uzun illər Y.Z.Talıbzadə ailəsini sıxmış, qohum-əqrabası təqiblərə məruz qalmışdır. Qardaşı Abdulla Şaiq bununla əlaqədar çox şər və böhtanlara sinə gərməli olmuşdur. Akademik K.Talıbzadənin xatirələrindən öyrənirik ki, adları yasaq olmuş şəxsiyyətlər mövzusunda Sovet rejimi insanları həmişə vahimədə, qorxu içində saxlamağa çalışır, onları bacardığı qədər əzirdi. Bunun üçün müxtəlif prova-

kasiyalara, heç bir əsası olmayan böhtanlara da əl atırdılar. Bizim ailəni də tez-tez provakasiyaya çəkirdilər. "...1945-ci ildə mənimlə bir sinifdə oxuyan uşaqlıq yoldaşım bizə gəldi. Müharibədən təzə qayıtmışdı. Dediyinə görə əsir düşmüş, çətinliklə qaçıb canını qurtarmışdı. O, mənə dedi ki, əmim Yusif Ziyanı M.Ə.Rəsulzadə ilə birlikdə görüb. Guya, onlar Hitlerin yanına Azərbaycan legionu yaratmaq məqsədilə gedibləmiş. Bu xəbər böyük sürətlə şəhərə yayıldı. Tərcüməyi-halımda "qaranlıq məqamlar" olduğu üçün Elimlər Akademiyasının partiya bürosunda məsələmi qoydular" (26; 240).

Amma həqiqət belə idi ki, Axund Yusif 1923-cü il Türküstan mücadiləsi gedişində şəhid olmuşdur. Artıq qeyd etdiyimiz kimi Ənvər Paşa həlak olarkən Axund Yusif onun yanında olmamışdır. Paşanın göstərişinə əsasə Səmərqənd və Qazaxıstan istiqamətlərində kəşfiyyat və təbliğat xarakterli tapşırıqlar yerinə yetirirdi. Zəki Vəlidi təstiqləyir ki, Axund Yusif və arkadaşları hadisə yerinə "gəldiyi vaxt Paşa şəhid olmuş bulunurdu" (58, s. 426). Ənvər Paşanın şəhadətini təfsilatı ilə qələmə alan A.R.Baysun da Axund Yusifin Paşanın ölümündən bir-neçə gün sonra ora yetişdiyini yazır. O, bildirir ki, cəsədi torpağa, ruhu da qəlblərə gömülən Ənvər Paşanın məzarı Türküstan xalqı üçün müqəddəs bir ziyarətgah oldu. Günlərcə bu qəbir ətrafında Quranlar oxundu. Lakin artıq burada işimiz qalmamışdı. Ənvər Paşanın şəhadətini lazım olanlara yazaraq, cavab alıncaya qədər müvəqqəti bir kənara çəkilməyi qərarlaşdırdıq. Ayrı-ayrı dəstə komandanları vəzifə başında olmaq üçün lazımı istiqamətə hərəkət etdilər. "Danyal, Halil, Nafi, İsmail Hakkı, Nafiz, Muhiddin, Mustafa Şakul, Huseyin, Faruk Bəylər və sair arkadaşlar ilə mən də Karatekin vilayət mərkəzi olan Garma bir qisim əsqər ilə bərabər hərəkət



etdik. Burada komandan Fuzeyl Mahdumun hazırladığı əski hökumət konağında müsafir edildik. Vəzifədən Batı Buxara tərəflərinə gedən Azərbaycanlı Yusif Ziya Bəy də arkadaşları ilə bərabər gəldi" (48, s. 128-129).

Deməк lazımdır ki, Ənvər Paşanın Turan İxtilal Ordusunda istiqlal mücadiləsinə qatılmış Özbəkistan türkü Abdullah Rəcəb Baysun (1892-1956) Axund Yusiflə cəbhə yoldaşı olmuş və tədqiqatlarında onun ölüm tarixini dəqiq yazmış bir şəxsdir. A.R.Baysunun "Türküstan İstiqlal Hərəkətləri və Ənvər Paşa" əsəri çox güman ki, K.Talıbzadəyə məlum olmadığından, o, Zəki Vəlidinin mövzu ilə bağlı xatirələrinə tənqidi münasibətində bununla əlaqədar bilgi vermir.

Mövzuya dair dəyərli bilgilər verən ən son mənbə isə Ali Bademci tərəfindən 2010-cu ildə yayınlanmış "Sarıklı basmacı" kitabıdır (45). Kitab Türküstanda Ənvər Paşanın Ümumi Mühaberat Müdiri Molla Nafizin ötən əsrin 60-cı illərində "Tarsus" qəzetində çap olunmuş xatirələrindən ibarətdir. Xatirələrin bir çox yerində Y.Z.Talıbzadənin həyatının son ayları haqqında məlumat verilir: "...Ayrıca bu sıralarda azərbaycanlı Yusif Ziya və Səmərqəndli Abdülrəsul adlarında iki "Əfəndi" Məcca yolu ilə Karatrginə gəldilər (45, s. 242). 11 Şubat 1923 günü Aşur Bek qurşuna düzüldü. Börübataş da Darvaza sürgün edildi. Bu olayların cərəyan etdiyi əsnada daha əvvəl çeşidli təmaslar üçün Sugnana göndərilmiş bakılı Yusif Ziya ilə fərqanəli Abdülrəsuldan xəbər aldıq. Bunlarla bərabər görəvli olan, Camal Paşanın Əfqanıstanda yetişdirdiyi türküstanlı kiçik zabitlərdən daşkəndli Azam Əfəndi qərargaha gəldi. Həp hərb və münaqişələrdən bəhs edirik. Bu qədər ölüm xəbəri bizlər kimi bəlkə illər sonra bu xatirələri oxuyanları da sıxacaqdır. Onun üçün ağlanacaq halımızın düşünüləcək yönlə-

rindən də bəhs etmək istəyirəm. Bu heyətə məsrəflər edilib bir fayda üçün ora-bura göndərilirkən baxın bizimkilər nələr yapırlarmış: Yusif Ziya ilə Abdülrəsul qrup arkadaşları ilə birlikdə Şuğnana varmışlar. Mövsüm qış, yollar qarla qapalı daha irəliyə gedə bilməmiş və qışı burada keçirməyə qərar vermişlər. Şuğnanda hərə özünə bir otaq kirələmişdir (45, s. 274).

Molla Nafiz Z.V.Toğanın "Xatirələr"ində olduğu kimi Y.Z.Talıbzadəyə ayrıca bir bölmə həsr etməmişdir. Sadəcə kitabın ayrı-ayrı yerlərində yeri gəldikcə onun həyatının son günləri haqqında bilgilər vermişdir. Fikrimizcə, Y.Z.Talıbzadə ölüm yeri və vaxtı haqqında, habelə müharibə dəhşətlərinin onun ruhi vəziyyətinə təsirləri haqqında mübahisəli məqamlara müəyyən aydınlıq gətirmək baxımından Molla Nafizin xatirələrindən bəzi məqamların diqqətə çatdırılması faydalı olar. O, Şuğnan və əhalisi haqqında ətraflı məlumat verərək yazır ki, bura Darvaz vilayətinin bir qəsəbəsidir. Qış sentyabrda başlar və çox sərt keçər, ilk qarda yollar qapanar. Yay iyun-avqust arası qədərdir. Yollar ancaq bu zamanda açıq olur. Bu qəsəbə Buxara Əmarətinin ən şərq sərhəd qəsəbəsidir. Tibet dağları ilə Bedakşan dağlarını ayıran Amu çayının qaynağına yaxın bir yerdədir. Bu qəsəbənin güneyi 500 metr dərinliyində uçurumdur. Burada çay sanki yerin dibindən axır. Şimalda Tibet dağlarına dəhşətli görkəm verən hilal şəklində bir yüksəliş var. Yalçın qayalar bir pərdə kimi Amu çayının üzərinə əyilmiş, buludlara meydan oxuyan yüksək aşırımlar ilə çevrəli qərb və şərqində zolaqvari uzanan dar cığır yol ilə gedilən yalçın qayaların üzəri bir az maili yerlərdə daşlar oyularaq otaq halına gətirilmiş, qədəm-qədəm yuxarıya yüksələn ən üstdəki evdən ən asağıdakının nə yapdığını görmək mümkündür. Qəsəbə tam



bu mənzərənin ortasındadır. Qəsəbənin altında 500 metr dərinlikdə axmaqda olan Amu çayının kənarında əsrlik dut ağacları vardır (45, s. 275-276).

Molla Nafizin yazdığına görə Suğnanda bu olay zühur etdikdən sonra artıq oradakı dəstədən bir xeyir gəlməyəcəyini düşünən Hacı Sami Bəy, Şirməddən ayırıp aldığı 60 fərqanəli süvarini Çərkəz Hüseynin əmrinə verərək Darvaza göndərdi. Eyni zamanda daha əvvəl buraya sürgün edilən Börübataş da yanlarında görəvləndirildi. Çərkəz Hüseyinə yardım etməsi üçün Darvaz valisi Muzaffer Şaha da bir məktub yazıldı. Şuğnan olayı Hacı Sami Bəyin mənəviyyatını bir az pozmuşdu. Belə çirkin işlərə dözə bilməyən birisi idi. Əsasən "Ənvər Paşa Ekibi" deyəcəyimiz Osmanlı subaylarının hər biri bir-birindən sağlam əxlaqlı idi. Bu kişilərdə mən dünya nemətinə meyl heç görmədim və duymadım. Bu yönləri ilə Orta Asiyada acəmiliyin xarab etdiyi saf türk əxlaqı can bahasına ortaya çıxdı. Sami Bəy də bu xüsusda həssas və sərt bir adamdı (45, s. 277-278).

Yusif Ziy Talıbzadə ilə bağlı Azərbaycan mühacirət ədəbiyyatında dərc olunmuş yazıların hamısında isə onun qanlı döyüşlər nəticəsində qəhrəmancasına şəhid düşdüyü vurğulanır. Məsələn, Ə.V.Yurdsevərə görə "Mərhum Ənvər Paşa Türküstanda müstəvli (işğalçı) sovet rejiminə qarşı milli ayaqlanmaya öndərlik edərkən Axund Yusif onun yanıbaşında idi. Ənvər Paşa şəhid düşdükdən sonra basmaçı qüvvətlərilə birlikdə ricət etməyə məcbur qalan Axund Yusif Ceyhun nəhrini keçərkən boğulmuşdu" (59, s. 7) Məhəmməd Əli Rəsulzadə də eyni fikri təsdiqləyərək yazır: "Axund Yusif" (Türküstanda bolşeviklərə qarşı basmaçılarla bərabər savaşırkən şəhid düşdü)" (56, s. 13).

Axund Yusifin ölümünü "ona layiq olmayan şəkildə" təsvir edən Z.V.Toğanla razılaşmayan akademik K.Talıbzadə bir neçə mənbədə (26; 37; 38; 36) məsələyə tənqidi münasibətini bildirmişdir. O, qeyd edir ki, atam Abdulla Şaiq öz böyük qardaşı Axund Yusif barədə, demək olar ki, danışmazdı, yəqin ki, ehtiyat edirdi. Onun adının hətta biblioqrafik göstəricilərə salınması da qadağan edilmişdi. Hərçənd ki, A.Şaiqin fikri və mənəvi inkişafında, onun türkçülük ideyalarına yaxınlaşmasında qardaşının mühüm xidməti olmuşdur. "Ədibin türk ədəbiyyatı və tarixinə göstərdiyi ardıcıl maraq, Azərbaycan Cümhuriyyəti illərində hərbi mövzuda, döyüşə çağırış rühündə yazdığı əsərlər, görünür, bu təsirdən kənarda olmamışdır" (36). Bu ehtiyatlılıq ondan irəli gəlirdi ki, sovet rejimi Talıbzadələr ailəsini gözüm-çıxdıya salır, sorğu-suala tutaraq rahatlıqlarını pozurdu. Hətta bu təqiblər A.Şaiqin 1950-ci ildə ev dustağı vəziyyətinə salınması ilə nəticələnmişdir. Elə bu səbəbdən də A.Şaiq, oğlu K.Talıbzadəyə Axund Yusiflə bağlı çox nadir hallarda danışarmış. O, danışırmış ki, 1923-cü ilin hansısa ayında Orta Asiyadan gəlmiş tanımadığı bir şəxs qardaşı Yusif Ziyanın qana bulaşmış köynəyini və həmişə yanında gəzdirdiyi kiçik cib Quranını ona (A.Şaiqə) vermişdir. Naməlum şəxs onu deyib ki, bunları cəbhədə yaralanmış qardaşınız göndərdi, sonra Əfqanıstana keçmək üçün özünü sərhəd çayına atdı. Ancaq çayı keçə bilməyib boğuldu (38).

Ehtimal ki, adıkeçən naməlum şəxs Türküstan mücadiləsi iştirakçılarından olan azərbaycanlılardan (və ya qafqazlı) biri olub. Ənvər Paşanın, daha sonra isə Axund Yusif kimi hərəkat liderlərinin şəhadətindən və məntiqi olaraq Qızıl Ordunun Türküstan işğalından sonra Vətəninə dönüb. Qeyd etdiyimiz kimi Türküstan istiqlal davasına yardım üçün digər türk bölgələrindən olduğu kimi Azərbaycandan da könüllülər qoşulmuşdular. Özü də bütün bu qardaşlıq əlaqələri heç də tamamilə pərakəndə və yalnız fərdi şəkildə həyata keçirilmirdi. Belə ki, Azərbaycan Xalq Cümhuriyyətinin devrilməsindən sonra fəaliyyətini qeyri-leqal formada davam etdirən "Müsavat" partiyası Azərbaycandan kənardakı milli təşkilat və mərkəzlərlə daima əlaqə saxlamağa çalışmışdır. Əhməd Qaraca məlumat verir ki, gizli "Müsavat"ın fəalları "Ümumi Mərkəzimizlə Tiflis və Təbriz arasında müntəzəm əlaqə saxlamaqdaydı. Ənvər Paşanın Türküstanda girişdiyi Milli hərəkata yardım etmək üçün bir çox gənc Azərbaycan zabitləri könüllü olaraq oraya getmiş və müharibələrdə bilavasitə iştirak etmişdilər" (51, s. 18). Belə olan halda Axund Yusifin ölümü ilə bağlı xəbəri, dəlil və sübutları gətirən adamın da, mərhumun ilk üzvlərindən olduğu "Müsavat" partiyasına bağlı gənc zabitlərdən olduğunu güman etmək olar.

K.Talıbzadə əmisinin ölümü ilə bağlı bunları da əlavə edir ki, "Səhifələrində qanlı burmaq ləkələri olan həmin Quranı bu yaxınlarda (söhbət Sovet rejiminin çökməsindən sonrakı dövrdən gedir – M.Ə.) vərəqləyərkən orada atamın kiçik bir kağız parçasına yazdığı məlumata rast gəldim. Yəqin ki, bu məlumatı da Quranı Orta Asiyadan gətirən həmin adam vermişdi. Yazının məzmununu olduğu kimi təqdim edirik: "Amu-Dəryadan keçərkən boğulmuş Yusif Ziya. Buxara ilə Əfqan arasında, Dərvaz vilayəti ilə Pənc qışlağında, saat 3-də, cəvzanın 18-də (cəvza – may ayıdır), 1341" (38).

Əlimizdə olan mənbələr içərisində Axund Yusifin ölüm tarixi haqqında ən səlis məlumatı, yuxarıda haqqında bəhs etdiyimiz A.R.Baysun verir. O, məlumat verir ki, mərhum Ənvər Paşanın yerinə Paşa ünvanı verilərək Hacı Sami bəy Türküstan

İhtilal Ordularının Baş komandanı təyin edilir. Həmən rəsmi bir möhür də hazırlanır. Hacı Sami və Abdülhamit Arif Bəylər 25 avqust 1922-ci ildə Şərqi Buxaraya keçirlər. Daha sonra, müəllif mücahidlərin Darvaz vilayətində və ətraf bölgələrdəki, o cümlədən Şuğnandakı fəaliyyətlərindən bəhs edərək, Axund Yusiflə bağlı onu vurğulayır ki, "...xalqın əhval-ruhiyyəsini qavrayan azərbaycanlı Yusif Ziya bəy, Şuğnanda müvəffəqiyyətlə çalışır" (48, s. 162). Abdullah Rəcəb Baysunun özünün də burada olması və güman ki, Axund Yusifin son döyüşündə onun da vuruşması səbəbindəndir ki, o, əqidə və cəbhə yoldaşının dəqiq şəhadəti tarixini yazır: "Yusif Ziya Bəy Əfqanıstana keçən Hacı Sami Bəyə mülaki olmaq (mülaki olmaq – ərəbcə, qovuşmaq, görüşmək – M.Ə.) üzrə 11 Hazıran 1923-də Dəryayi Pənci keçərkən atından düşərək boğulub ölmüşdür" (48, s. 162). Akademik Kamal Talıbzadənin təbirincə desək: "Düzü budur ki, Axund Yüsif döyüşlərdə yaralanmış və çayı keçməyə iqtidarı çatmayıb boğulmuşdur. Bunu qardaşına verilmiş qanlı köynəyi və qanlı cib Quranı təsdiq etməkdədir" (38). Əlavə edək ki, Y.Z.Talıbzadənin döyüşdə yaralanaraq həlak olmasını təsdiqləyən yeganı dəlil və sübut kimi qanlı cib Quranı (A.Şaiqin, bu yadigarı gətirən naməlum şəxsin dediklərinə istinadən kağıza köçürdüyü qeydlə bərabər) A.Şaiqin Mənzil Muzeyinin ekspozisiya zalında mühafizə və nümayiş etdirilməkdədir.

Azərbaycanın son yüz illik milli tarixində adlarının çəkilməsi belə yasaq edilmiş şəxsiyyətlər içərisində Y.Z.Talıbzadə də ön sırada durur. Onların bir çoxu haqqında elmi-tədqiqat işləri, monoqrafik araşdırmalar yazılıb, həyat və fəaliyyətləri barədə geniş bilgilər əldə edilməsi və ictimai fikirdə bu haqda müəyyən qədər təsəvvür yaradılması qənaətbəxş hesab edil-



məsə də, hər halda təqdirəlayiq haldır. Lakin Y.Z.Talıbzadənin həyatı, fəaliyyəti və yaradıcılıq irsi barədə heç bunları da demək mümkün deyil. Təəssüf doğuracaq haldır ki, milli istiqlal uğrunda mübarizə apardığı, fədakarlıq göstərdiyi, qəhrəmancasına döyüşdüyü heç bir türk diyarında – nə Türkiyədə, nə Azərbaycanda, nə də Türküstanda onun adı əbədiləşdirilməmişdir. Bir sıra Türküstan şəhidlərinin, müəyyən bir zaman müddətində olmuş olsa belə, məzarlarının ziyarətgaha çevrildiyi halda, Y.Z.Talıbzadəyə bu da qismət olmamışdır. Onun fədakarlığı Türküstanlıların qəlbində bir müddət yaşasa da, sovetlərin qorxunc şəkildə hökmran olduğu dövrdə, xüsusilə də repressiya illərində bu izlərdən əsər-əlamət qalmamışdır. Fikrimizcə, təkcə bir faktı nümunə gətirmək yetərlidir ki, gözlərimiz önündə tarixi mənzərə canlansın. Belə ki, Ənvər Paşanın məzarının olduğu yer 1936-1937-ci illərə qədər böyük bir ziyarət mərkəzi sayılmışdır. Sovet iqtidarı, Türküstanın hər guşəsində müsəlmanların o dövrün özgürlük mübarizəsini yad etmək üçün Ənvər Paşanın məzarını ziyarət etdiklərini görüncə, bu ziyarət mərkəzinin psixoloji təhlükəsini hiss etmişdir. Bu səbəbdən aralarında Ənvər Paşanın və Dövlətmənd Bəyin də olduğu bütün məzarları dağıtmışlar. Beləliklə, sovetlərin hökmran olduğu heç bir yerdə istiqlal mücahidlərinin xatirəsini andıran bir şey buraxmamışlar. Bununla belə, sovet ideoloji təbliğat maşınının bütün cidd-cəhdləri müqabilində həyatlarını milli və dini ideallar uğrunda mübarizəyə qurban vermiş şəhidlərin ruhi, təəssübkeşlik hissindən məhrum olmamış hər bir türk-islam övladının qəlbində yaşamışdır. Şimali Qafqazın əski müdafiə naziri Əli Qantəmirin, Ənvər Paşanın Türküstan üçün önəmi haqqında haqlı olaraq yazdıqları, düşünürük ki, bütün istiqlal mücahidləri üçün ümumiləş-

dirilmiş xitabdır: "Türkiyədə onun haqqında nə düşünülürsə düşünülsün, Ənvər Paşa hər türküstanlı tərəfindən sayğıyla anılır... Türküstanlılar onu çox sevmiş və saymışlar: Ənvər Paşa yabançı bir ölkədə deyil, öz ana vətənində, qardaş vətəndə, türklər və türklük üçün ölmüşdür" (49, s. 224). Həqiqətən də başqa bir türk ölkəsində doğulmuş, Osmanlı dövləti ordularının baş komandanı və nəhayət, Osmanlı dövlətinin müdafiə naziri olmuş bir şəxsiyyətin, hərbi mənada bir məğlubiyyətə düşmüş olsa da, Türküstanda göstərdiyi fəaliyyətindən qürur duyması fərəhli və təqdirəlayiq qəhrəmanlıq nümunəsidir.



## Nəticə

Y.Z.Talıbzadənin bir tarixi şəxsiyyət, mədəniyyət xadimi kimi yetişməsində özündən əvvəlki milli-mədəni və ictimai-siyasi inkişafın böyük təsiri olmuşdur. Ona qədər və onun iştirakı ilə Azərbaycanda, millət davasının M.F.Axundzadə və H.B.Zərdabi ilə başlayan böyük bir "mədəni hərəkat", Ə.Hüseynzadə, Ə.Topçubaşov, Ə.Ağaoğlu ilə təmsil olunan qısa bir "siyasi hərəkat" dövrü vardır. Y.Z.Talıbzadənin ictimai-siyasi və dini-kulturoloji görüşlərinin ideya mənbəyini milli, dini və bəşəri dəyərlərin vəhdəti təşkil edir. Dünyagörüşünün ideya zəminində Şərqin əsrlər boyu qazandığı fikri və mədəni nailiyyətlər dayanır. O, eyni zamanda dünyanın keçdiyi mütərəqqi inkişaf yolunu izləyərək mədəni dünyanın qabaqcıl ideyalarından faydalanmış, onları yeni tarixi şəraitə uyğun olaraq daha da inkişaf etdirməyə çalışmışdır. Y.Z.Talıbzadə öz yaradıcılığını ancaq dini ənənələrlə, milli zəminlə məhdudlaşdırmamış, bu çərçivəni cəsarətlə qırmağa çalışaraq müasir dünya mədəniyyəti səviyyəsinə yüksəlməyin yollarını axtarmışdır. Bu mənada Y.Z.Talıbzadənin dünyagörüşü zəngin dini, milli, kulturoloji fikrin zəminində, bununla qırılmaz daxili vəhdətdə olan ümumşərq mədəniyyəti kontekstində təşəkkül tapmışdır.

Y.Z.Talıbzadə kimi mücahidlərin timsalında Azərbaycan türklərinin də Türküstan milli istiqlal hərəkatında, aktiv olaraq savaş meydanlarında şücaət göstərmələri, milli və dini idealları uğrunda həyatlarını qurban vermələri, məslək, amal və əqidələri yolunda şəhid düşmələri təkcə Türküstan tarixində deyil, bütövlükdə Türk Dünyasında misli görünməmiş ən böyük və nadir qəhrəmanlıq örnəyidir. Türküstan milli hərəkatına yeni üfüqlər və yeni ümidlər qazandıran, şəhidlik məktəbi bəxş edən bu mücahidlər bütövlükdə milli istiqlal yolçuları üçün məşələ çevrilmişlər.

**İstifadə edəilmiş ədəbiyyat**
**Azərbaycan dilində**

1. Abdulla Ş. Arazdan Turana (Çapa hazırlayan, tərtibçi və qeydlərin müəllifi: Minaxanım Əsədli). Bakı: Nurlan, 2003, 264 s.
2. Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında. Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciəti. Bakı, İqtisad Universiteti nəşriyyatı, 2001
3. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. İki cilddə. I cild. Bakı: "Lider nəşriyyat", 2004, 440 s.
4. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. İki cilddə. II cild. Bakı: "Lider nəşriyyat", 2005, 472 s.
5. Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunları. Bakı: Nurlan, 2007, 160 s.
6. Azərbaycan sovet ensiklopediyası: 10 cilddə, III c., Bakı: ASE-nin baş redaksiyası, 1979, s. 76.
7. Azərbaycan sovet ensiklopediyası: 10 cilddə, X c., Bakı: ASE-nin baş redaksiyası, 1987, s. 86.
8. Azərbaycan tarixi: 7 cilddə, VI c., Bakı: Elm, 2000, 568 s.
9. Cavad H. Dr. Turəc Ətabəkinin "Azərbaycan" kitabı üzərinə bir dəyərləndirmə və təkmilləşdirmə / "Mədəniyyət dünyası", VI buraxılış. Bakı: ADMİU, 2003, s. 68-80.
10. Əliyeva (Kəngərli) A. Azərbaycan romantiklərinin yaradıcılığında türkçülük. Bakı: Elm, 2002, 334 s.



11. Ənvər Paşanın son məktubu. "Aydın" dərgisi, aprel 2003, № 4, s. 1.
12. Gəncalp G. Qaranlıqda çaxan ildırımlar. Bakı: Qanun, 2009, 316 s.
13. Həsənov H. Nəriman Nərimanov – milli təmayüllü kommunist. Bakı: Pedaqogika, 2004, 80 s.
14. Həsənov H. Nəriman Nərimanov: milli ruh və siyasi təfəkkürün vəhdəti // "Fəlsəfə və sosial-siyasi elmlər", 2010, № 2 (30), s. 18-40.
15. Xəlilov S.S. Milli istiqlal və sosial ədalət ideallarının uzlaşdırılması yolu // "Fəlsəfə və sosial-siyasi elmlər", 2010, № 2 (30), s. 12-17.
16. Qarayev Y. Azərbaycan ədəbiyyatı: XIX və XX yüzillər (İki min ili tamamlayan iki yüz il – XIX və XX yüzillər). Bakı: Elm, 2002, 740 s.
17. Qardaşov Ə.Ə. Demokratik Respublika dövründə Azərbaycan mətbuatında islam mövzusu: Fəl. elm. nam. ... dis avtoref. Bakı, 2009, 25 s.
18. Qocatürk N. Naxçıvan ordusu ermənilərə hücuma hazırdır. "Ana vətən" qəz., 17-23 iyun 1998-ci il.
19. Qurbanov Ş. Nəriman Nərimanov. Ömrünün son illəri (Təkmilləşmiş, əlavə edilmiş ikinci nəşri). Bakı: "Azərbaycan" nəşriyyatı, 2003, 376 s.
20. Qurbanov Ş. Atatürk və Nərimanov. Bakı: Azərbaycan Respublikası Milli Məclisi Aparatının mətbəəsi, 2003, 52 s.
21. Mahmudova V.M. İslam tarixi Azərbaycan dramaturgiyasında. Bakı: Səda, 2006, 98 s.

22. Məmmədzadə M.B. Milli Azərbaycan hərəkatı. Bakı: Nicat, 1992, 246 s.
23. Məmmədzadə M.B. Milli Azərbaycan hərəkatı. Bakı: Nicat, 1992, 246 s.
24. Naxçıvan MSSR-in yaradılmasının 60 illiyi münasibətilə. Naxçıvan İnqilab Komitəsinin iclas protokolları (Fəxrəddin Cəfərovun təqdimatında) // "Azərbaycan arxivi", 1985, № 1. s. 32-49.
25. Nərimanov N. Ucqarlarda inqilabımızın tarixinə dair (İ.V.Stalinə məktub). Bakı: Azərnəşr, 1992, 80 s.
26. Ot kökü üstə bitər: Akademik Kamal Talıbzadə ilə müsahibə. "Xalq" qəz., Bakı, 5 iyun 1999-cu il.
27. Rəsulzadə M.Ə. Stalinlə ixtilal xatirələri. Bakı: Elm, 1991, 84 s.
28. Rüstəmli A. Cəfər Cabbarlı Cümhuriyyət dönəmində // "Azərbaycan" jurnalı, 2008-ci il № 1, s. 46-51.
29. Sarvan (Sadıqov) M.O. Borçalı alimləri. Bakı: Azərbaycan Milli Ensiklopediyası, 2001, 510 s.
30. Talıbzadə A.Y. Türkiyə məktubları. "İqbal" qəz., Bakı, 1913-cü il, 4 yanvar, № 253; 10 yanvar, № 258; 23 yanvar, № 268; 25 yanvar, № 269; 28 yanvar, № 271; 30 iyun, № 390.
31. Talıbzadə Y.Z. Müsavat qurultayında daxili siyasətimiz. " Azərbaycan" qəz., Bakı, 1919, № 343.
32. Talıbzadə Y.Z. Əkmək məsələsi. "Azərbaycan" qəz., Bakı, 1919, № 326.
33. TalıbzadəY.Z. Qafqasiyaya bayram təbriki. "Azərbaycan" qəz., Bakı, 1919, № 369.



34. Talıbzadə Y.Z. Əfqanıstan. "Azərbaycan" qəz, Bakı, 1919, № 350.
35. Talıbzadə Y.Z. Cəmiyyəti əqvam, "Azərbaycan" qəz., Bakı, 1919, № 348.
36. Talıbzadə K. Aşkarlanmış həqiqət. "Vətən səsi" qəz., Bakı, 14 mart 1991, № 11.
37. Talıbzadə K.A. Axund Yusif Talıbzadə. "Odlar yurdu" qəz., 10-17 sentyabr 1992, № 26.
38. Talıbzadə K. Azərbaycanlı panislamist Axund Yusif. "Odlar yurdu" qəz., 24-30 sentyabr 1992, № 27.
39. Talıbzadə K.A. Axund Yusif Talıbzadə / "Mədəniyyət dünyası", II buraxılış. Bakı: ADMİU, 2001, s. 42-47.

**Türk dilində**

40. Arslan A. Dünya savaşı və milli mücadele dönəminde Ahiska-Ahılkelek (1914-1921) // "Kafkas araştırmaları", İstanbul, 1997, c. 3, s. 93-115.
41. Aslan B. I. Dünya savaşı esnasında "Azerbaycan türkleri"nin "Anadolu türkleri"ne "Kardaş kömegi (yardımı)" ve Bakü müslüman cemiyet-i hayriyesi. Ankara, Atatürk kültür merkezi başkanlığı yayınları, 2000, 396 s.
42. Avçıoğlu D. Milli Kurtuluş tarihi: 1838-den 1995-e, 3-cü kitab. İstanbul, Tekin Yayınevi, 2002, 456 s.
43. Aydemir Ş.S. Makedoniyadan Orta Asyaya Ənvər Paşa, 3 cilddə, III c. (1914-1922), İstanbul, 1978, 648 s.
44. Aydemir Ş.S. Suyu arayan adam. 12. Basım. İstanbul: Remzi Kitabevi, 2003, 488 s.

45. Bademci A. Türkistanda Enver Paşanın Ümumi Muhaberat Müdürü Molla Hafizin Hatıraları. Sarıklı Basmacı. Ankara: Ötüken Neşriyat, 2010, 380 s.
46. Bal H. Kuzey Kafkasyanın istiklalı və Türkiyenin askeri yardımı, 1917-1918 // "Kafkas araşdırmaları", İstanbul, 1997, c. 3, s. 29-91.
47. Bal H. Azerbaycan Cumhuriyetinin Kuruluş Mücadelesi ve Kafkas İslam Ordusu. İstanbul: Idil Yayincilik, 2010, 286 s.
48. Baysun A.R. Türkistan İstiklal Hareketleri (Mücadelesi) və Enver Paşa. İstanbul: Turan Kültür Vakfi, 2001, 208 s.
49. Hayıt B. "Basmaçılar" Türkistan Milli Mücadele Tarihi (1917-1934). Ankara: Türkiye Diyanet Vakfı Yayınları, 1997, 368 s.
50. Kakınç H. Sultanqaliyev ve milli komünizm. İstanbul. Bulut yayınları, 2003, 336 s.
51. Karaca A. Azerbaycanın yakın tarihine kısa bir bakış. Ankara, Azerbaycan Kültür Dernegi Yayınları, 1982, 122 s.
52. Landau J.M. Pantürkizm (Türkçesi: Mesut Akın). İstanbul: Sarmal yayınevi, 1999, 364 s.
53. Masayuki Y. Hoşnut olmamış adam – Enver Paşa (Türkiyeden Türkistana). Ankara: Bağlam Yayıncılık, 1995, 352 s.
54. Resulzade M.E. Milli Varlığı Koruma // "Azerbaycan", Ankara, Yıl: 2, Haziran, 1953, Sayı: 3 (15), s. 1-3.
55. Resulzade M.E. Türk kültür birliği // "Azerbaycan", Ankara, Yıl: 2, Eylül, 1953, Sayı: 6 (18), s. 1-3; "Mədəniyyət dünyası", VII buraxılış, Bakı: ADMİU, 2003, s.11-12.



56. Resulzade M.A. "Müsavat" partisinin kuruluşu // "Azerbaycan" (Ankara), Azerbaycan kültür dernegi Aylık Yayın Orqanı, sayı: 167 (2), şubat 1966, s. 12-18.
57. Swietochowski T. Müslüman cemaatten ulusal kimliğe Rus Azerbaycanı 1905-1920 (Türkçesi: Nuray Mert). İstanbul: Bağlam yayınları, 1988, 295 s.
58. Toğan Z.V. Hatıralar (Türkistan və digər müslüman Doğu Türklerinin milli varlık ve kültür mücaddeleri). İstanbul: 1969, Ankara, Türkiye Diyanet Vakfı Yayınları, 1999, 630 s.
59. Yurtsever A.. Abdulla Şaik vefat etti // "Azerbaycan" (Ankara), Azerbaycan Kültür Dernegi yayınları, 1959, sayı 4-5; "Mədəniyyət dünyası", II buraxılış. Bakı: ADMİU, 2001, s. 14-15.

**Arxiv materialları**

60. Abdulla Şaiqin Mənzil Muzeyinin arxivi, qovluq 1, aşağı rəf, IV sıra.
61. Abdulla Şaiqin Mənzil Muzeyinin arxivi. qovluq 4. Naxçıvan əskəriyyə komissarı və xarici işlər naziri Yusif Ziya Axund Mustafa oğlu Talıbzadənin Azərbaycanın dövlət xadimləri Mirzə Davud Hüseynova və Əliheydər Qarayevə məktubu (22 fevral 1921-ci il. Kars şəhəri).
62. Abdulla Şaiqin Mənzil Muzeyinin arxivi, qovluq 4 (İsa Həbibovun Kamal Talıbzadəyə məktubu (21 may, 1987-ci il, Naxçıvan şəhəri).

63. Abdulla Şaiqin Mənzil Muzeyinin arxivi, qovluq 4 (Kamal Talıbzadənin "Yusif Ziya Talıbzadə" başlıqlı məqaləsinin əlyazması).
64. Abdulla Şaiqin Mənzil Muzeyinin arxivi, qovluq 4 (Hüsnəddin Rzayevin Axund Yusif Ziya Talıbzadə haqqında xatirələri (xatirələrin K.Talıbzadə tərəfindən yazıya alınmış əlyazması).
65. Naxçıvan MSSR. MDA, fond 63, siyahı 1, saxlama vahidi 14/4, vərəq 7-8.



## Mündəricat

Ön söz....................3

**I Fəsil.**
Mədəniyyət tarixidə milli istiqlal mübarizəsinin əsas istiqamətləri....................8

**II fəsil.**
Türküstan milli hərakatının dini və milli-mədəni amilləri.......61

Nəticə....................145

İstifadə edilmiş ədəbiyyat....................146

Arxiv materialları....................151

**"İN-2017"MMC**

*Çapa imzalanmış 21.11.2017-ci il*
*Kağız formatı 60x84 1/16, çap vərəqi 10*
*Sifariş 509, sayı 100*